# QARABAĞ AZƏRBAYCANDIR!

RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 215 (8531) BAZAR, 18 oktyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

## *Prezident İlham ƏLİYEV:* “Füzuli şəhəri və rayonun 7 kəndi işğaldan azad edilib”

Rəşadətli Azərbaycan Ordusu tərəfindən Füzuli rayonunun Qoçəhmədli, Çimən, Cuvarlı, Pirəhmədli, Musabəyli, İşıqlı, Dədəli kəndləri və Füzuli şəhəri işğaldan azad edilib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev özünün rəsmi ”Twitter” səhifəsində bildirib.

## *Birinci vitse-prezident Mehriban ƏLİYEVA:* “Gəncəyə xaincəsinə edilən hücum təcavüzkarın Azərbaycan Ordusu qarşısında total acizliyinin təzahürüdür”



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Ermənistanın Gəncəyə növbəti raket hücumu ilə bağlı rəsmi “Instagram” səhifəsində paylaşım edib. AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:

“Nə dərəcədə insanlıqdan uzaq, yırtıcı olmalısan ki, şəhərin heç bir hərbi infrastrukturun olmadığı yaşayış məhəllələrinə gecə vaxtı, sakinlər yatarkən raket zərbələri endirilməsi barədə növbəti dəfə əmr verəsən?

Bu gecə Gəncəyə xaincəsinə edilən hücum təkcə Ermənistan hakimiyyətinin faşist mahiyyətinə və onun prinsipsizliyinə dəlalət etmir, həm də təcavüzkarın Azərbaycan Ordusu qarşısında total acizliyinin təzahürüdür.

Dinc vətəndaşların məqsədyönlü şəkildə hədəfə alınması insanlığa qarşı cinayətdir. Bu cinayətə laqeyd qalmaq isə onun iştirakçısına çevrilmək deməkdir!

Bu facİə nəticəsində həlak olanların ailələrinə və doğmalarına dərin hüznlə başsağlığı verirəm və bütün yaralıların tezliklə sağalmasını arzulayıram.

Ulu Tanrı xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!”

# İLHAM ƏLİYEV Füzulini işğaldan azad etdi

## Azərbaycan Ordusu daha 7 kəndə qələbə bayrağını sancdı



## “Heç bir qüvvə bizi dayandıra bilməz!”

### Prezident İlham Əliyevin müraciəti

*Oktyabrın 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edib. AZƏRTAC müraciəti təqdim edir.*

- Əziz həmvətənlər.

Bu gün Ermənistanın faşist rəhbərliyi növbəti hərbi cinayət törədib. Gəncə və Mingəçevir şəhərləri raket atəşinə məruz qalıb. Bu namərd atəş nəticəsində soydaşlarımız həlak olub, yaralanıb. Allah bütün şəhidlərimizə rəhmət eləsin, yaralı soydaşlarımıza Allah şəfa versin!

Bu, bir daha Ermənistan rəhbərliyinin faşist mahiyyətini göstərir. Birinci dəfə deyil ki, bizim şəhərlərimiz atəşə məruz qalır və demək olar ki, hər gün Tərtər, Ağdam, Goranboy, Ağcabədi və digər şəhərlərə Ermənistan atəş açır. Bu atəş nəticəsində vətəndaşlarımız həlak olur, yaralanır, 2 mindən çox ev dağıdılıb, ya da ki, bu evlərə çox böyük ziyan vurulubdur. Ancaq bu namərd hərəkətlər Azərbaycan xalqının iradəsini qıra bilməz.

Ermənistan rəhbərliyi hərbi cinayət törədir. Dinc əhaliyə atəş açmaq, özü də əməliyyat operativ raket kompleksləri vasitəsilə atəş açmaq hərbi cinayətdir. Onlar bu cinayətə görə məsuliyyət daşımalıdırlar və daşıyacaqlar. Biz isə onların cavabını döyüş meydanında veririk. Şəhidlərin, günahsız insanların qisasını döyüş meydanında alırıq və alacağıq. Biz heç vaxt mülki əhaliyə qarşı mübarizə, müharibə aparmamışıq, bundan sonra da aparmayacağıq. Biz ermənilər deyilik. Bizim öz yolumuz var, bizim öz amalımız var və bütün Azərbaycan xalqı bu amal ətrafında birləşib. Bütün Azərbaycan xalqı həmrəylik, vətənpərvərlik göstərir.

Müzəffər Azərbaycan Ordusu gedən döyüşlərdə düşmənləri bizim torpağımızdan qovur və qovacaqdır. Mən demişəm ki, öz xoşları ilə bizim torpaqlarımızdan çıxmasalar, biz onları iti qovan kimi qovacağıq və qovuruq. Müzəffər Azərbaycan Ordusu hər gün yeni strateji məntəqələri, yeni yüksəklikləri, yeni yaşayış məntəqələrini işğalçılardan azad edir. Bizim qisasımız döyüş meydanındadır.

Bu günlər ərzində - 27-si sentyabr tarixindən bugünə qədər Ermənistanın hərbi potensialına sarsıdıcı zərbə vurulubdur. Sadəcə olaraq, vətəndaşlarımızın diqqətinə bəzi rəqəmləri çatdırmaq istəyirəm. Bildirməliyəm ki, çatdıracağım siyahı natamamdır, düşmənin daha böyük həcmdə texnikası məhv edilib və əlbəttə ki, döyüş zamanı bunun dəqiq hesablanması mümkün deyil.

*Ardı 2-ci səh.*



# Biz qisasımızı döyüş meydanında alırıq!

## Ermənistan Gəncədə növbəti qəddar müharibə cinayəti törətdi

Əslində düz 30 il idi ki, biz hər səhərimizi cəbhədən bəd xəbərlərlə açmağa öyrəşmişdik. Bu qanlı sabahlarda çox acılar, faciələr bir-birini əvəz etmişdi. Erməni vəhşilərinin xalqımıza qarşı törətdiyi qan donduran əməllər dayanmaq, durmaq bilməmişdi.

Biz bəşər tarixində bənzərinə rast gəlinməyən Xocalı soyqırımı kimi tüklər ürpədən bir faciə ilə üz-üzə qalmışdıq. Doğma yurdlarımızdan qovularaq Qarabağa həsrət qalan bir milyondan çox qaçqına, köçkünə çevrilmişdik. Amma haqsızlıq görsək də, zülmlə qarşılaşsaq da, heç bir zaman insanpərvərliyimizdən əl çəkməmiş, qan tökülməsinə razı olmamışıq. Biz hər zaman sülhə tərəfdar çıxmışdıq...

Çifayda...

Qarşımızdakı düşmən genetikasında qəddarlıq, qaniçənlik, xainlik, namərdlik kimi naqis hisslərin kodlaşdırıldığı erməni idi...

Hünər meydanında, açıq döyüşlərdə hər zaman qorxaraq qaçan, Azərbaycan əsgərinin adı gələndə zağ-zağ əsən riyakar, hiyləgər, xain erməni gücünü yalnız silahsız, müdafiəsiz insanlar üzərində sınamağı üstün tutub. Gizləndikləri məkr yuvalarından gündüz çıxmağa cəsarətləri çatmadığı üçün, həmişə xain pusqunu gecələr qurublar, günahsız insanlara yatdıqları yerdə namərd hücumlar ediblər.

*Ardı 7-ci səh.*

**Azərbaycan Ordusu tərəfindən düşmənin 234 tankı, 49 piyadaların döyüş maşını, 16 özüyeriyən artilleriya qurğusu, 190 müxtəlif çaplı toplar, 2 “Uraqan” sistemi, 1 TOS odsaçan, 2 “Elbrus” əməliyyat-taktiki raket kompleksi, 1 “Toçka-U”, 3 “S-300”, 35 OSA zenit raket kompleksi, 3 “TOR”, 5 “Kruq”, 1 “S-125”, 1 “Tor-M2KM” zenit raket kompleksləri, 9 radioelektron mübarizə sistemləri, 196 yük avtobili, 1 Su-25 təyyarəsi, 1 BM-21 “Qrad” yaylım atəşli reaktiv sistemi məhv edilib. 36 tank, 24 piyadaların döyüş maşını, 98 yük avtomobili hərbi qənimət kimi götürülüb.**

# “Heç bir qüvvə bizi dayandıra bilməz!”

## Prezident İlham Əliyevin müraciəti

Əvvəli 1-ci səh.



Ancaq gətirəcəyim rəqəmlər əyani şəkildə göstərir ki, biz döyüş meydanında tam üstünlüyü əldə etmişik və demək olar ki, Ermənistanın hərbi-texniki potensialını böyük dərəcədə sıradan çıxara bilmişik. Ancaq sual olunur: bu qədər silah, bu qədər texnika Ermənistanda haradandır? Ermənistanın hərbi büdcəsi bəlli, Ermənistanın dövlət büdcəsi də bəlli. Ermənistan bankrot ölkədir. Bu ölkənin xarici dövlət borcu ölkənin ümumi daxili məhsulunun 60-70 faizini təşkil edir. Bu ölkənin sərbəst valyuta ehtiyatları cəmi 1,5 milyard dollardır, bu da bank rezervləridir. Yəni bu, sərbəst vəsait deyil. Hansı pulla bu silah və texnikanı alır? Təkcə bu günə qədər məhv edilmiş və qənimət kimi götürülmüş texnikanın qiyməti aşağısı 2 milyard dollar səviyyəsindədir. Ancaq hələ də bunların texnikası qalıbdır. Hələ də həm işğal edilmiş torpaqlarda, eyni zamanda Ermənistan ərazisində. Sual olunur, kim onları silahlandırır? Bəzi hallarda bizə qarşı iradlar irəli sürülür ki, biz silahlanırıq, biz silah alırıq və bu, elə bil ki, vəziyyəti gərginləşdirə bilər, vəziyyəti məqbul olmayan məcraya istiqamətləndirə bilər. Ancaq sual olunur, bəs Ermənistan silahlananda? Bəs, bu kasıb, yoxsul ölkədə bu qədər silah-texnika haradandır və bu gün də onlara qaçaq yollarla, qaçaqmalçılıq sxemləri əsasında silahlar, texnika göndərilir və çox təhlükəli, böyük dağıdıcı gücə malik olan texnikalardır. Ona görə biz bu suallara cavab istəyirik və əminəm ki, biz bu cavabı alacağıq.

İndi isə son günlər ərzində Azərbaycan Ordusu tərəfindən məhv edilmiş Ermənistan texnikasının bir hissəsini xalqımın diqqətinə çatdırıram. Beləliklə, məhv edilmiş Ermənistan texnikası: tank - 234 ədəd məhv edilib, 36 tank hərbi qənimət kimi götürülüb, piyadaların döyüş maşını - 49-u məhv edilib, 24-ü hərbi qənimət kimi götürülüb. Özüyeriyən artilleriya qurğusu 16 ədəd məhv edilib, müxtəlifçaplı toplar 190, “Uraqan” sistemi 2, TOS odsaçan 1, əməliyyat taktiki raket kompleksi “Elbrus” 2, “Toçka-U” 1, OSA zenit raket kompleksi 35, TOR zenit-raket kompleksi 3, KUB və “Kruq” zenit raket kompleksi 5, radioelektron mübarizə sistemləri 9, S-300 zenit raket kompleksi 2, yük avtomobilləri 196-sı məhv edilib, 98-i qənimət kimi götürülüb. Hər bir adam, hər bir mütəxəssis bu texnikanın qiymətini açıq mətbuatdan götürə bilər və bu suallara biz cavab tapmalıyıq və tapacağıq.

Şanlı Azərbaycan Ordusu öz xilaskarlıq missiyasını uğurla davam etdirir. Son günlər ərzində mən xalqıma xəbər verərək, yeni azad edilmiş kəndlərin adlarını açıqlamışdım. Bu gün də böyük məmnunluq hissi ilə, böyük sevinc hissi ilə azad edilmiş növbəti yaşayış məntəqələrinin adlarını əziz xalqıma çatdırmaq istəyirəm. Bu gün Füzuli rayonunun aşağıdakı yaşayış məntəqələri işğalçılardan azad edilib - Qoçəhmədli kəndi, Çimən kəndi, Cuvarlı kəndi, Pirəhmədli kəndi, Musabəyli kəndi, İşıqlı kəndi, Dədəli kəndi və Füzuli şəhəri. Füzuli şəhəri işğalçılardan azad edilib, Füzuli bizimdir, Qarabağ Azərbaycandır!

Mən bu münasibətlə bütün Azərbaycan xalqını ürəkdən təbrik edirəm. Bu münasibətlə əziz füzulililəri ürəkdən təbrik edirəm. Uzun illərin doğma torpaq həsrəti sona çatır. Biz öz üzərimizə düşən missiyanı şərəflə yerinə yetiririk, ölkəmizin ərazi bütövlüyünü bərpa edirik və bərpa edəcəyik. Füzuli uğrunda döyüşlər ağır döyüşlərdi. Vaxt keçəcək bu döyüşlər haqqında kitablar yazılacaq, əsərlər yazılacaq. Doğrudan da, çox böyük peşəkarlıq, məharət, şücaət, fədakarlıq tələb edən döyüşlərdi. Çünki bu 30 il ərzində düşmən təmas xəttində o qədər möhkəm istehkam qurmuşdur ki, bəziləri hesab edirdi ki, Füzuli şəhərini işğaldan azad etmək mümkün deyil. Hətta ən tanınmış hərbi mütəxəssislər də belə fikirdə idi ki, Füzulini götürmək, onu işğaldan azad etmək üçün bəlkə aylarla vaxt lazım olacaq və bu əməliyyat uğurla nəticələnəcək-nəticələnməyəcək hələ böyük sual altında idi. Ancaq müzəffər Azərbaycan Ordusu bu şərəfli missiyanın öhdəsindən gələ bildi və qısa müddət ərzində Füzuli rayonunun əksər kəndləri və Füzuli şəhəri düşmənin tapdağından azad edildi. Füzuli şəhəri deyəndə, əlbəttə, biz hamımız bilməliyik ki, şəhərdən bir şey qalmayıb, əsər-əlamət qalmayıb, bir dənə də salamat bina qalmayıb. Çünki otuz il ərzində o vəhşilərin əlində idi, yırtıcı heyvanların əlində idi, çaqqalların əlində idi. Bütün binalar sökülüb, dini abidələrimiz sökülüb, hər şey talan edilib, evlərin dam örtükləri, pəncərələri, əşyaları, hər şey. Sanki vəhşi bir qəbilə bu şəhəri zəbt etmişdir. Füzuli şəhərinin qalıqları erməni faşizminin təzahürüdür və erməni faşizminin şahididir.

Biz Füzuliyə qayıdacağıq, biz bütün kəndləri yenidən quracağıq, abadlaşdıracağıq. O kəndlərə həyat qayıdacaq. Necə ki, vaxtilə Ulu Öndərin rəhbərliyi ilə Azərbaycan Ordusu Füzuli rayonunun 22 kəndini işğaldan azad edib, o cümlədən Horadiz qəsəbəsini. İndi baxın, görün necə gözəl məkandır. Horadiz qəsəbəsi çox abad, müasir şəhərə çevrilibdir. İşğaldan azad edilmiş kəndlərdə füzulililər yaşayır. Deyə bilərəm ki, bu günə qədər işğaldan azad edilmiş kəndlərdə Füzuli əhalisinin təqribən yarısı məskunlaşıbdır. Ancaq bu gün artıq füzulililərin yaşadıqları kəndlər azad edilib və oraya həyat qayıdacaq, onlar qayıdacaqlar, onlar orada yaşayacaqlar, öz əcdadlarının qəbirlərini ziyarət edəcəklər. Orada bərpa olunacaq məscidlərdə azan səsi eşidiləcək. Biz öz şərəfli missiyamızı yerinə yetiririk. Mən tam əminəm ki, bundan sonra da şanlı Azərbaycan Ordusu işğalçıları torpağımızdan qovmağa davam edəcəkdir.

Füzuli əməliyyatı rəmzi məna daşıyır. Bizim tarixi, qədimi yaşayış məskənimizi Azərbaycan özünə qaytardı, on minlərlə insanın o yerlərə qayıtmasını təmin etdi. Eyni zamanda, strateji nöqteyi-nəzərdən Füzulinin təmas xəttində yerləşən bir neçə müdafiə xəttinin yarılması bizə növbəti strateji üstünlüklər verir. Çünki Füzuli istiqamətində yerləşən bizim hərbi qüvvələrimiz bu günlər ərzində orada döyüşlər aparırdı. İndi təbii ki, bu, sirr deyil, biz Füzuliyə hansı tərəfdən girə bildik. Hansı böyük hərbi peşəkarlıq və rəşadət nəticəsində biz Füzulini işğalçılardan azad edə bildik. Ondan əvvəl Cəbrayıl şəhəri işğalçılardan azad edildi. Ondan əvvəl Hadrut işğalçılardan azad edildi. Xocavənd və Cəbrayıl rayonlarının, o cümlədən Füzuli rayonunun bir çox kəndləri işğaldan azad edildi. Məhz ondan sonra biz Füzuli şəhərini işğalçılardan azad edə bilmişik.

Düşmən son mərhələdə öz silahlarını yerə qoyub qaçmışdı. Bu gün tam məsuliyyətlə deyə bilərəm ki, Füzuli əməliyyatı hərbi kitablara daxil ediləcək. Təkcə Füzuli əməliyyatı yox, başqa əməliyyatlar. Bu gün məndə olan məlumata görə, hərbi mütəxəssislər artıq açıq-aydın bildirirlər ki, Azərbaycan Ordusu böyük döyüş qabiliyyətinə və texniki təminata malik olan bir ordudur.

Bu gün tarixi bir gündür. On yeddisi oktyabr nəinki füzulililərin xatirəsində, Azərbaycan dövlətinin tarixində əbədi qalacaqdır. Bu gün biz hamımız, bütün Azərbaycan xalqı xalqımızın, dövlətimizin ən parlaq səhifəsini yazırıq, birlikdə yazırıq. Biz bu gün həmrəylik, qarşılıqlı dəstək, birlik göstərərək bu şanlı tarixi yazırıq. Biz xoşbəxtik ki, bu anları yaşayırıq. Ancaq bu anları səbirsizliklə gözləyən, həyatdan gedən on minlərlə bizim qaçqın, köçkünümüz, əfsuslar olsun ki, bu günləri görməyib. Ancaq bu gün əminəm ki, onların ruhu şaddır. Çünki onların doğma dədə-baba torpaqları işğalçılardan azad edilib.

Baxmayaraq ki, namərd, xain, alçaq düşmən hərbi cinayətlər törədir, dinc əhalini atəşə tutur, bugünkü atəş nəticəsində azyaşlı uşaqlar da həlak olub, mən bir daha demək istəyirəm ki, biz qisasımızı mülki vətəndaşlardan almamalıyıq. Biz döyüş meydanında qisasımızı alırıq, alacağıq, şəhidlərimizin, həlak olanların qanı yerdə qalmır və qalmayacaqdır. Bir daha Ermənistanın faşist rəhbərliyinə xəbərdarlıq edirəm ki, qalan torpaqlardan öz xoşu ilə çıxsın. Onsuz da biz onları oradan rədd edəcəyik. Onsuz da onların izi-tozu da o torpaqlarda qalmayacaq. Onsuz da onları biz sona qədər qovub torpağımızdan rədd edəcəyik. Öz xoşu ilə getsin!

Füzulini təslim etmək istəmirdi. Halbuki başa düşürdü ki, bunu saxlaya bilməyəcək. Cəbrayılı təslim etmək istəmirdi. Dünən, srağagün və bu gecə Cəbrayıl istiqamətində də uğurlu əməliyyatlar keçirilibdir, strateji yüksəkliklər götürülübdür. Bu haqda hələ ki, mən bir şey demək istəmirəm, hadisələri qabaqlamaq istəmirəm. Ancaq bu gün müzəffər Azərbaycan Ordusu öz məqsədinə çatır və çatacaq, bizim ərazi bütövlüyümüz bərpa edilir və ediləcək. Heç bir qüvvə bizi dayandıra bilməz. Heç bir qüvvə Azərbaycan xalqının iradəsi qarşısında duruş gətirə bilməz. Bunu hər kəs bilməlidir. Bizim qabağımızda heç kim dura bilməz. Çıxsın yırtıcı Ermənistan dövləti bizim torpağımızdan. Ondan sonra atəşkəs təmin edilər. Atəşkəs elan olundu, ondan bir gün keçmədi Gəncəni bombaladılar. Özü də haranı? Yaşayış massivlərini. Bu gün də haranı vurdular? Yenə də yaşayış massivlərini. Nə vaxt vurdular? Gecə saatlarında ki, daha çox insan həlak olsun.

Bu, insanlığa qarşı cinayətdir. Əgər beynəlxalq birlik Ermənistanı törədilmiş cinayətlərə görə məsuliyyətə cəlb etmək istəmirsə, - necə ki, Xocalı soyqırımına görə heç kim onları məsuliyyətə cəlb etməyib, - biz özümüz onları məsuliyyətə cəlb edəcəyik. Biz özümüz onların cəzasını verəcəyik, özümüz onları cəzalandıracağıq və bizim cəzamız ədalətli cəza olacaqdır. Onlar ən ağır cəzaya layiqdirlər. Ermənistanın hərbi-siyasi rəhbərliyi cinayətkarlardır və biz bu cinayətkarları cəzalandıracağıq.

“Qarabağ Ermənistandır” deyən Ermənistanın baş naziri, nə oldu, indi demirsən “Qarabağ Ermənistandır”. Gəl Füzuliyə, sən orada bizim torpağımızı istismar edirdin. Gəl Cəbrayıla, gəl Hadruta, gəl azad edilmiş başqa yerlərə, de ki, “Qarabağ Ermənistandır”. Oturmusan orada - İrəvanda, oradan bəyanatlar verirsən, dünya liderlərinin zəhləsini tökürsən, adam qalmayıb ki, telefonla zəng etməyəsən.

Niyə demirsən “Qarabağ Ermənistandır”. Qorxursan, qorxacaqsan. Bəs Azərbaycan xalqını təhqir edəndə, “Qarabağ Ermənistandır və nöqtə” deyəndə niyə belə cəsarətli idin? Kimə güvənirdin? Kimə arxalanırdın? Bilmirdinmi ki, gün gələcək bu əməllərə görə cavab verəcəksən. Bu gün gəlibdir və gəlir. Şuşaya Livandan, başqa ölkələrdən erməniləri gətirib məskunlaşdırmaq hərbi cinayətdir, Cenevrə Konvensiyasına ziddir. Nümayişkaranə bunu edirlər, televiziyada göstərirlər, necə ki, ermənilər gəliblər bizim qədim torpağımızda yaşamağa, işləməyə. İndi baxım görüm kim gələcək Şuşaya məskunlaşmağa. Cəbrayıla yeni yol çəkirdin Ermənistandan. Nə üçün? O bölgəni, Arazboyu bölgəmizi qanunsuz yollarla zəbt edib, ondan sonra orada erməniləri məskunlaşdırmaq üçün? Bizi fakt qarşısında qoymaq istəyirdin. Ermənistanda əhali az olduğu üçün xaricdən erməniləri müxtəlif yollarla, o cümlədən onları aldadaraq gətirib orada məskunlaşdırmaq nə məqsədi daşıyırdı? Bizim tarixi torpaqlarımızı əbədi işğal altında saxlamaq, əbədi işğalı təmin etmək və bizim torpaqlarımızı erməniləşdirmək məqsədi? Baxın, onlar Füzuliyə hansısa bir eybəcər ad veriblər. Bu ad sizin başınıza dəysin. Bu ad cəhənnəmə getsin. Bu ad yoxdur artıq. Madagiz adı da yoxdur - Suqovuşandır. Biz başqa tarixi adlarımızı da bərpa edəcəyik. Şuşaya dırnaqarası qurumun parlamentini köçürürdün bəs. Get köçür, görüm necə köçürəcəksən! O saxta, quldur dəstə başçısının “andiçmə mərasimi”nin keçirildiyi yer nə gündə olub. Darmadağın etmişik oranı, darmadağın. Yeddi şərt qoyurdun bizim qarşımızda. Ultimatumla danışırdın. İndi görüm, hansı şərti qoyursan. Nə oldu bəs? Onun-bunun ətəyindən yapışıb, onun-bunun ayağının altına yıxılıb imdad diləyirsən ki, Azərbaycanı durdurun. Azərbaycana deyin ki, daha dayansın. Çıx torpağımızdan dayanaq. Rədd ol torpağımızdan dayanaq. Mən bunu demişəm, gizlətmirəm. Azərbaycan xalqı da bunu bilir, beynəlxalq aləm də bunu deyir. Hər gün bunu deyirəm, çıx de ki, sabah mən buradan çıxıram, dayanırıq. Bizə qan tökmək lazım deyil. Bizə torpaq lazımdır. Biz bu torpağı istənilən yolla alacağıq. Hər kəs bunu bilsin. Artıq son günlərin tarixi bunu göstərir.

Azərbaycan xalqını təhqir etmək sizə çox baha başa gəlir, Ermənistan rəhbərliyi, çox baha başa gəlir. Ermənistan əhalisi, nəhayət, bu kriminal rejimin başçılarını məsuliyyətə cəlb etməlidir. Artıq Ermənistanda hərbi komissarlıqlarda mitinqlər təşkil edilir, analar yolları kəsir, qoymurlar ki, uşaqları getsin başqa ölkənin torpağında ölsün. Mən də erməni xalqına müraciət etmişdim və bir daha müraciət edirəm: Qoymayın uşaqlarınızı! Nə işi var onların bizim torpağımızda? Öz ölkənizdə yaşayın. Bizim sizinlə heç bir işimiz yoxdur. Gedin yaşayın öz ölkənizdə, nə edirsiniz edin, amma bizim torpaqdan çıxın. Əminəm ki, erməni xalqı da öz cinayətkar xunta rejimi başçılarını məsuliyyətə cəlb edəcək. Biz isə haqq yolundayıq, ədalət yolundayıq. Biz haqlıyıq, biz öz torpağımızda vuruşuruq, öz torpağımızda şəhidlər veririk. Bizim savaşımız müqəddəs savaşdır!

Biz döyüş meydanında gücümüzü göstərdik, həm düşmənə, həm də bütün dünyaya. Döyüş meydanında göstərdiyimiz güc və onun mənbəyi Azərbaycan xalqının iradəsidir, Azərbaycan xalqının istedadıdır və bizim əldə etdiyimiz uğurlardır.

Bir daha demək istəyirəm ki, biz xoşbəxt insanıq, bizim nəslimiz xoşbəxtdir ki, bu sevincli günləri görə bilirik. Mən özümü xoşbəxt insan hesab edirəm ki, bu sevincli xəbərləri doğma xalqıma çatdırıram. Ali Baş Komandan kimi bütün işlərə rəhbərlik edirəm və Azərbaycan xalqını əmin etmək istəyirəm ki, bundan sonra da öz fəaliyyətimdə ölkəmizin, xalqımızın milli maraqlarını qorumaq üçün əlimdən gələni əsirgəməyəcəyəm. Heç bir təhdid, heç bir hədə, heç bir təzyiq mənim iradəmə təsir edə bilməz. Bizim işimiz haqq işidir. Biz öz torpağımızda vuruşuruq, öz ərazi bütövlüyümüzü bərpa edirik.

Yaşasın Azərbaycan Ordusu! Yaşasın Azərbaycan xalqı! Qarabağ Azərbaycandır!

# H.İ.Mirzəyevə general-leytenant ali hərbi rütbəsinin verilməsi haqqında

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

General-mayor Hikmət İzzət oğlu Mirzəyevə general-leytenant ali hərbi rütbəsi verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 17 oktyabr 2020-ci il*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident.

Ermənistan ilə Azərbaycan arasında gərginliyin artmasını, Gəncə şəhərinin davamlı atəşə tutulmasını, insanların, o cümlədən uşaqların həlak olmasını həyəcanla izləyirəm.

BMT Təhlükəsizlik Şurasının 30 il əvvəl qəbul etdiyi 822, 853, 874 və 884 saylı qətnamələrinə baxmayaraq, heç nə dəyişməyib. Azərbaycanın mülki əhalisinə və mülki hədəflərinə qarşı həyata keçirilən bu hücumlar beynəlxalq humanitar hüququn və insan haqlarının kobud şəkildə pozulmasıdır.

Həmsədrlərimizin sərt bəyanatı ilə yanaşı, biz Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvləri kimi öz təcrübələrimizdən istifadə edərək kömək göstərməyə hazırıq.

Sizə və Azərbaycan xalqına ən xoş arzularımı çatdırıram. Dualarımız Sizinlədir.

*Hörmətlə,*

***Kirill QABURİÇ,***
***2015-ci ildə Moldovanın Baş Naziri,***
***2008-2019-cu illərdə İnfrastruktur və İqtisadiyyat naziri,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

Hörmətli cənab Prezident İlham Əliyev.

"Azərbaycanın Dostları" Ermənistanın mülki insanları hədəfə alaraq Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncəyə qarşı həyata keçirdiyi raket hücumunu və bunun nəticəsində günahsız insanların həlak olmasını kəskin şəkildə pisləyir.

Bu hücum Ermənistan tərəfindən günahsız insanlara qarşı törədilmiş açıq-aşkar təcavüz aktıdır və müharibə cinayəti hesab edilir.

Ermənistanın atəşkəs haqqında razılaşmanı pozaraq mülki əhalini davamlı şəkildə hədəfə alması onun Azərbaycana qarşı yürütdüyü təcavüzkar planlarının və siyasətinin təzahürüdür.

"Azərbaycanın Dostları" bu çətin vaxtda Azərbaycan vətəndaşı və Azərbaycan hökumətinin yanındadır və biz Azərbaycan Respublikasının torpağı olan Dağlıq Qarabağla bağlı ölkənizin prinsipial mövqeyini dəstəkləməkdə davam edəcəyik.

Mən Sizə Gəncə şəhərinə hücum zamanı insanların həlak olması ilə əlaqədar dərin hüznlə başsağlığı verirəm. Erməni vəhşiliyi nəticəsində yaralanmış insanlara isə tezliklə şəfa tapmalarını diləyirəm.

Allah Sizi və Azərbaycan xalqını qorusun! Amin.

*Səmimiyyətlə,*

***Malik Ayyub SUMBAL,***
***"Azərbaycanın Dostları" sosial şəbəkəsinin rəhbəri***

# Ceyhun Bayramov beynəlxalq təşkilatların rəhbərlərini və xarici dövlətlərdəki həmkarlarını Ermənistanın müharibə cinayətləri barədə məlumatlandırıb

Oktyabrın 17-də Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın ikinci böyük şəhəri olan Gəncənin növbəti dəfə raket atəşinə tutulması dinc əhalinin, mülki infrastrukturun hədəfə alınması ilə əlaqədar Xarici İşlər naziri Ceyhun Bayramov beynəlxalq təşkilatların rəhbərləri və xarici dövlətlərdəki həmkarları ilə əlaqə yaradıb. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazir Ermənistan tərəfinin yenidən törətdiyi müharibə cinayəti və insanlıq əleyhinə cinayət nəticəsində azərbaycanlı mülki əhali arasında çoxsaylı itkilərin və yaralıların olması ilə əlaqədar qarşı tərəfə məlumat verib.

Şiddətlə qınadığımız bu qanlı cinayətin bütün məsuliyyətinin Ermənistanın üzərində olduğu qarşı tərəfin diqqətinə çatdırılıb.

# "Düşmən döyüş meydanında qorxaqlığının qisasını xaincəsinə mülki insanlardan alır"

Əziz Gəncə sakinləri, mən, ilk növbədə, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın başsağlığını çatdırmaq istərdim. Allah şəhidlərimizə rəhmət eləsin. Yaralananların tezliklə şəfa tapmasını diləyirik. Mənfur düşmənlə üz-üzəyik. O düşmən ki, döyüş meydanında zəifliyinin, qorxaqlığının qisasını xaincəsinə mülki insanlardan alır. AZƏRTAC-ın bölgəyə ezam olunmuş müxbiri xəbər verir ki, bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Gəncədə yerli sakinlərlə görüşdə söyləyib.

Hikmət Hacıyev deyib: "Bir həftə bundan əvvəl, ondan əvvəlki günlərdə də Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəyə xain hücum keçirilmişdir. Onlar bu məqsədlə raketlərdən, ilk növbədə, "Skad" raketindən istifadə edirlər. Bu dəfə də böyük dağıdıcı gücə malik olan "Skad" raketindən istifadə olundu. Mənfur düşmən dinc azərbaycanlı sakinlər arasında qırğın törətmək istəyir. O cümlədən Gəncə sakinləri arasında təşviş yaratmaq istəyir. Amma onlar məqsədlərinə heç vaxt nail ola bilməyəcəklər. Azərbaycan xalqının bu gün qəti bir əzmi var: Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan torpaqları işğaldan azad edilsin".

Prezidentin köməkçisi bildirib ki, düşmən bu mənfur cinayətlərini gizlətmək, beynəlxalq ictimaiyyəti aldatmaq üçün yalan məlumatlar, dezinformasiya yaymaqdadır. "Təşəkkür edirik ki, Azərbaycan Respublikasında akkreditə olunan səfirlər, səfirliklərin əməkdaşları, beynəlxalq təşkilatların nümayəndələri, hərbi attaşelər Gəncədədirlər. Onlar bizimlə birlikdə gəldilər və Gəncə faciəsi, Ermənistan silahlı qüvvələrinin xaincəsinə, alçaqcasına, şərəfsizcəsinə törətdiyi bu cinayətlə yerində tanış oldular. Təəssüf hissi ilə qeyd etmək istəyirəm ki, biz bir həftə bundan əvvəl də Gəncədəydik. Yenə də faciəli bir hadisə baş vermişdi. İndi biz yenə də növbəti faciə ilə əlaqədar Gəncəyə gəlmişik. Beynəlxalq ictimaiyyətin gözü qarşısında bu kimi iyrənc, şərəfsiz hücumun baş verməsinin bir daha şahidi oluruq. Xarici diplomatlar bu barbarlığı görürlər və öz ölkələrinə bu barədə məlumat verəcəklər. Gəncədə bu hücum nəticəsində əziyyət çəkmiş, həyatını itirmiş insanların ah-naləsi yerdə qalmayacaq. Çox təəssüflə qeyd edək ki, erməni terroru qurbanlarının arasında hətta azyaşlı uşaqlar da var. Bir daha Uca Allahdan onlara rəhmət diləyirik", - deyə Hikmət Hacıyev qeyd edib.

Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri bildirib ki, beynəlxalq media nümayəndələri də Gəncədədirlər və Azərbaycanın haqq səsi bütün beynəlxalq ictimaiyyətə çatdırılmalıdır.

"Gəncə sakinləri həmişə möhkəm olub, dövlətçiliyimizin yanında dayanıblar. Bu Vətən müharibəmizdə Gəncənin də şəhidləri var. Gəncə, eləcə də Azərbaycanın digər şəhərləri - Tərtər, Bərdə, Ağcabədi, Beyləqan və Ağdamın kəndləri, hamısı düşmənin artilleriya zərbələrinə baxmayaraq, mətincəsinə, qəhrəmancasına öz əzmlərini nümayiş etdirirlər. Bu gün Ali Baş Komandan tərəfindən hər birimizin 27 il gözlədiyimiz növbəti gözəl bir xəbər çatdırıldı. Bu, Füzuli şəhərinin işğaldan azad edilməsi idi. Düşmən məhz bu kimi məğlubiyyətlərinin əvəzini mülki insanlardan çıxır", - deyə o əlavə edib.

# *Mehriban ƏLİYEVA:* "Gəncə Azərbaycanın döyünən ürəyidir və heç kəs heç vaxt onun sakinlərinin məğrur ruhunu sındıra bilməz!"



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Ermənistanın Gəncədə törətdiyi terror aktı ilə bağlı rəsmi "Instagram" səhifəsində daha bir paylaşım edib. AZƏRTAC paylaşımı təqdim edir.

Bu gecə erməni təcavüzkarları Gəncəyə xaincəsinə hücum ediblər.

Niyyət sadə və eyni zamanda, dəhşətlidir - mümkün qədər çoxsaylı dinc sakinləri məhv etmək, panika yaratmaq, Azərbaycan xalqını qorxutmaq.

Lakin təcavüzkar heç vaxt öz çirkin məqsədlərinə nail olmayacaq. Bu şanlı şəhərin sakinləri ruhən çox güclüdürlər! Gəncə - Nizamidir, Məhsətidir, Vazehdir! Lakin Gəncə təkcə Azərbaycanın mədəni irsi deyil.

Gəncə - qədim dövlətçiliyimizin beşiyidir.

Bu, sarsılmaz dözüm, mərdlik və igidlik rəmzidir!

Gəncə Cavadxanın yurdudur. Bu şəhər Şərqdə ilk demokratik cümhuriyyətin müstəqilliyi uğrunda sona qədər vuruşmuş şəhərdir.

Gəncə Azərbaycanın döyünən ürəyidir və heç kəs heç vaxt onun sakinlərinin məğrur ruhunu sındıra bilməz!

# Diplomatik korpusun nümayəndələri Ermənistan rəhbərliyinin müharibə cinayətlərinin bir daha şahidi olublar

## Atəşkəs çağırışı edən dövlətlər, beynəlxalq təşkilatlar erməni barbarlığına susurlar

Azərbaycandakı diplomatik korpusun rəhbərləri, səfirlər, hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndəliklərinin rəhbərləri oktyabrın 17-də Gəncədə olublar.



AZƏRTAC-ın bölgəyə ezam olunmuş müxbiri xəbər verir ki, diplomatları və hərbi attaşeləri Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Birinci vitse-prezidentin köməkçisi Elçin Əmirbəyov, Baş prokuror Kamran Əliyev və başqaları müşayiət ediblər.

Səfərin məqsədi diplomatları və hərbi attaşeləri oktyabrın 17-də gecə saat 1 radələrində cəbhə zonasından kənarda yerləşən, Azərbaycanın ikinci böyük şəhəri Gəncənin mərkəzi hissəsində Ermənistan silahlı qüvvələrinin raket hücumlarının səbəb olduğu cinayət izləri ilə tanış etməkdir. Xatırladaq ki, xarici diplomatlar oktyabrın 12-də də Gəncədə olmuş, erməni faşizmi nəticəsində oktyabrın 11-də həlak olan dinc sakinlərin xatirəsinə ehtiram əlaməti olaraq dağılmış yaşayış binasının ətrafına gül dəstələri düzmüşdülər.

Ermənistanın hərbi cinayətləri ilə tanış olan xarici diplomatlara və attaşelərə məlumat verilib ki, işğalçı Ermənistan silahlı qüvvələri beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il Cenevrə Konvensiyalarını və onların Əlavə Protokollarını, habelə özlərinin israrlı xahişləri əsasında Moskvada keçirilmiş görüşün yekunu olaraq, razılaşdırılmış humanitar atəşkəs rejiminin tələblərini pozaraq, Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla yaşayış məntəqələrini ağır artilleriyadan atəşə tutmaqda davam edir. Belə müharibə cinayətlərindən sonuncusu oktyabrın 17-də törədilib. Gəncənin mərkəzi hissəsinin raket atəşinə tutulması nəticəsində ilkin məlumata görə, 14 nəfər həlak olub, 55-dən artıq şəxs yaralanıb, çoxsaylı mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib. Həlak olanlar və xəsarət alanlar arasında azyaşlılar, qadınlar və qocalar da var. Axtarış-xilasetmə əməliyyatları davam edir.



Ermənistan ordusunun oktyabrın 11-də törətdiyi müharibə cinayətinin izlərini görmək məqsədilə bu günlərdə diplomatların iştirakı ilə Gəncəyə edilən səfər xatırladılaraq bir daha bildirilib ki, həmin faciə zamanı isə Gəncədə 5-i qadın olmaqla 10 nəfər həlak olmuşdu. Həmçinin 10-u qadın, 9-u azyaşlı olmaqla 34 nəfər yaralanmışdı.

Qeyd olunub ki, əhalinin sıx yaşadığı ərazilərə "Toçka-U", "Smerç", "Skad" və digər raketlərlə hücumun həyata keçirilməsi çoxlu sayda dinc insanın qətlə yetirilməsi məqsədi daşıyır. Dinc vətəndaşların məqsədyönlü şəkildə hədəfə alınması isə insanlığa qarşı cinayətdir. Ermənistan beynəlxalq hüquqa məhəl qoymur, müharibə cinayətlərini davam etdirir, atəşkəs çağırışı edənlər, dünya dövlətləri isə bunu uzaqdan seyr etməklə kifayətlənir. Bu cinayətə laqeyd qalmaq onun iştirakçısına çevrilmək deməkdir.

Vurğulanıb ki, təmas xəttindən uzaqda yerləşən Gəncə Ermənistan ərazisindən atəşə tutulur. Gəncə ilə yanaşı, Azərbaycanın sənaye şəhəri Mingəçevir şəhəri, o cümlədən Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyası olan "Azərbaycan" İstilik Elektrik Stansiyası, həmçinin "Mingəçevir" Su Elektrik Stansiyası da raket atəşinə məruz qalır.

Oktyabrın 17-nə olan məlumata görə, Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində ümumilikdə mülki şəxslərdən 60 nəfər həlak olub, 270 nəfər isə xəsarət alıb. Həmçinin 1704 ev, 90 çoxmənzilli yaşayış binası və 327 mülki obyekt yararsız vəziyyətə düşüb.

Diqqətə çatdırılıb ki, beynəlxalq təşkilatlar hərbi cinayətlər törədən, dinc əhalini hədəf alan Ermənistana siyasi təzyiq göstərməlidir. Əgər Ermənistan bu əməllərini davam etdirəcəksə, Azərbaycan beynəlxalq hüquqa uyğun olaraq cavab tədbirləri görəcək.

Xarici diplomatlar erməni faşizminin izləri ilə tanış olub, həlak olan dinc sakinlərin xatirəsinə ehtiram əlaməti olaraq tamamilə dağılmış yaşayış binasının ətrafına gül düzüblər.

Sonra Gəncə Şəhər Prokurorluğunda Azərbaycandakı diplomatik korpusun rəhbərləri, səfirlər, hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndəliklərinin rəhbərlərinin iştirakı ilə brifinq keçirilib. Brifinqdə erməni vandalizminin acı nəticələrindən danışılıb, bununla bağlı cinayət işinin başlandığı bildirilib, suallar cavablandırılıb.

# Hikmət Hacıyev Türkiyə və Rusiyada akkreditə olunmuş aparıcı xarici KİV nümayəndələrinə mətbuat brifinqi verib

Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Türkiyə və Rusiyada akkreditə olunmuş dünyanın aparıcı xarici KİV nümayəndələrinə (BBC, Nikkei, DPA, Deutsche Welle, Al Arabia, RAI, EFE, Reuters, Financial Times, ANSA, Al Jazeera, NBC, New York Times, NRK və s.) videoformatda mətbuat brifinqi verib.

AZƏRTAC xəbər verir ki, Hikmət Hacıyev humanitar atəşkəsə əməl etməyən Ermənistan silahlı qüvvələrinin beynəlxalq hüquqa zidd olan son təxribatları barədə geniş məlumat verib və 2020-ci il oktyabrın 17-də Gəncə şəhərinin SCUD/Elbrus əməliyyat-taktiki ballistik raketlər ilə hədəfə alındığını diqqətə çatdırıb.

Prezidentin köməkçisi mülki şəxslərin və infrastrukturun Ermənistan tərəfindən davamlı olaraq bilərəkdən hədəfə alındığını söyləyib, Gəncədəki son təxribatlar nəticəsində 2-si uşaq olmaqla 13 nəfərin həlak olduğunu, 50-dən çox insanın yaralandığını və 2 uşağın itkin düşdüyünü təəssüflə bildirib. Ermənistanın Naxçıvanın Ordubad rayonuna da raketlə hücum etdiyini söyləyən Hikmət Hacıyev bununla rəsmi İrəvan tərəfindən müharibənin coğrafiyasının genişləndirilməsi istiqamətində davamlı cəhdlərin olduğunu xüsusilə vurğulayıb.

Habelə Prezidentin köməkçisi Azərbaycan Silahlı Qüvvələrinin beynəlxalq humanitar hüquqa ciddi əməl etdiyini və mülki şəxsləri müdafiə etmək üçün legitim hərbi hədəflərə qarşı adekvat tədbirlər görmək hüququnu özündə saxladığını söyləyib. Daha sonra H.Hacıyev jurnalistlərin suallarını cavablandırıb.

# Prezidentin köməkçisi: "Beynəlxalq ictimaiyyəti Ermənistanın cinayət əməllərini kəskin şəkildə qınamağa çağırırıq"

Ermənistana qarşı siyasi-diplomatik təzyiqlərin olmaması və bu ölkənin əməllərinin qınanmaması onu yeni cinayətlər törətməyə sövq edir.

AZƏRTAC xəbər verir ki, bu fikri diplomatik korpusun nümayəndələrinin iştirakı ilə Gəncədə keçirilən brifinqdə Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Prezidentin köməkçisi deyib ki, diplomatların Gəncəyə səfərinin təşkilində məqsəd Ermənistanın Azərbaycan xalqına, Gəncə sakinlərinə qarşı törətdiyi hərbi cinayətlərlə yerində tanış olmaq, bu faktları əyani şəkildə görməkdir. Real faktlar odur ki, Ermənistan silahlı qüvvələri Ermənistan ərazisində olan hərbi hissələrdən və raket-artilleriya bazalarından Azərbaycanın şəhərlərinə hücumlar həyata keçirir.

Oktyabrın 4-dən Gəncəyə raket hücumları başlayıb, nəticədə mülki insanlar arasında yaralananlar və həyatını itirənlər var. Bir həftə əvvəl belə bir xəyanətkar hücum həyata keçirilmişdi, Gəncədə əhalinin sıx məskunlaşdığı ərazi "SCUD" tipli ballistik raketlə vurulmuşdu. Növbəti belə hücum bu gecə oldu. Mülki obyektlər və evlər dağılıb. Ən böyük faciə odur ki, mülki şəxslər ölüb, onların arasında uşaqlar da var. Bu ərazilərdə hər hansı bir hərbi baza yerləşmir. Ermənistan yalnız mülki şəxsləri hədəf alır. Beynəlxalq hüquqa əsasən, Ermənistanın bu əməlləri müharibə cinayətidir, mülki insanlara qarşı terrordur. Bu, 1992-ci ilin Xocalı faciəsindən sonra Ermənistanın Azərbaycana qarşı etnik təmizləmə və soyqırımının başqa məzmunda həyata keçirilməsidir. Beynəlxalq ictimaiyyəti bu əməlləri kəskin şəkildə qınamağa çağırırıq. Əgər cinayət varsa, cəza da olmalıdır. Bu, dövlətlərarası münasibətlərdə təmin olunmalıdır. Biz təəssüf hissi ilə qeyd edirik ki, bugünə qədər Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinə münasibətdə beynəlxalq hüququn aliliyi təmin olunmayıb.

# Elçin Əmirbəyov Hindistan ictimaiyyətini Ermənistan rəhbərliyinin Gəncəyə növbəti raket zərbələri barədə məlumatlandırıb

Azərbaycanın Birinci vitse-prezidentinin köməkçisi Elçin Əmirbəyov oktyabrın 17-də Hindistanın TV-9 telekanalının birbaşa efirində Hindistan ictimaiyyətini bu gecə Ermənistan ərazisindən Gəncəyə növbəti raket zərbələri endirmiş Ermənistan rəhbərliyinin növbəti müharibə cinayəti barədə məlumatlandırıb.



AZƏRTAC xəbər verir ki, E.Əmirbəyovun sözlərinə görə, "Elbrus" və "Toçka U" qanadlı raketlərindən istifadə edilməklə törədilmiş bu alçaq terror aktı nəticəsində Gəncənin 13 nəfər dinc sakini, o cümlədən 2 uşaq öldürülüb, 40-dan artıq adam yaralanıb. Yerevanda öz əməlləri ucbatından çıxılmaz vəziyyətdə qalan aciz cinayətkar rejim döyüş meydanında öz işğalçı silahlı qüvvələrinin tamamilə darmadağın olunmasının davam etməsi fonunda növbəti dəfə gecə vaxtı yuxuda olan dinc vətəndaşlara əl qaldırıb, özünün fərsiz hərbi avantürasının uğursuzluğunu günahsız mülki əhaliyə qorxaqcasına hücum yolu ilə kompensasiya etməyə çalışıb.

Birinci vitse-prezidentin köməkçisi vurğulayıb ki, döyüş əməliyyatları zonası hüdudlarından uzaqda yerləşən Gəncə və Azərbaycanın digər iri şəhəri Mingəçevir artıq dördüncü dəfədir ki, raket atəşinə məruz qalır. Bu, döyüş meydanında daha iri məğlubiyyətlərə uğrayacağını bilən Ermənistan rəhbərliyinin çarəsizliyinə və ümidsizliyinə sübutdur. Münaqişənin dinc yolla nizamlanmasını təkzib edən və humanitar atəşkəs haqqında Moskva razılaşmalarını kobud şəkildə pozan Ermənistan növbəti dəfə beynəlxalq birliyə meydan oxuyur. Ümidvarıq ki, beynəlxalq birlik və xüsusən ATƏT-in Minsk qrupunun həmsədrləri insanlıq əleyhinə cinayətlər olan bu raket zərbələrinə sərt reaksiya verəcəklər.

E.Əmirbəyov qeyd edib ki, Azərbaycan özünümüdafiə və öz əhalisinin təhlükəsizliyinin təmin edilməsi üçün qanuni hüququnu saxlayır və ağlını itirmiş düşmənin dərsini vermək, gələcəkdə bu cür qeyri-insani hərəkətlərin təkrarlanmaması üçün, o cümlədən düşmənin legitim hərbi hədəflərini, onların harada yerləşməsindən asılı olmayaraq neytrallaşdırmaq yolu ilə qarşısını almaq üçün bütün zəruri tədbirləri görür.

E.Əmirbəyov Hindistan auditoriyasını məlumatlandırıb ki, rəşadətli Azərbaycan Ordusunun davam edən zəfər yürüşü nəticəsində bu gün, 27 illik işğaldan sonra Füzuli şəhəri və Füzuli rayonunun yeddi kəndi azad edilib. Azərbaycanın ermənilər tərəfindən hərbi işğalına son qoyulacağı, Şuşada və Xankəndidə Azərbaycan bayrağının qaldırılacağı gün uzaqda deyil.

E.Əmirbəyov daha sonra deyib: "Bu müharibə cinayətinin nəticələrinə görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin, ilk növbədə, müharibə canisi olan baş nazir Paşinyanın üzərinə düşür, o, hökmən beynəlxalq tribunal qarşısında cavab verməli olacaq".

# *Əli ƏHMƏDOV:* "Gəncə qətliamının bütün məsuliyyəti Ermənistanın siyasi və hərbi rəhbərliyinin üzərinə düşür"

Azərbaycan Respublikası Baş Nazirinin müavini, YAP sədrinin müavini-icra katibi Əli Əhmədov özünün rəsmi "Facebook" səhifəsində ermənilərin Gəncə şəhərini xaincəsinə bombalaması, eləcə də Füzuli şəhərinin işğaldan azad edilməsi ilə bağlı fikirlərini paylaşıb.

Əli Əhmədov qeyd edib: "Bu gün Azərbaycan Respublikasının Prezidenti, Alı Baş Komandan İlham Əliyev Füzuli şəhərinin işğaldan azad edildiyini bəyan etdi. Ordumuzun yeni möhtəşəm qələbəsi Qarabağın azadlığını anbaan yaxınlaşdırır. Füzulinin azad edilməsi xalqımızın azadlıq mübarizəsində xüsusi əhəmiyyətə malikdir.

Füzulinin işğaldan azad olunmasını heç cür həzm edə bilməyən erməni faşistləri dinc əhaliyə qarşı yeni vəhşiliyə əl atdılar. Gəncəni yenidən raket atəşinə tutdular.

Gəncənin ikinci dəfə raket atəşinə tutulması erməni vəhşiliyinin növbəti iyrənc ifadəsidir. Hərb meydanında məğlub olan Ermənistan adətinə uyğun olaraq dinc əhalini, uşaq və qadınları hədəfə alır. Xocalıdakı vəhşəti törədənlərin övladlarından başqa bir şeyi gözləməyə dəyməz.

İllərlə hər cür şıltaqlıqlarına dözərək, bir sıra hallarda isə bu şıltaqlıqlara həvəsləndirərək indiki vəhşi xislətli Ermənistanı yaradanlar onun törətdiyi vəhşiliklərə görə məsuliyyət daşımalıdırlar. Lakin çox təəssüf ki, islah edilməsi mümkün olmayan barbar hərbi cinayətkarı yetişdirib bugünkü bəşəriyyətə ürcah edənlər nədənsə susurlar. Dinc əhalinin, uşaqların, qadınların, yaşlı insanların həlak olması da onların daş qəlbini riqqətə gətirmir. İki raket zərbəsi nəticəsində Gəncə şəhərində 20-dən çox günahsız insan, o cümlədən qadın və uşağın qətlə yetirilməsi, 80-ə yaxın insanın isə ağır xəsarət alması cəzasız qalmamalıdır və qalmayacaqdır. Gəncə qətliamının bütün məsuliyyəti Ermənistanın siyasi və hərbi rəhbərliyinin üzərinə düşür.

Ermənistan rəhbərliyi əmin olmalıdır ki, törətdiyi vəhşiliklər Azərbaycan xalqının mübarizə və qələbə əzmini sındıra bilməz. Qəhrəman Azərbaycan Ordusunun zəfər yürüşü davam edir və edəcək. Qarabağ Azərbaycandır!"

# Azərbaycanla bəzi ölkələr arasında hökumətlərarası komissiyaların həmsədrləri Ermənistanın ölkəmizə qarşı təxribatı barədə məlumatlandırılıb

Azərbaycan Respublikası Baş Nazirinin müavini, Azərbaycanla Rusiya, İran və Çin arasında hökumətlərarası komissiyaların Azərbaycan tərəfindən həmsədri Şahin Mustafayev komissiyaların qarşı tərəflərdən həmsədrlərinə məktublar ünvanlayıb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş Nazirin müavini məktublarda Ermənistanın Azərbaycana qarşı davam edən hərbi təxribatı barədə məlumat verib. Qeyd edib ki, sentyabrın 27-dən başlayaraq Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində xeyli sayda mülki şəxslər həlak olub və yaralanıb, yaşayış binaları, mülki və digər obyektlər dağıdılıb.

Azərbaycan Ordusunun təcavüzün qarşısını almaq, mülki əhalini qorumaq və Azərbaycanın ərazi bütövlüyünü bərpa etmək üçün əks-hücum tədbirləri görməyə məcbur qalması diqqətə çatdırılıb. Baş Nazirin müavini xüsusi olaraq vurğulayıb ki, əməliyyatlar Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri daxilində aparılır və Azərbaycan öz ərazilərində özünü müdafiə edir.

Baş Nazirin müavini Ermənistan silahlı qüvvələrinin gecə saatlarında Gəncə şəhərindəki yaşayış binalarına "SCUD" ballistik raketlərdən zərbələr endirərək xeyli sayda tələfat törətdiyini qeyd edərək, bunun hərbi cinayət olduğunu deyib. Nəhəng su anbarı və elektrik stansiyasının yerləşdiyi Mingəçevir şəhərinin də raket zərbələrinə məruz qalması vurğulanıb.

Adıçəkilən ölkələrin Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı növbəti hərbi təxribatını, dinc əhalimizə qarşı hərbi cinayətlərini və vəhşiliklərini pisləyəcəklərinə əminlik ifadə olunub.

# Azərbaycanın dövlət müstəqilliyi xalqımızın ən böyük sərvətidir

## Prezident İlham Əliyevin rəhbərliyi ilə dövlətçilik salnaməmizin ən şərəfli səhifəsi yazılır

Müstəqillik, öz taleyinə sahib olmaq, öz dövlətini yaratmaq və inkişaf etdirmək hər bir xalq üçün ən böyük nailiyyətdir. Tarixin müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərə baxmayaraq, heç bir qüvvə Azərbaycan xalqının müstəqillik, dövlətçilik arzularını söndürə bilməmiş, şərait, imkan yetişən kimi xalqımız müstəqillik ideallarını gerçəyə çevirmişdir. Azərbaycan xalqı xoşbəxtdir ki, bu gün öz müstəqil dövlətinə sahibdir və dövlət müstəqilliyimiz xalqımızın milli sərvətidir.



Tarixdə şəxsiyyətlərin rolu danılmazdır. Öz əməlləri ilə mənsub olduğu xalqın taleyini, tarixini dəyişdirmiş, milli kimliyini qürur və fəxarət mənbəyinə çevirmiş şəxsiyyətlər xalqının milli yaddaşında əbədiyaşarlıq hüququ qazanmışdır. Bu gün müstəqil kimliyi və öz dövləti ilə dünya səhnəsində yer alan xalqların taleyini də məhz belə tarixi şəxsiyyətlər müəyyənləşdirmişdir. Azərbaycan xalqı üçün belə möhtəşəm əməllərə imza atmış şəxsiyyət və böyük lider isə şübhəsiz ki, Ulu Öndər Heydər Əliyev olmuşdur. Təsadüfi deyil ki, bu gün Heydər Əliyevin adı müstəqil və suveren Azərbaycanın simvolu kimi səslənir. Çünki Heydər Əliyevin həyat amalı, zaman və məkan anlayışına sığmayan siyasi fəaliyyətinin əsas məqsədi azad və müstəqil Azərbaycan dövlətini qurmaq olmuş və o, müdrik siyasəti, dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində xalqımızın azadlıq və müstəqillik ideallarını gerçəkləşdirməyə nail olmuşdur.

### Azərbaycanın dövlət müstəqilliyinin əsaslarının yaradılması

Bütün şüurlu həyatını canından artıq sevdiyi xalqının xoşbəxt yaşamasına, Azərbaycanın müstəqilliyinin əbədiliyini təmin etməyə həsr etmiş Ümummilli Lider Heydər Əliyev daim xalqına arxalanaraq və zəngin dövlətçilik təcrübəsinə, yüksək idarəetmə bacarığına söykənərək çox qətiyyətli, müdrik qərarlar qəbul etmiş, Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirmiş, ölkəmizin və xalqımızın milli inkişafını təmin etmişdir. O, hələ Sovet İttifaqı dövründə Azərbaycana rəhbərlik etdiyi illərdə ölkəmizin müstəqilliyinin sütunlarını yaratmağa başlamış, bütün fəaliyyətini bu istiqamətə yönəltmiş, müasir Azərbaycanın bugünkü reallıqlarını və etibarlı əsaslarını qura bilmişdir.

1969-82-ci illərdə Ulu Öndərin respublikamızın sosial-iqtisadi, mədəni yüksəlişi üçün gördüyü işlər, milli ruhun və milli özünüdərkin inkişafı, xalqımızın tarixi yaddaşının özünə qaytarılması və milli şüurun oyanışı, azərbaycançılıq məfkurəsinin ideoloji sütuna çevrilməsi kimi fundamental məsələlərin çox dəqiqliklə və cəsarətlə həllini tapması, milli ziyalı təbəqəsinin formalaşdırılması istiqamətində atdığı addımlar Azərbaycanın gələcəkdə müstəqil xəttə malik, heç bir dövlətdən asılı olmayan respublika kimi mövcudluğuna zəmin hazırlayan düşünülmüş tədbirlər olmuşdur. Həyata keçirilən genişmiqyaslı proqramlar müasir iqtisadi potensialın formalaşdırılmasına, sosial-mədəni həyatın canlandırılmasına yönəldilərək gələcək müstəqilliyimizin təmin olunmasına əsas yaratmışdır. Bu dövrdə keçmiş ittifaq miqyasında tanınmış ali məktəblərə göndərilən azərbaycanlı gənclər sonradan müstəqillik illərində ölkəmizin yenidən qurulmasında fəal iştirak etmiş, həmçinin Ulu Öndərin şəxsi təşəbbüsü ilə respublikamızda formalaşdırılmış hərbi kadr potensialı müstəqil Azərbaycan Ordusunun yaranmasında da mühüm rol oynamışdır. Milli mədəniyyət, milli tarix, milli-mənəviyyat məsələlərində müstəqillik elementləri qabarıq şəkildə ortaya qoyulmuşdur.

1982-ci ilin dekabrında Siyasi Büronun üzvü seçilərək SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsinə təyin edilən Ulu Öndər Heydər Əliyev bu vəzifədə də daim xalqımızın mənafelərini qorumuş, Azərbaycana qarşı erməni millətçiliyinin və onların dəstəkçilərinin təxribatlarının qarşısını qətiyyətlə almışdır. Bu isə həm də o deməkdir ki, Heydər Əliyev harada çalışmasından asılı olmayaraq, həmişə xalqına, Vətəninə sədaqətlə xidmət etmiş, doğma Azərbaycanı ilə əlaqələrini kəsməmiş, respublikanın inkişafı üçün əlindən gələni əsirgəməmişdir.

### Müstəqillik uğrunda atılan növbəti addımlar

Ötən əsrin 80-ci illərinin sonlarında dünyada tamamilə fərqli bir mənzərə formalaşmışdı. Yeni geosiyasi düzənə transformasiya sürətlənmiş, yeni qlobal dəyərlər sistemi meydana çıxmağa başlamışdır. Bu proseslər fonunda keçmiş ittifaq daxilində də xalqların müstəqillik arzuları baş qaldırmışdır. Doğrudur, ittifaqın süquta uğraması və müstəqil dövlətlərin həyata vəsiqə qazanması heç də asan yolla başa gəlməmişdir. Azərbaycan xalqı üçün də öz müstəqil dövlətini qurmaq, azadlıq ideallarına qovuşmaq çox gərgin, faciəli hadisələrin nəticəsində mümkün olmuşdur. 1990-cı ilin 20 Yanvar hadisələrini proseslərin dönüm nöqtəsi hesab etmək olar. Həmin dövrdə də yenə məhz Ulu Öndər Heydər Əliyev xalqının yanında olmuş, 20 Yanvar faciəsinin ertəsi günü Kreml rejiminin təqiblərinə baxmayaraq, öz ailə üzvləri ilə birlikdə Azərbaycanın Moskvadakı nümayəndəliyinə gələrək bəyanat vermiş, Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb etmiş, daha sonra SSRİ rəhbərliyinin apardığı siyasət nəticəsində Dağlıq Qarabağda yaranan kəskin münaqişə vəziyyətinə etiraz əlaməti olaraq, Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etmişdir.

Ulu Öndər Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi fəaliyyəti də Azərbaycanın dövlət müstəqilliyinə doğru irəliləməsində bayraqdar rolu oynamışdır. Həmin dövrdə Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adı dəyişdirilərək, "Sovet Sosialist" sözləri oradan çıxarılmış, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Ümummilli Liderin təşəbbüsü ilə Naxçıvanın dövlət bayrağı kimi elan edilmişdir. Həmçinin Azərbaycan Ali Soveti qarşısında vəsatət qaldırılmışdır ki, Azərbaycanda da eyni qərar qəbul olunsun. Bundan başqa, 1991-ci ilin əvvəllərində Sovet İttifaqının saxlanılmasına dair Azərbaycanda referendum keçiriləndə muxtar respublikada məhz Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə referendum keçirilməmişdir.

Bunlar Azərbaycan xalqının lideri tərəfindən müstəqillik uğrunda atılan növbəti addımlar kimi qiymətləndirilir.

Çox təəssüf ki, müstəqilliyimizin ilk illərində Azərbaycanda mövcud olan hakimiyyət boşluğu, dövlət idarəçilik sükanını mənimsəyən və müəyyən dairələrin direktivləri ilə hərəkət edən qrupların, siyasi hakimiyyəti qeyri-qanuni, antidemokratik yolla ələ keçirən qüvvələrin yarıtmaz fəaliyyəti yenicə əldə olunmuş müstəqilliyi itirmək, Azərbaycan xalqının azadlıq ideallarından, müstəqillik kimi tarixi nailiyyətdən məhrum olmaq təhlükəsi yaratmışdı. 1991-ci ilin 18 oktyabr tarixində Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul olunsa da, bu müstəqilliyi qoruyub saxlamaq üçün dövlətçiliyin əsasları yaradılmamış, cəmiyyətdə milli həmrəylik, milli birlik təmin olunmamışdır. Azərbaycanda hökm sürən hərc-mərclik, cinayətkarlığın artması respublikamızın həyatının bütün sahələrinə böyük zərbələr vurmuş, ölkədə ictimai-siyasi vəziyyətin gərginləşməsinə gətirib çıxarmışdır. İqtisadiyyat tamamilə məhv edilmiş, ciddi maliyyə böhranı meydana çıxmış, xarici siyasət sahəsində qeyri-sağlam vəziyyət yaranmışdır. Buna paralel olaraq, Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti getdikcə genişlənmiş, 1993-cü ilin may-iyun aylarında ölkəmizdə siyasi böhran son həddə çatmış, vətəndaş müharibəsi təhlükəsi yaranmışdı.

### Azərbaycanın dövlət müstəqilliyinin möhkəmləndirilməsi, sabitliyin bərqərar olması

Belə bir şəraitdə Azərbaycan xalqının diqqəti yenidən xalqımızın böyük oğlu Heydər Əliyevə yönəlmişdir. Bu dəfə də xilaskarlıq missiyasını öz üzərinə götürən Ulu Öndər xalqın tələb və təkidlərinə cavab verərək ölkəmizdə növbəti dəfə hakimiyyətə gələrək, Azərbaycanın dövlətçiliyini, ölkəmizin müstəqilliyini xilas etmiş, yüksəliş, inkişaf və sabitlik erasının əsasını qoymuşdur. Bu isə Azərbaycanın müstəqillik tarixində yeni bir mərhələnin başlanğıcı demək idi.

1993-cü il iyun ayının 15-də Heydər Əliyevin Azərbaycan Ali Sovetinə Sədr seçilməsi parlamentarizm tariximizdə müstəsna əhəmiyyətə malikdir. Bu dövr Azərbaycan parlamentarizm tarixinin ən parlaq səhifələrini təşkil edir. Xalqımızın böyük oğlunun rəhbərliyi ilə parlament ali qanunverici orqan kimi ölkəmizin problemlərinin həlli ilə bağlı demokratik müzakirələrin keçirildiyi və siyasi mədəniyyətin hökm sürdüyü bir tribunaya çevrilmişdir. Parlamentin ictimai nüfuzu yüksəlmiş və effektiv qanunvericilik fəaliyyəti həyata keçirilmiş, mühüm qanunlar qəbul olunmuşdur. Bu qısa dövrdə ölkə həyatının ən müxtəlif sahələrini əhatə edən, iqtisadiyyatın yenidən dirçəldilməsi və vətəndaşların sosial mənafelərinin qorunmasına yönəlmiş, həmçinin beynəlxalq fəaliyyət sahəsində prioritetlərin əks olunduğu 120-dən artıq qanun və qərar qəbul olunmuşdur. Azərbaycan parlamentinə rəhbərlik etdiyi dövrdə Ulu Öndər ictimai sabitliyin bərpası, siyasi sistemin inkişafı, Azərbaycanın beynəlxalq təcridinin aradan qaldırılması istiqamətində yorulmadan fəaliyyət göstərmiş, mədəniyyətin, elmin, təhsilin inkişafına, gənc nəslin fəallığının artırılmasına böyük diqqət göstərmişdir. Beləliklə, çox qısa müddətdə Azərbaycan parlamenti Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə ölkənin taleyüklü məsələlərinin həllində vacib rola malik olmuş, ölkəmizin müstəqil inkişafına öz dəyərli töhfələrini vermişdir.

1993-cü il oktyabr ayının 3-də keçirilən seçkilərdə Azərbaycan Prezidenti seçilən Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizdə qısa müddətdə ictimai nizam-intizam, siyasi sabitlik təmin edilmiş, milli təhlükəsizliyin sarsılmaz əsasları yaradılmış, qanunsuz silahlı birləşmələr tərk-silah edilmiş, nizami, güclü ordu quruculuğuna başlanmışdır. Hüquqi dünyəvi dövlət quruculuğu prosesinə start verilmiş, müstəqil Azərbaycanın Konstitusiyası qəbul olunmuş, ölkəmizdə çox ciddi siyasi islahatlar aparılmağa başlanmışdır. Ulu Öndər Heydər Əliyev ölkəmizin müasir demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdışı və elmin, təhsilin, mədəniyyətin inkişafını təmin etmişdir. Yeni neft strategiyasının hazırlanması, bunun əsası olan "Əsrin müqaviləsi"nin imzalanması ilə Azərbaycanın qlobal enerji bazarında və beynəlxalq münasibətlərdə aktiv iştirakının təmin olunması, yeni və praqmatik xarici siyasət strategiyasının müəyyənləşdirilməsi və uğurla həyata keçirilməsi həmin dövrdə ölkəmizin qarşısında tamamilə yeni inkişaf paradiqmalarının meydana gəlməsini şərtləndirmişdir. Azərbaycan Ulu Öndər Heydər Əliyevin müstəsna liderlik qabiliyyəti və yüksək idarəetmə məharəti sayəsində 1993-2003-cü illərdə öz inkişaf və sabitlik dövrünü yaşamış, müstəqilliyini möhkəmləndirmişdir.

### Dövlət müstəqilliyinin əbədiliyinin, sarsılmazlığının, dönməzliyinin təmin olunması

Heydər Əliyev şəxsiyyətinin böyüklüyü həm də onunla əlaqədardır ki, onun ideyaları konkret zaman və məkan məhdudiyyəti tanımır. Ulu Öndərin müəllifi olduğu dövlətçilik konsepsiyası, dəqiqliklə işləyib hazırladığı strateji kurs sonrakı dövrdə də ölkəmizin müstəqilliyinin möhkəmlənməsinə, inkişafına xidmət etmiş, Azərbaycanın gələcəyinə işıq tutmuşdur. Yeni əsrin və yeni minilliyin başlanğıcında Heydər Əliyev siyasətini davam etdirmək gücündə və iqtidarında olan, başlanılan qlobal işləri, transmilli layihələri uğurla həyata keçirə biləcək, Azərbaycanı Ulu Öndərin görmək istədiyi zirvələrə qaldıracaq yeganə lider möhtərəm Prezident İlham Əliyev idi. Ümummilli Lider Heydər Əliyev də 2003-cü il oktyabrın 1-də Azərbaycan xalqına tarixi müraciətində tam haqlı olaraq, cənab İlham Əliyevə böyük etimadını ifadə etmiş və bəyan etmişdir ki, *"İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək"*.

Təbii ki, Azərbaycan xalqı heç bir tərəddüd etmədən və əminliklə Ümummilli Liderin bu müraciətinə dəstək verərək prezident seçkilərində cənab İlham Əliyevə yüksək etimad göstərmişdir. Beləliklə, xalqımız növbəti dəfə müdriklik göstərərək öz qərarını vermiş, Heydər Əliyev siyasətinin ardıcıllığının təmin olunmasını dəstəkləmişdir. Ali kürsüdə fəaliyyətə başlayan ilk gündən cənab Prezident İlham Əliyev bəyan etmişdir ki, Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıca şərt ölkədə Heydər Əliyevin siyasətinin davam etdirilməsidir. Çünki təcrübəli siyasətçi, geniş dünyagörüşünə malik müasir lider və böyük strateq kimi cənab Prezident İlham Əliyev çox dəqiq müəyyən etmişdir ki, yalnız Heydər Əliyev strategiyasını həyata keçirməklə, onun qoyduğu siyasi yolu davam etdirməklə Azərbaycanı güclü dövlətə çevirmək mümkündür. Ona görə də dövlət başçısı xalqa müraciətində demişdir ki, *"Bu gün yüksək kürsüdən çıxış edərkən mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyevin siyasətini davam etdirəcəyəm"*.

Cənab Prezident İlham Əliyevin dövlət başçısı kimi nümayiş etdirdiyi yüksək idarəçilik məharəti, qətiyyətli və milli maraqlara söykənən daxili və xarici siyasəti ilk gündən ona böyük ictimai dəstək, xalqın sonsuz inam və etibarını qazandırmışdır. Prezident İlham Əliyev isə bu gücə söykənərək, xalqın inam və etimadını istinad nöqtəsi olaraq dəyərləndirmiş, qəbul etdiyi bütün taleyüklü qərarlarda yalnız xalqımızın mənafeyini rəhbər tutmuşdur. Dövlət başçısı xalqa müraciətlərinin birində müstəqil siyasət həyata keçirməyin əhəmiyyətini bu fikirlərlə çox aydın ifadə etmişdir: *"Heç bir kənar qüvvə bizi bu yoldan döndərə bilməz. Bu yol Azərbaycan xalqının şüurlu seçimidir. Biz müstəqil ölkəyik. Biz böyük xalqıq. Ancaq böyük xalq bu qədər nəticələr əldə edə bilər. Ancaq müstəqillik şəraitində Azərbaycan bu qədər uğurlar əldə edə bilər. Bizim taleyimiz öz əlimizdədir"*.

Bəli, Ulu Öndərin şah əsəri olan müstəqil Azərbaycan artıq 17 ildir ki, etibarlı əllərdədir, davamlı və dinamik inkişaf tempinə malikdir. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə özünün dövlət quruculuğu və idarəçiliyinin növbəti şərəfli mərhələsini yaşayır. Bu illər ərzində ölkəmizdə ictimai-siyasi sabitlik, vətəndaş həmrəyliyi daha da möhkəmlənmişdir. Prezident İlham Əliyevin liderliyi ilə Azərbaycan yeni əsrin əvvəllərində keçid iqtisadiyyatı ilə vidalaşaraq yeni tərəqqi və milli inkişaf arxitekturası üzərində möhkəmlənən iqtisadi modelin tətbiqinə başlamış, postsovet ölkəsi fazasından çıxaraq yüksək inkişaf proqnozları ilə irəliləyən innovativ və modern iqtisadiyyata malik ölkə kimi inamla inkişaf etmişdir. Bu zaman keçidində iqtisadiyyatın dinamik inkişafı, uzunömürlü tərəqqi, dayanıqlı makroiqtisadi sabitlik təmin edilmiş, iqtisadiyyatın şaxələndirilməsinə nail olunmuş, həyata keçirilən dövlət proqramları bütün bölgələrin hərtərəfli və tarazlı sosial-iqtisadi tərəqqisinə və qeyri-neft sektorunun inkişafına yol açmışdır. Prezident İlham Əliyevin milli inkişaf doktrinasının başlıca hədəflərini təşkil edən modern və innovativ iqtisadiyyatın idarə olunması şəffaflığa və açıq cəmiyyətin təmin edilməsinə əsaslanmışdır. İqtisadiyyatın aqrar sektorunda islahatlar, kənd təsərrüfatı məhsulları istehsalçıları üçün güzəştlər və dövlət yardımı iqtisadiyyatın bu sahəsinin inkişafına güclü təkan vermişdir.

Məqsədyönlü sosial tədbirlər nəticəsində əhalinin sosial müdafiəsinin gücləndirilməsinə, rifah halının yüksəlməsinə xidmət edən uğurlu sosial dövlət modeli formalaşdırılmış, işsizliyin və yoxsulluğun səviyyəsinin aşağı salınmasına nail olunmuş, əmək haqları, pensiya və təqaüdlər əsaslı şəkildə artırılmışdır. Son 17 ildə qaçqınların və məcburi köçkünlərin problemlərinin həlli üzrə böyük iş həcmi yerinə yetirilmiş, ölkədə bütün çadır düşərgələri ləğv edilmiş, yüzdən çox yeni qəsəbə və şəhərcikdə 300 mindən çox insan yerləşdirilmişdir. Ölkənin infrastruktur sistemi tamamilə yenilənmiş, müasir əsaslarda yenidən qurulmuşdur.

Azərbaycanda Prezident İlham Əliyevin müəllifliyi ilə nəhəng transmilli energetika layihələri həyata keçirilmiş, Bakı-Tbilisi-Ceyhan əsas neft ixrac boru kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, "Cənub qaz dəhlizi" kimi enerji təhlükəsizliyində mühüm rol oynayan nəhəng layihələr Avropanın enerji xəritəsini dəyişdirmişdir. Həmçinin Azərbaycanın təşəbbüsü ilə qlobal əhəmiyyət daşıyan transnəqliyyat, kommunikasiya layihələri reallaşdırılmış, Avropanı Asiya ilə birləşdirən "Şərq-Qərb" və "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması təmin edilmiş, Azərbaycan dünyada sayı məhdud olan kosmik ölkələr sırasına qoşulmuşdur.

Siyasi sistemin təkmilləşdirilməsi, demokratik təsisatların möhkəmləndirilməsi, plüralizmin, insan hüquq və azadlıqlarının təmin edilməsi, vətəndaş cəmiyyəti institutlarının gücləndirilməsi, söz və məlumat azadlığının təmin olunması istiqamətində ardıcıl siyasət həyata keçirilmişdir.

Azərbaycanın hərtərəfli inkişafını xarakterizə edən mühüm məsələlərdən biri də bütün sahələri əhatə edən geniş və innovativ proqramların icrası, konseptual yanaşmanın tətbiqidir. Möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən yeni nəsil və modern islahatlar strategiyası Azərbaycanın dinamik inkişafını təmin edən mühüm şərtlərdən biridir. Qabaqcıl institusional islahatlar sırasında isə Birinci vitse-prezidentlik institutunun yaradılması müstəsna əhəmiyyətə malikdir. Ötən dövr göstərdi ki, ölkədə vitse-prezidentlik təsisatının yaradılması və hörmətli Mehriban xanım Əliyevanın Birinci vitse-prezident təyin edilməsi sonrakı mərhələdə vətəndaşlara dövlət diqqəti və qayğısının gücləndirilməsində, cəmiyyətin bütün təbəqələrini əhatə edən uğurlu sosial siyasətin davam etdirilməsində mühüm amil olmuşdur. Mehriban xanım Əliyeva uğurlu və çoxşaxəli fəaliyyəti ilə Azərbaycanın inkişafına müstəsna töhfələr verir. Başqa sözlə, bu gün Birinci vitse-prezident Mehriban xanım Əliyevanın fəaliyyəti ölkəmizin tərəqqisi, ayrı-ayrı sahələrdə mühüm inkişaf göstəricilərinin əldə olunması baxımından böyük önəmə malikdir. Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti Azərbaycanın inkişafına, dünyada təbliğinə sanballı töhfələr verir. Ümummilli Liderin qurub-yaratdığı müstəqil Azərbaycanın daha da çiçəklənməsində yaxından iştirak etmək, insanlara daim kömək əli uzatmaq, xeyirxah işlər görmək Mehriban xanım Əliyevanın fəaliyyətinin əsas qayəsini təşkil edir. Onun sosial və humanitar sahələrdə təşəbbüsləri, gördüyü mühüm işlər ölkəmizdə həyata keçirilən sosial müdafiə tədbirlərinin miqyasının genişlənməsində əhəmiyyətli rol oynayır. Mehriban xanım Əliyevanın istər pandemiya ilə mübarizə, istərsə də ordumuza dəstək, Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində həyata keçirdiyi tədbirlər, çağırışlar və bəyanatlar milli həmrəyliyimizin daha da möhkəmlənməsi üçün əvəzsiz töhfədir.

### Azərbaycanın ərazi bütövlüyü, suverenliyi bərpa olunur!

Ötən 17 ildə bütün digər istiqamətlərdə olduğu kimi, xarici siyasət sahəsində də Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu prinsiplər uğurla tətbiq olunmuş, milli maraqlara söykənən müstəqil xarici siyasət həyata keçirilmişdir. Dövlət başçısının qətiyyəti, yüksək diplomatik səriştəsi, həmçinin bütün məsələlərdə beynəlxalq hüquqa və ədalətə istinad edən prinsipial mövqeyi sayəsində Azərbaycanın beynəlxalq nüfuzu yüksəlmiş, 2011-ci ildə 155 dövlətin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilmiş, 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına üzv qəbul edilmişdir və hazırda təşkilata uğurla sədrlik etməkdədir. Digər nüfuzlu beynəlxalq təşkilatlarla əməkdaşlıq Azərbaycana inteqrasiyanın dərinləşməsinə, ölkə reallıqlarını dünya ictimaiyyətinə obyektiv və dolğun çatdırmağa imkan vermişdir. Azərbaycan Prezidentinin sülh və humanizm, birgə geniş əməkdaşlığı təmin edən xeyirxah missiyası qlobal məkanda birliyin, tolerantlığın, sivilizasiyalararası dialoqun, multikulturalizmin dərinləşməsinə töhfə verir, dövlətlərarası səmimi münasibətlərin təmas nöqtələrinin trayektoriyasını müəyyən edir.

Təbiidir ki, Azərbaycanın xarici siyasət institutunun qarşısında duran bir nömrəli məsələ Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllidir. Prezident İlham Əliyev bu istiqamətdə də vəzifəni konkret müəyyənləşdirmişdir: *"Azərbaycan heç vaxt öz ərazi bütövlüyünün pozulması ilə barışmayacaq, torpaqlarında ikinci erməni dövlətinin yaranmasına yol verməyəcəkdir. Ölkəmizin ərazi bütövlüyü tam bərpa edilməli, azərbaycanlılar əzəli yurdlarına qayıtmalıdırlar"*. Ona görə də ötən dövrdə xarici siyasətin bütün arsenalı əsas etibarilə bu münaqişənin həllinə yönəldilmiş, Azərbaycanın cəhdləri problemin sülh yolu və danışıqlar vasitəsilə aradan qaldırılmasına xidmət etmişdir. ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlarla yanaşı, nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən Dağlıq Qarabağ münaqişəsinə dair mühüm qərarların qəbul edilməsinə nail olunmuş, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına hörmət ifadə edilmiş, münaqişənin məhz bu prinsiplər əsasında həllinin vacibliyi qeyd olunmuşdur. Azərbaycan bütün dövrlərdə konstruktiv mövqe göstərmiş, münaqişənin ədalətli həlli prosesinə sadiq qalmışdır.

Lakin Ermənistan rəhbərliyinin danışıqları pozmaq, sülh prosesindən imtina etmək, status-kvonu möhkəmləndirmək istiqamətində təxribatları, eyni zamanda beynəlxalq ictimaiyyətin Yerevanın siyasi rəhbərliyinin bu riyakar davranışlarına adekvat münasibət bildirməməsi 30 ilə yaxındır davam edən sülh danışıqlarının nəticəsiz qalmasına gətirib çıxarmışdır. Bununla yanaşı, işğalçı ölkənin son dövrlər hərbi təxribatlarının artması, Azərbaycana qarşı yeni işğalçılıq iddialarının ortaya atılması ölkəmizi alternativ tədbirlər görməyə, tarixi ədaləti öz gücü hesabına bərpa etməyə vadar etmişdir.

Beləliklə, öz müstəqilliyinin 29-cu ildönümünü qeyd edən Azərbaycan dövləti Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni tarixini yazır. Əlbəttə, Azərbaycan tarixində bir çox şərəfli anlar olmuş, xalqımızın qürur mənbəyinə çevrilmiş hadisələr yaşanmışdır. Amma bu gün Ali Baş Komandanın başçılığı ilə Azərbaycan Ordusunun zəfər yürüşü, torpaqlarımızın işğaldan azad edilməsi dövlətçilik tariximizdə xüsusi əhəmiyyətə malikdir. Qurtuluş savaşı aparan Şanlı Ordumuz 30 ilə yaxındır işğal altında olan torpaqlarımızı - Füzuli, Xocavənd, Cəbrayıl, Tərtər rayonlarının bir sıra kəndlərini, Suqovuşan kəndini, Hadrut qəsəbəsini, Cəbrayıl və Füzuli şəhərlərini düşməndən təmizləyərək zəfər yürüşünü, xilaskarlıq missiyasını davam etdirir. Müzəffər Azərbaycan Ordusu hər gün yeni strateji məntəqələri, yeni yüksəklikləri, yeni yaşayış məntəqələrini işğalçılardan azad edir. Torpaqlarımızın azad edilməsi həm də Azərbaycan xalqının özünə inamını qaytarır, xalqın öz liderinə, onun gücünə etibarını daha da möhkəmləndirir. Bu gün Azərbaycan xalqı, hər bir vətəndaşımız Ali Baş Komandanın və şanlı ordumuzun ətrafında yumruq kimi sıx birləşərək işğal altında olan bütün torpaqlarımızın azad ediləcəyi günü səbirsizliklə gözləyirlər. Və şübhə yoxdur ki, Ali Baş Komandan və onun rəhbərliyi ilə Azərbaycan Ordusu Azərbaycan xalqının ümidlərini yenə də doğruldacaq və Azərbaycan haqq işində zəfər çalacaqdır! Bu gün işğaldan azad olunmuş tarixi ərazilərimizdə üçrəngli Azərbaycan bayrağının qürurla dalğalanması isə müstəqillik günümüzə ən böyük hədiyyədir!

Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

**Sahibə QAFAROVA,**
***Milli Məclisin Sədri***

# İLHAM ƏLİYEV: "Füzuli bizimdir!"









Ulu Öndər Heydər Əliyev və Prezident İlham Əliyev Füzuli rayon ərazisində yerləşən hərbi hissələrdə

## Baş Sərkərdədən Müstəqillik Gününə ən dəyərli töhfə

### Ali Baş Komandan İlham Əliyevin müzəffər ordusu Füzuli şəhərini işğaldan azad edərək 27 illik həsrətə son qoydu

Müzəffər Azərbaycan Ordusunun Qarabağda zəfər yüşüşü davam edir. Əsgərlərimiz İlham Əliyevin Ali Baş Komandanlığı ilə şanlı tarix yazırlar. Hər gün savaş meydanından xoş xəbərlər gəlir.







Dünən İlham Əliyevin xalqa verdiyi növbəti müjdə hər kəsi sevinc gözyaşlarına boğdu. 1993-cü il avqustun 23-də işğal edilən Füzuli şəhəri və rayonun Qoçəhmədli, Çimən, Cuvarlı, Pirəhmədli, Musabəyli, İşıqlı, Dədəli kəndləri illər sonra düşmən tapdağından azad edildi. Bununla da 27 illik həsrətə son qoyuldu, xalqın qəblindəki ümid çıraqları yenidən alovlandı. Arzularımız, diləklərimiz çin oldu.

Bu müjdə dünya azərbaycanlılarında fəxarət hissi yaşatmaqla, qürurlandırmaqla yanaşı, xalqımızın tarixində ən şərəfli səhifələrdən olan 18 Oktyabr - Azərbaycanın Dövlət Müstəqilliyi Gününə ən böyük, ən layiqli töhfədir. Məhz bu tarixdə bu müjdədən gözəl nə ola bilər ki...

Prezidentin xalqa müraciəti zamanı söylədiyi hər bir söz, hər bir cümlə insanlarımızın qəlbini riqqətə gətirdi və qələbəyə olan inamı daha da artırdı. Elə, bu inamdır Azərbaycan igidlərini düşmən qarşısında sarsılmaz edən, Aprel, Günnüt zəfərlərindən başlanan qəhrəmanlıq salnaməsini yenidən yazdıran. Bu inamla qüdrətli Ordumuz şərəfli missiyanın öhdəsindən layiqincə gəlir. 21 gündür davam edən haqq savaşımız Azərbaycan Ordusunun qüdrətini nümayiş etdirir. Nəinki erməni əsgəri, hətta xarici ölkələrdən gətirdikləri muzdlu terrorçular da yüksək döyüş ruhlu Azərbaycan əsgərinin qarşısında duruş gətirə bilmir.

Çirkin, məkrli və qorxaq xislətinə uyğun olaraq döyüş meydanında acizliyini başa düşəndə dinc əhalini atəşə tutan Ermənistan silahlı qüvvələri Azərbaycan Ordusundan hər gün sarsıdıcı zərbələr alır. Qəhrəman Ordumuz düşmənin xaincəsinə yaşayış məntəqələrimizi atəşə tutması nəticəsində həlak olan mülki vətəndaşlarımızın qisasını döyüş meydanında alır.

Bəllidir ki, müharibədə hücüm edən tərəf daha çox itki verir, amma bizdə əksinədir. Düşmən tərəfi bizdən qat-qat daha çox itki verib. Bu, Azərbaycan Ordusunun uğurlu hərbi əməliyyatlarının nəticəsidir. Ordumuz sözdə yox, əməldə də regionda ən güclü olduğunu göstərir.

Bugünədək Azərbaycan Ordusunun uğurlu əməliyyatları ilə Cəbrayıl, Füzuli şəhərləri, Xocavənd rayonunun Hadrut qəsəbəsi, Tərtər, Xocavənd, Cəbrayıl və Füzuli rayonlarının ümumilikdə 58 kəndi düşmən tapdağından azad edilib.

Ali Baş Komandan İlham Əliyevin söylədiyi kimi, bu qələbələrlə Azərbaycan xalqının ləyaqəti bərpa olunur. Böyük qələbəyə çox az qalır. 30 ilə yaxındır gözlədiyimiz o möhtəşəm tarix yetişib artıq. Elə bir tarix ki, uğrunda fəda olan müqəddəs şəhid ruhlarının nigarançılığına son qoyacaq və tezliklə zəfər bayrağımız Şuşada dalğalanacaq. Hər kəs səbirsizliklə o tarixi gününü gözləyir. Qüdrətli Ordumuz hər keçən gün bizləri bu müqəddəs günə daha da yaxınlaşdırır.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

## Zəfərin növbəti ünvanı Füzulidir







Oktyabrın 17-də İlham Əliyev xalqımıza növbəti xoş müjdəni çatdırdı: Füzuli rayonunun Qoçəhmədli, Çimən, Cuvarlı, Pirəhmədli, Musabəyli, İşıqlı, Dədəli kəndləri və Füzuli şəhəri işğaldan azad edildi.

Füzuli rayonu Qarabağ dağ silsiləsinin cənub-şərq ətəklərindən Araz çayına qədər mailli düzənlik sahələri əhatə edir. Cəbrayıl, Xocavənd, Ağcabədi, Beyləqan rayonları və İranla həmsərhəddir. Rayonun ərazisi 1386 kvadratkilometrdir.

Bölgə inzibati ərazi vahidi kimi 1827-ci ildə yaradılıb və ilkin adı Qarabulaq olub. Rayon kimi isə sovet hakimiyyəti dövründə 1930-cu ilin avqust ayında təşkil olunub və Qaryagin adlandırılıb. 1959-cu ilin aprelində böyük Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 400 illiyi şərəfinə Qaryagin rayonunun adı dəyişərək Füzuli rayonu adlandırılıb.

Rayon ərazisində müxtəlif dövrlərdə Günəştəpədə, Qaraköpəktəpədə, Qarabulaq kurqanlarında, Quruçay sahillərində və digər yerlərdə aparılan tədqiqatlar nəticəsində Azərbaycan xalqının qədim kökə sahib olduğu sübut edilib. 1968-ci ildə arxeoloq-alim Məmmədəli Hüseynov tərəfindən aşkar olunmuş preneandertal - Azıxantrop adamının alt çənəsinin sümükləri rayon mərkəzindən 15 km. aralı məsafədə yerləşən Azıx mağarasında tapılıb. Azərbaycan arxeologiya elminin böyük nailiyyətləri olan bu abidə Qarabağın Füzuli ərazisində vaxtilə qədim paleolit dövrünün mövcudluğunu aşkarlayıb.

Füzuli rayonunda Əcəmi memarlıq məktəbinin təsiri ilə inşa olunan bir sıra memarlıq abidələri var. Əhmədalılar və ya Arğalı türbəsi (XIII əsrin sonu), Babı türbəsi (1273-cü il) belə abidələrdəndir. Aşağı Veysəlli kəndində hamar daşdan tikilən qülləvari Mirəli türbəsi (XV əsr), Qarğabazar kəndində Hacıqiyasəddin məscidi (1682-ci il), Karvansara (1684-cü il), Qoçəhmədli kəndində məscid (XVIII əsr), Füzuli şəhərində Hacı Ələkbər məscidi (XIX əsr), "Məşədi Həbib" hamamı (XIX əsr), Merdinli kəndi yaxınlığında daşdan yonulan at, qoç fiquru (XVIII-XIX əsrlər) və s. bu kimi tarixi əhəmiyyət daşıyan qədim abidələr xalqımızın milli kimliyini göstərən, bu ərazilərin Azərbaycan torpaqları olduğunu təsdiqləyən maddi və mənəvi dəyərlərdir.

Vaxtilə rayonda onlarla insana Sosialist Əməyi Qəhrəmanı adı verilib. 7 çağırış SSRİ Ali Sovetinin, 9 çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmiş Şamama Həsənova 2 dəfə Sosialist Əməyi Qəhrəmanı olub. Füzulidən 300-dən artıq elmlər namizədi və elmlər doktoru yetişib.

Füzuli Ermənistanın hərbi təcavüzü nəticəsində işğal olunmuş rayonlardan biri idi. İşğaldan əvvəl rayonda 1 şəhər, 1 qəsəbə, 78 kənd vardı. Ən iri yaşayış məntəqələri Füzuli şəhəri, şəhər tipli Horadiz qəsəbəsi, Böyük Bəhmənli, Horadiz və Qacar kəndləri idi.

1993-cü ilin avqustunda Ermənistan silahlı qüvvələrinin rayon ərazisinə hücumu nəticəsində Füzuli şəhəri, Horadiz qəsəbəsi və rayonun kəndləri işğal olundu. Həmin ilin dekabrında Azərbaycan Ordusunun başlatdığı əməliyyat nəticəsində 1994-cü ilin yanvar ayında 21 kənd və strateji cəhətdən əhəmiyyətli Horadiz qəsəbəsi işğaldan azad edildi. Hazırda rayonun 140 min nəfərdən artıq əhalisinin 50 faizə qədəri rayon ərazisindəki Horadiz şəhərində, 21 kənddə və 17 qəsəbədə yaşayır. Ölkə başçısı İlham Əliyevin sərəncamları ilə Füzuli rayonu ərazisində məcburi köçkünlər üçün 11 Qayıdış, 5 Zobucuq, 1 Fin qəsəbələri salınıb. Əhalinin digər qismi Bakı, Sumqayıt, Gəncə, Beyləqan, İmişli, Saatlı, Sabirabad və digər şəhər və rayonlarda məcburi köçkün kimi müvəqqəti məskunlaşıb.

Ermənistanın təcavüzünə qarşı döyüşən Füzuli sakinlərindən 663 nəfər şəhidlik zirvəsinə yükslib. 181 nəfər itkin və girov düşmüş sayılır. Rayonun 1240 nəfər müxtəlif dərəcəli əlili var. Əslən Füzuli rayonundan olan 6 nəfər Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülüb. Ermənistanın təcavüzü nəticəsində rayonda 36 min 361 nəfər uşaq zərər çəkib, onlardan 155 nəfəri yetim qalıb.

Füzuli rayonunun kəndlərinin bir qismi 1994-cü ildə azad olunanda Ulu Öndər Heydər Əliyev deyib: *"Füzuli rayonunda torpaqlarımızın bir qismi geri alınıbdır, erməni işğalçıları ordan qovulubdur. Lakin bu, işin yalnız başlanğıcıdır. Qarşıda Füzuli rayonunun digər hissələri var, Cəbrayıl var, Zəngilan var, Qubadlı var, o yandan Ağdam, digər rayonlar var. Bunların hamısını biz azad etməliyik".*

Bu gün İlham Əliyevin Ali Baş Komandanlığı ilə rəşadətli Azərbaycan Ordusu öz tarixi missiyasını şərəflə yerinə yetirir. Sentyabrın 27-dən başlayaraq şanlı Azərbaycan Ordusu tərəfindən keçirilmiş əks-hücum əməliyyatları da Füzulidən başladı. Sentyabrın 27-də Azərbaycan Ordusu tərəfindən keçirilmiş əks-hücum əməliyyatı nəticəsində rayonun kəndlərindən Qaraxanbəyli, Qərvənd, kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı, Aşağı Əbdürrəhmanlı, oktyabrın 9-da Yuxarı Güzlək, Gorazıllı, oktyabrın 14-də Qaradağlı, Xatunbulaq, Qarakollu, oktyabrın 15-də Arış kəndi işğaldan azad edilib. Oktyabrın 17-də isə Qoçəhmədli, Çimən, Musabəyli, Pirəhmədli, Dədəli, İşıqlı, Cuvarlı kəndləri və Füzuli şəhəri işğaldan tam azad olundu.

Bundan sonra xalqımız şərəflə Füzulinin Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilməsi tarixini qeyd edəcək. Bir vaxtlar böyük uğurları ilə tanınan rayon əvvəlki şöhrətini geri qaytaracaq.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

## Gözün aydın, Vətən!

### Füzuli də azad edildi



Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev oktyabrın 17-də səhər saatlarında xalqa müraciətində Füzuli şəhərinin işğaldan azad edildiyini böyük qürur hissi ilə bəyan etdi. Çoxdan arzusunda olduğumuz bu şad xəbər müzəffər ordumuzun qələbələrlə müşayiət edilən zəfər yürüşünün yeni və parlaq səhifəsi kimi bütün ölkəmizdə böyük əks-səda doğurdu. Ürəklərə sonsuz sevinc, fərəh bəxş etdi.





Gecə saat 1 radələrində düşmənin Gəncədə törətdiyi hərbi cinayət nəticəsində həlak olan, yaralanan soydaşlarımızın ağrı-acılarına üzüldüyümüz bir məqamda Ali Baş Komandanın Füzuli şəhərinin və bir neçə kəndin işğaldan azad edildiyi barədə açıqlaması xalqa ən böyük təsəlli oldu.

Sevinc dolu bu xəbər ildırım sürətiylə hər tərəfə yayıldı. Telefon zəngləri ara vermədi. Dost-tanış bir-birini təbrik edir, gözaydınlığı verirdi: Gözün aydın Vətən, qeyrətli oğulların - qəhrəman Azərbaycan əsgərləri 30 ildən bəri qaysaq bağlamayan yaralarına döyüş meydanında çaldığı zəfərlərlə məlhəm oldu. Gözün aydın, Vətən! Xoş gördük, QARABAĞ! Düşmənlərini məhv edib, həsrətin sinəsinə dağ çəkib, nisgilə son qoyub səcdənə gəlirik, aranım, dağım, doğma Qarabağım!

Gözlərdən sevinc yağdığı, ürəklərin fərəhlə döyündüyü bu xoş məqamda heç şübhəsiz Füzulidə doğulub, 30 ildən bəri doğma yurduna həsrət qalan soydaşlarımız daha fərqli hisslər keçirir. Təbbi olaraq özlərini dünyanın xöşbəxti sayırlar. Müdriklər deyir ki, sevinci böləndə, paylaşanda daha da artır. Füzulidən olan soydaşlarımız da sevinclərini xalqımızla bölüşürlər.

Aynurə Abdullayeva, Cabbar Abdullayev adına Fizika, riyaziyyat və informatika elmləri mərkəzinin direktoru, Dünya Azərbaycanlıları Konqresi sədrinin birinci müavini: "Füzuli şəhərini tərk edəndə 5-ci sinifdə oxuyurdum. 11 yaşım var idi. Evimiz Qaqarin küçəsində - kəhrizin yanında idi. Qayğısız uşaqlıq illərini yaşadığım doğma şəhərimlə bağlı kövrək xatirələr həmişə mənimlə olub. Bu xatirələrimlə xəlvətə çəkilib için-için ağlamışam. Amma ürəyimdə həmişə inam olub. İnanmışam ki, xatirələrimin çilik-çilik olub səpildiyi doğma küçəmizə, əziz şəhərimizə yenidən qayıdacağam. Ali Baş Komandanımız İlham Əliyevin dilindən Füzulinin düşmən işğalından azad edildiyi xəbərini eşidəndə bir anlıq çılğına döndüm, uşaq kimi qışqırıb sevincimi paylaşdım. Bu anı, bu qələbə sorağını uzun illər boyu gözləmişik. Çox zaman üzümüz gülsə də, göz yaşlarımız ürəyimizə axıb. Bu sevinci bizlərə yaşadan, bu xoşbəxtliyi bizlərə bəxş edən qəhrəman Azərbaycan əsgərinə eşq olsun! Müdrik Prezidentimiz, cəsarətli sərkərdəmiz Ali Baş Komandan İlham Əliyev uğurla reallaşdırdığı xilaskarlıq missiyası ilə adını Azərbaycan dövlətçiliyinin tarixinə qızıl hərflərlə yazmağı bacardı! Hələ döyüş bitməyib. Qarşıda yeni zəfərlər bizi gözləyir. Üçrəngli müqqədəs bayrağımızın tezliklə işğaldan azad ediləcək bütün ərazilərimizdə dalğalanacağına çox qalmayıb".

Akif Musayev, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, iqtisad elmləri doktoru, professor: "Qüdrətli ordumuzun, Ali Baş Komandanımız İlham Əliyevin iradəsi ilə 30 ildən bəri mənfur erməni faşistlərinin işğalı altında qalan Qarabağımızın yaşayış məntəqələri bir-birinin ardınca azad edilir. Elimizi, obamızı sevincə qərq edən növbəti şad xəbər Füzulidən gəldi. Doğulub boyabaşa çatdığım, əcdadlarımın uyuduğu müqqədəs torpaqlarımız düşməndən təmizlənmişdir. Çoxdan gözlədiyimiz bu şad xəbər bizə yaşamaq həvəsi verir, bizi xalqımız, dövlətimiz naminə yeni mülkiyyətlər qazanmağa ruhlandırır. Füzuli böyük iqtisadi potensiala malik bir bölgədir. Bizim Qorqan kəndinin torpaqları münbit, əhalisi qoçaq və zəhmətkeşdir. Kəndimiz 122 evdən ibarət idi. Əhalinin sayı isə 800 nəfərə çatırdı. Adamlar əkinçilik və heyvandarlıqla məşğul olurdu.

İndi Füzuli camaatı toy-bayram ovqatı yaşayır. Qələbənin dadı həqiqətən çox şirin olur. İstər-istəməz geriyə boylanır, keçilmiş yola nəzər salırsan. İndi malik olduğumuz Azərbaycan dövlətini, Qafqazda ən güclü modern ordunu və ictimai-siyasi fəallığı yetərincə yüksək olan xalqımızı 30 il əvvəlki illə müqayisə etmək olmaz. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin siyasi kursunu layiqincə yerinə yetirən Prezident İlham Əliyev bu gün öz qətiyyəti ilə şərəfli tarix yazır. Ordumuzun başladığı zəfər yürüşü uğurla davam edir. Cəbrayıl, Hadrut, Füzuli və çox sayda kəndlər artıq işğaldan azad edilib. Sırada Şuşa, Laçın, Kəlbəcər, Xankəndi, Ağdam, Qubadlı və digər yaşayış məntəqələrimiz var. Prezidentimizin bəyan etdiyi kimi, işğal altındakı ərazilərimizi tamamilə azad etməyincə, bizi kimsə durdura bilməz. Xalqımızı təbrik edir, soydaşlarımıza gözaydınlığı verirəm. Qələbə xəbərinin davamı gəlsin".

***Lazım QULİYEV, "Azərbaycan"***

# Erməni faşistlərinin qurbanları mülki şəxslər və obyektlərdir

## Azərbaycanda fəaliyyət göstərən 50 siyasi partiya beynəlxalq və regional təşkilatlara müraciət ünvanlayıb

Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar Birləşmiş Millətlər Təşkilatına, Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının daimi üzvlərinə, Qoşulmama Hərəkatına, Şimali Atlantika Müqaviləsi Təşkilatına (NATO), NATO Parlament Assambleyasına, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatına (ATƏT), Avropa İttifaqına, Avropa Şurasına, Avropa Şurasının Parlament Assambleyasına, ATƏT Parlament Assambleyasına, ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinə, Müstəqil Dövlətlər Birliyinə, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına, Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığına, Birləşmiş Millətlər Təşkilatının Elm, Təhsil və Mədəniyyət üzrə ixtisaslaşmış qurumuna (UNESCO) və Uşaq Fonduna (UNICEF), Ərəb Dövlətləri Liqasına, İqtisadi Əməkdaşlıq Təşkilatına (İƏT), İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatına (ISESCO), Milli Demokratiya İnstitutuna, İnsan Hüquqları Beynəlxalq Cəmiyyətinə, İslam Əməkdaşlıq Təşkilatına, Ümumdünya İslam Konqresinə, Avronest Parlament Assambleyasına, Beynəlxalq Qaçqınlar Təşkilatına, "Human Rights Watch", "Transparency International", "Amnesty International", Sərhədsiz Jurnalistlər və Sərhədsiz Həkimlər təşkilatlarına Ermənistanın 2020-ci il oktyabrın 17-də Gəncədə törətdiyi növbəti terror aktı ilə bağlı müraciət ünvanlayıb. AZƏRTAC müraciəti təqdim edir.

Müraciətdə deyilir: Sülhsevər dünya ictimaiyyətinin müharibəni bir vasitə kimi qəbul etməyən, mülki əhalinin, uşaqların və körpələrin öldürülməməsini tələb edən humanist insanların, dövlətlərin və beynəlxalq təşkilatların diqqətinə!

Ermənistanın son 30 ildə çox ciddi şəkildə silahlanması bölgə və beynəlxalq təhlükəsizliyi ciddi şəkildə təhdid etmişdir. Bu silahlanma əsasən Azərbaycana qarşı yönəlmiş və yeni ərazilərin işğal edilməsi ilə bağlı olmuşdur.

Beynəlxalq sülhün və təhlükəsizliyin əsas təminatçısı olan BMT Təhlükəsizlik Şurasının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı 1993-cü ildə qəbul etdiyi 822, 853, 874 və 884 saylı qətnamələrində Ermənistan silahlı qüvvələrinin işğal etdiyi Azərbaycan ərazilərindən tam və qeyd-şərtsiz çıxarılmasının zəruriliyi açıq şəkildə tələb edilir. Bu qətnamələrdə Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi təcavüzkar addımlar qınanır, münaqişə tərəfi olmayan mülki şəxslər qorunur və ərazi əldə etmək üçün güc tətbiqinin yolverilməz olduğu vurğulanır. Eyni zamanda, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və beynəlxalq aləmdə tanınmış sərhədlərinin toxunulmazlığı qeyd olunur.

Ermənistan 30 ildir bu qətnamənin şərtlərinə əməl etmir, militarist siyasət həyata keçirir və Azərbaycanın yeni ərazilərini işğal etməyə çalışır.

Ermənistan 2016-cı ilin aprel ayında atəşkəsi pozaraq hərbi əməliyyatlara başlamış, mülki əhalinin yaşadığı qəsəbə və kəndləri ağır silahlardan bombalamışdır.

Atəşkəs razılaşmasının şərtlərinə əməl etməyən, Azərbaycanın yeni ərazilərini işğal etməyi qarşısına məqsəd qoyan Ermənistan cari il iyulun 12-də Azərbaycan-Ermənistan sərhədinin Tovuz rayonu istiqamətində atəşkəsi pozaraq genişmiqyaslı hərbi əməliyyatlara başlamış, Azərbaycan Ordusunun layiqli cavabından sonra geri çəkilməyə məcbur olmuşdur.

2020-ci il sentyabrın 27-də Ermənistan ordusu işğal altında saxladığı Dağlıq Qarabağda Azərbaycana qarşı genişmiqyaslı hərbi əməliyyatlara başlamışdır. Bu zaman əsasən Azərbaycanın böyük şəhərləri, mülki sənaye obyektləri ən müasir raketlərlə bombalanmışdır.

Ermənistanın silahlı qüvvələri 27 sentyabr - 17 oktyabr tarixləri arasında döyüş bölgələrindən kənarda yerləşən Gəncə və Mingəçevir şəhərlərini, Abşeron, Xızı, Bərdə, Beyləqan, Ağcabədi, Zərdab, Goranboy, Göygöl, Tərtər, Yevlax yaşayış məntəqələrini mütəmadi olaraq raketlərlə atəşə tutmuş, mülki əhaliyə qarşı müharibə cinayətləri törətmişdir.

Rusiyanın vasitəçiliyi ilə oktyabrın 10-da humanitar məqsədlərlə atəşkəs razılığı əldə edilməsinə baxmayaraq, Ermənistan silahlı qüvvələri oktyabrın 11-də gecə saat ikidə öz ölkəsinin ərazisindən Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəni "Elbrus" ballistik raketlərlə (SCUD) bombalamışdır. Nəticədə 5-i qadın olmaqla 10 nəfər həlak olmuş, 16-sı qadın və 6-sı azyaşlı olmaqla 34 nəfər yaralanmış, həmçinin 3 bina tamamilə məhv edilərək, 10-dan artıq çoxmənzilli binaya və 100-dən çox müxtəlif təyinatlı obyektlərə ziyan dəymişdir.

Ermənistan silahlı qüvvələri işğal olunmuş Qubadlı rayonu ərazisindən oktyabrın 15-də saat 10:44-də atdığı əməliyyat-taktiki raketlə Naxçıvan Muxtar Respublikasının Ordubad rayonunu atəşə tutmuşdur.

Ermənistan beynəlxalq etirazlara baxmayaraq, yeni hərbi cinayət törətmiş, onun 2020-ci il oktyabrın 17-də gecə saat bir radələrində Azərbaycanın ikinci böyük şəhəri olan və cəbhə xəttindən çox uzaqda yerləşən Gəncəyə üçüncü dəhşətli hücumu çoxlu sayda mülki insanların itkisinə səbəb olmuşdur. Nəticədə 13 şəxs, o cümlədən 2 uşaq həyatını itirmiş, 45-dən çox insan ciddi şəkildə yaralanmışdır. Çoxsaylı mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəymişdir. Bu cinayət nəticəsində ölü və yaralıların sayının daha da artacağı ehtimalı olduqca yüksəkdir.

Gəncə şəhərinin dinc sakinlərinin ballistik raketlərlə atəşə tutulması insan hüquq və azadlıqlarının, ümumilikdə beynəlxalq hüququn norma və prinsiplərinin, o cümlədən 1949-cu il tarixli Cenevrə Konvensiyaları və onların əlavə protokollarının, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrinin kobud surətdə pozulmasıdır. Dinc əhaliyə qarşı törədilən bu amansızlıqlar müharibə cinayətidir və buna beynəlxalq səviyyədə hüquqi qiymət verilməlidir.

Bununla da Ermənistan islaholunmaz, terrorçu ölkə olduğunu növbəti dəfə nümayiş etdirdi. Rəsmi İrəvan sübuta yetirdi ki, onunla danışmağın heç bir mənası yoxdur. Gəncənin dinc sakinləri şirin yuxuda ikən düşmən onları hədəfə aldı.

Biz, Azərbaycanda fəaliyyət göstərən siyasi partiyalar Ermənistanın mülki əhaliyə qarşı həyata keçirdiyi terror aktını qətiyyətlə qınayır, terrorçu dövlətin cəzalandırılmasını tələb edir və bildiririk:

Vətən müharibəsində Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi siyasəti qətiyyətlə dəstəklədiyimizi bildirir, Azərbaycan xalqı ilə birlikdə onun ətrafında polad yumruq kimi birləşdiyimizi Ermənistanın və dünya ictimaiyyətinin diqqətinə çatdırırıq.

Beynəlxalq hüququn norma və prinsipləri, o cümlədən beynəlxalq humanitar hüquq, eləcə də oktyabrın 10-da Moskvada qəbul olunmuş humanitar atəşkəsi kobud şəkildə pozaraq mülki insanların məqsədli şəkildə öldürülməsi müharibə cinayəti və insanlıq əleyhinə cinayətdir. Ermənistanın hərbi-siyasi rəhbərliyi bu cinayətlərə görə tam məsuliyyət daşıyır.

Ermənistanın davam edən hərbi təcavüzü və mülki insanlara qarşı qəddar hücumları dərhal dayandırılmalı və beynəlxalq ictimaiyyət Ermənistanın Azərbaycan xalqına qarşı olan bu qeyri-insani aktlarına göz yummamalıdır.

Ermənistana silah satan dövlətlər Azərbaycan şəhərlərinin və rayonlarının bombalanması nəticəsində qadınlara, uşaqlara və körpələrə qarşı törədilən cinayətlərə ortaq olmaması üçün dərhal silah satışını dayandırmalıdır.

Terroru dövlət siyasəti vasitəsinə çevirən Ermənistanın hərbi-siyasi rəhbərliyi dinc əhalini raket atəşinə tutmaq qərarı verdiklərinə görə məsuliyyət daşıyırlar. Milli və beynəlxalq hüquq mexanizmlərindən istifadə etməklə cinayətkarlar ədalət mühakiməsinə cəlb edilməlidir.

1. Yeni Azərbaycan Partiyası - Əli Əhmədov
2. Vətəndaş Həmrəyliyi Partiyası - Sabir Rüstəmxanlı
3. Ana Vətən Partiyası - Fəzail Ağamalı
4. Böyük Quruluş Partiyası - Fazil Mustafa
5. Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyası - Qüdrət Həsənquliyev
6. Demokratik İslahatlar Partiyası - Asim Mollazadə
7. Vəhdət Partiyası - Tahir Kərimli
8. Vətəndaş Birliyi Partiyası - Sabir Hacıyev
9. Azərbaycan Demokratik Maarifçilik Partiyası - Elşən Musayev
10. Milli Cəbhə Partiyası - Razi Nurullayev
11. ReAL Partiyası - İlqar Məmmədov
12. Azərbaycan Ümid Partiyası - İqbal Ağa-zadə
13. Milli Dirçəliş Hərəkatı Partiyası - Fərəc Quliyev
14. Azərbaycan Demokrat Partiyası - Sərdar Cəlaloğlu
15. Azərbaycan Xalq Partiyası - Pənah Hüseyn
16. Ədalət Partiyası - İlyas İsmayılov
17. Klassik Xalq Cəbhəsi Partiyası - Mirmahmud Fəttayev
18. Azad Demokratlar Partiyası - Sülhəddin Əkbər
19. Azərbaycan Liberal Partiyası - Əvəz Temirxan
20. Azərbaycan Milli İstiqlal Partiyası - Arzuxan Əlizadə
21. Aydınlar Partiyası - Qulamhüseyn Əlibəyli
22. Azərbaycan Respublikaçılar Partiyası - Sübut Əsədov
23. Azərbaycan Sosial Demokrat Partiyası - Araz Əlizadə
24. Azərbaycan Sosial Rifah Partiyası - Əsli Kazımova
25. Böyük Azərbaycan Partiyası - Elşad Musayev
26. Milli Vəhdət Partiyası - Yunus Oğuz
27. AĞ Partiya - Tural Abbaslı
28. Müasir Müsavat Partiyası - Hafiz Hacıyev
29. Azərbaycan Liberal Demokrat Partiyası - Fuad Əliyev
30. Azərbaycan Yurddaş Partiyası - Mais Səfərli
31. Azadlıq Partiyası - Əhməd Orucov
32. Azərbaycan Naminə Alyans Partiyası - Abutalıb Səmədov
33. Azərbaycan Azad Respublikaçılar Partiyası - Kamil Seyidov
34. Cümhuriyyət Xalq Partiyası - Bədrəddin Quliyev
35. Milli Həmrəylik Partiyası - Əlisahib Hüseynov
36. Yeni Zaman Partiyası - Musa Ağayev
37. Vətəndaş və İnkişaf Partiyası - Əli Əliyev
38. Azərbaycan Xalq Demokratik Partiyası - Rafiq Turabxan
39. Azərbaycan Kommunist Partiyası - Hacı Hacıyev və Rauf Qurbanov
40. Milli Konqres Partiyası - İxtiyar Şirinov
41. Müstəqil Xalq Partiyası - Əflan İbrahimov
42. Vahid Azərbaycan Milli Birlik Partiyası - Hacıbaba Əzimov
43. Azərbaycan Milli Demokrat Partiyası - Tufan Kərimov
44. Azərbaycan Təkamül Partiyası - Teyyub Əliyev
45. Birlik Partiyası - Xudadat Xudiyev
46. Gələcək Azərbaycan Partiyası - Ağasif Şakiroğlu
47. Azərbaycan Milli Hərəkat Partiyası - Samir Cəfərov
48. Azərbaycan Mübarizləri Partiyası - Ağadur Müslümov
49. Qorqud Partiyası - Firudin Kərimov
50. Milli Demokrat İdrak Partiyası - Osman Əfəndiyev

*Qeyd edək ki, bu müraciət yuxarıda göstərilən 30 təşkilata ayrı-ayrılıqda göndəriləcək.*

## Baş prokuror və Fövqəladə Hallar naziri Gəncədə Ermənistan ordusunun raket atəşləri nəticəsində dağılmış əraziyə gəliblər



Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev və Fövqəladə Hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov Ermənistan silahlı qüvvələrinin oktyabrın 17-də gecə saat 1 radələrində Gəncə şəhərinə yenidən raket atması nəticəsində dağılmış əraziyə gəliblər.

AZƏRTAC-ın bölgəyə ezam olunmuş müxbiri xəbər verir ki, Baş prokuror və Fövqəladə Hallar naziri Ermənistan ordusunun beynəlxalq hüququn norma və prinsiplərini, habelə humanitar atəşkəs rejimini kobudcasına pozaraq raket zərbələri endirdiyi ərazilərə, hərbi cinayət nəticəsində dağılmış yaşayış evlərinə baxış keçirib, axtarış-xilasetmə işləri ilə tanış olublar.

Qeyd edək ki, oktyabrın 17-də gecə saat 1 radələrində döyüş bölgəsindən tamamilə kənarda yerləşən Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəyə təcavüzkar tərəfindən raket zərbələri endirilib. Nəticədə yaşayış evlərinə düşən raketlər həmin evləri tamamilə dağıdıb, sakinlər dağıntılar altında qalıb.

Düşmənin silahlı qüvvələrinin Gəncənin mərkəzi hissəsində yerləşən dinc sakinlərin yaşayış məntəqələrini raket atəşinə tutması nəticəsində ilkin məlumata görə, 13 nəfər həlak olub, 50-dən çox şəxs yaralanıb, çoxsaylı mülki infrastruktur obyektlərə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib.

## Konstitusiya Məhkəməsi bütün dünya ölkələrinin konstitusiya ədalət mühakiməsi orqanlarına müraciət edib

Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi bütün dünya ölkələrinin konstitusiya ədalət mühakiməsi orqanlarına müraciət ünvanlayıb. Bu barədə AZƏRTAC-a Konstitusiya Məhkəməsinin Mətbuat xidmətindən bildirilib.

Müraciətdə deyilir: "Azərbaycan Respublikasının Silahlı Qüvvələri ölkəmizin beynəlxalq səviyyədə tanınmış dövlət sərhədləri daxilində ərazi bütövlüyünün bərpasını təmin etmək, Ermənistan tərəfindən işğal olunmuş Dağlıq Qarabağı və yeddi ətraf rayonu azad etmək məqsədilə Azərbaycan ərazisində hərbi əməliyyatlar keçirir.

Azərbaycan Ordusunun uğurlu əməliyyatları nəticəsində son həftələr ərzində bir sıra şəhər və yaşayış məntəqələri işğaldan azad edilib. Hərbi əməliyyatlar beynəlxalq humanitar hüququn tələblərinə tam uyğun olaraq aparılır. Azad edilmiş ərazilərin yerli əhalisinə hər cür yardım göstərilir. Azərbaycan Silahlı Qüvvələri Ermənistan ordusunun əsir düşmüş əsgərləri ilə Cenevrə Konvensiyalarının normalarına və əlavə protokollarına uyğun davranır.

Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərində məğlubiyyətə uğradığını anlayan Ermənistanın hərbi-siyasi rəhbərliyi qarşıdurmanın coğrafiyasını genişləndirmək məqsədilə müharibə bölgəsindən 60-100 kilometr məsafədə yerləşən Azərbaycan şəhərlərinə zərbələr endirməyə qərar verib. Son bir neçə gündə Azərbaycanın Gəncə, Mingəçevir, Tərtər, Bərdə, Ağcabədi və digər şəhər və rayonlarındakı mülki obyektlər, yaşayış binaları Ermənistan ərazisindən raket atəşinə məruz qalıb.

Erməni tərəfinin təcavüzü çoxsaylı mülki şəxslərin ölümü ilə nəticələnib. Sentyabrın 27-dən oktyabrın 17-dək 60 mülki şəxs həlak olub, 271 nəfər yaralanıb. Ölənlər və yaralananlar arasında qadınlar, uşaqlar və qocalar var. Mülki infrastruktura ciddi ziyan dəyib.

Bu hücumlar Ermənistan hökumətinin mülki əhaliyə qarşı apardığı terror və faşist siyasətinin növbəti təzahürüdür. Beynəlxalq ictimaiyyət Ermənistan rəhbərliyinin Azərbaycanın mülki əhalisinə qarşı törətdiyi cinayətlərə görə beynəlxalq hüquqi məsuliyyətini müəyyənləşdirib tədbirlər görməlidir.

Biz dünyanın bütün konstitusiya nəzarəti orqanlarını, eləcə də bütün beynəlxalq təşkilatları Ermənistanın hərbi-siyasi rəhbərliyinin müharibə cinayətlərini qınamağa çağırırıq. Bəşəriyyətə qarşı yönələn bu cinayətlər haqqında məlumat dünya ictimaiyyətinin diqqətinə çatdırılmalıdır.

Mütərəqqi beynəlxalq ictimaiyyət Ermənistan rəhbərliyinin faşizm və terror siyasətinə açıq şəkildə "YOX" deməlidir".

## "Axtarış-xilasetmə əməliyyatları davam etdirilir"

Hadisə baş verəndən dərhal sonra axtarış-xilasetmə işlərinə başlanılıb, 10 nəfərdən çox mülki şəxs həlak olub. Hazırda axtarış-xilasetmə əməliyyatları davam etdirilir. Əraziyə təkrar baxışlar keçiriləcək, dəyən ziyan müəyyənləşdiriləcək.

AZƏRTAC-ın bölgəyə ezam olunmuş müxbiri xəbər verir ki, bunu Gəncədə jurnalistlərə açıqlamasında Fövqəladə Hallar naziri Kəmaləddin Heydərov deyib.

Nazir bildirib ki, Gəncədə əhali arasında heç bir təşviş yoxdur: "Təkcə Gəncə deyil, digər şəhər və rayonlarda da yaşayış məntəqələrini raket atəşinə tuturlar, bu, vandalizmdir. Erməni vandalları dərslərini alırlar, Azərbaycan Ordusu qətiyyətlə irəliləyir. Ali Baş Komandan tarix yazır".

K.Heydərov qeyd edib ki, dağılan bütün yerlər bərpa olunacaq, sakinlər mənzillərlə təmin ediləcək.

Qeyd edək ki, Ermənistan silahlı qüvvələri bu gecə saat 01:00 radələrində döyüş bölgəsindən tamamilə kənarda yerləşən Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəyə təcavüzkar tərəfindən raket zərbələri endirib. Nəticədə yaşayış evlərinə düşən raketlər həmin evləri tamamilə dağıdıb, sakinlər dağıntılar altında qalıb. Dağıntılar altından xəsarət almış 50-dən artıq insan və 13 nəfərin meyiti çıxarılıb. Axtarış-xilasetmə işləri davam etdirilir.

## "İndiyədək dağıntılar altından xəsarət almış 52 nəfər və 13 nəfərin cəsədi çıxarılıb"

Xəbər verildiyi kimi, humanitar atəşkəs rejimini kobudcasına pozmaqda davam edən Ermənistan ordusu oktyabrın 17-də gecə saat 01:00 radələrində döyüş bölgəsindən tamamilə kənarda yerləşən Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəyə yenidən raket zərbələri endirib, böyük dağıntı və insan tələfatı törədib. Fövqəladə Hallar Nazirliyindən (FHN) AZƏRTAC-a bildiriblər ki, dərhal əraziyə FHN-in müvafiq qüvvələri cəlb olunub. Bu vaxta qədər dağıntılar altından xəsarət almış 52 nəfər və 13 nəfərin cəsədi çıxarılıb.

Axtarış-xilasetmə əməliyyatı davam edir. Əlavə məlumat veriləcək.

Qeyd edək ki, Fövqəladə Hallar Nazirliyi hazırda gücləndirilmiş iş rejimində fəaliyyət göstərir. Baş verən hər hansı fövqəladə hadisə ilə əlaqədar nazirliyin 112 "qaynar" telefon xəttinə dərhal məlumat verilməsi xahiş olunur.

## Türkiyə səfiri: "Qarşımızda insanlıqdan nəsibini almamış, xain, alçaq, təcavüzkar düşmən var"



Azərbaycan bu günlərdə ərazi bütövlüyünü təmin etmək üçün beynəlxalq hüquqa, müharibə qayda-qanunlarına, insan haqlarına uyğun şəkildə haqlı mübarizə aparmaqdadır. Azərbaycan Ordusunun qazandığı qələbələrlə, işğaldan xilas etdiyi şəhərlərlə bizlər də qürur duyuruq. Lakin təəssüf ki, qarşımızda insanlıqdan nəsibini almamış, xain, alçaq, təcavüzkar düşmən var. Əlbəttə ki, onlara da lazımi dərslər veriləcək.

AZƏRTAC-ın bölgəyə ezam olunmuş müxbiri xəbər verir ki, bunu oktyabrın 17-də Gəncədə yerli sakinlərlə görüşdə Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral deyib.

"Bu müharibədə, şübhəsiz ki, Gəncənin ayrı bir yeri olacaq. Bu müharibənin tarixi yazılarkən Gəncənin, Azərbaycanın digər şəhərlərinin məruz qaldığı hücumlarla bağlı da mütləq ayrıca bir səhifə açılacaq. Bugünə qədər verdiyimiz şəhidlərimizin bu səhifədə xüsusi yeri olacaq. Bütün şəhidlərimiz, Gəncədə həyatını itirən dinc bacı-qardaşlarımız, Tərtərdə, Bərdədə, Ağdamda, Goranboyda xain, alçaq hücumun qurbanı olan bacı-qardaşlarımız üçün Azərbaycan xalqına başsağlığı verir, yaralılarımıza tezliklə sağalmalarını diləyirəm. Onu da bildirmək istəyirəm ki, Türkiyə bütün imkanları ilə bu haqlı mübarizəsində sonuna qədər Azərbaycanın yanında olacaqdır. Başınız sağ olsun, Allah rəhmət eləsin! Allah əsgərlərimizə qüvvət versin!", - deyə Türkiyə səfiri bildirib.

Qeyd edək ki, Ermənistan silahlı qüvvələrinin oktyabrın 17-də Gəncənin mərkəzi hissəsinə raket zərbəsi nəticəsində 13 nəfər həlak olub, 52 şəxs yaralanıb, çoxsaylı mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib. Həlak olanlar və xəsarət alanlar arasında azyaşlılar, qadınlar və qocalar da var. Axtarış-xilasetmə əməliyyatları davam edir.

## Ermənistan ordusunun Gəncəni raket atəşinə tutması ilə bağlı Azərbaycanın Baş prokuroru tərəfindən cinayət işi başlanıb

Xəbər verildiyi kimi, Ermənistan silahlı qüvvələrinin oktyabrın 17-də gecə saat 01 radələrində cəbhə zonasından kənarda yerləşən, Azərbaycan Respublikasının ikinci böyük şəhəri Gəncənin mərkəzi hissəsini raket atəşinə tutması nəticəsində 13 nəfər həlak olub, 52 nəfər yaralanıb, çoxsaylı mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəyib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, faktla bağlı Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən Cinayət Məcəlləsinin 100.2-ci (təcavüzkar müharibəni aparma), 120.2.1-ci (cinayətkar birlik-təşkilat tərəfindən qəsdən adam öldürmə), 120.2.4-cü (xüsusi amansızlıqla və ya ümumi təhlükəli üsulla qəsdən adam öldürmə), 120.2.7-ci (qəsdən iki və ya daha çox şəxsi öldürmə), 120.2.12-ci (milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə qəsdən adam öldürməyə cəhd), 186.3-cü (əmlakı qəsdən məhv etmə və ya zədələmə xüsusilə külli miqdarda ziyan vurmaqla törədildikdə) və digər maddələri ilə cinayət işi başlanıb. İstintaqın aparılması Baş Prokurorluğun İstintaq idarəsinə tapşırılıb.

Hazırda hadisə yerində olan prokurorluq əməkdaşları həlak olan və zərərçəkmiş şəxslərin, həmçinin mülki infrastruktur obyektlərinin, nəqliyyat vasitələrinin siyahısının dəqiqləşdirilməsi ilə bağlı istintaq-əməliyyat tədbirlərini davam etdirirlər.

İctimaiyyətə ətraflı məlumat veriləcək.

## "Bu cinayətin həm hüquqi, həm də siyasi məsuliyyəti Ermənistan rəhbərliyi üçün çox ağır olacaq"

Ermənistan ordusu cəbhədə məğlubiyyətə uğradıqca çarəsizlikdən dinc əhaliyə qarşı hücumlarını daha da şiddətləndirir, intensivliyi artırır. Bu da onların acizliyindən xəbər verir. AZƏRTAC-ın cəbhə bölgəsinə ezam olunmuş müxbiri xəbər verir ki, bu sözləri Azərbaycanın Baş prokuroru Kamran Əliyev Gəncədə hadisə yerində jurnalistlərə açıqlamasında deyib.

Ermənistanın hərbi-siyasi rəhbərliyinin ağıllarını itirdiklərini vurğulayan Baş prokuror deyib: "Gəncənin yenidən raketlərlə atəşə tutulması bəşəriyyət əleyhinə, insanlıq əleyhinə çox ağır cinayətdir. Bu cinayətin həm hüquqi, həm də siyasi məsuliyyəti Ermənistan rəhbərliyi üçün çox ağır olacaq. Bu, artıq Ermənistan rəhbərliyi üçün aqoniyadır. Çünki onlar sonlarının başlanğıcını hiss etdikcə bu kimi addımlara əl atırlar".

Kamran Əliyev qeyd edib ki, bu ağılsız addım Azərbaycanın dinc əhalisi arasında təşviş yaratmağa yönəlib. "Bu da alınan deyil. Mən oktyabrın 11-də yaşanan hadisə zamanı da Gəncəyə gəlmişdim. İndi də görürəm ki, Gəncə əhalisi çox qoçaq, mərddir, onları bununla qorxutmaq mümkün deyil. Bu, erməni vəhşiliyinin növbəti təzahürüdür. Hesab edirəm ki, bu da növbəti mərhələdir. Xalqımız bunu da ləyaqətlə yaşayacaq, keçəcək. Ümid edirəm ki, indi olduğu kimi, Qarabağda, döyüş bölgəsində qələbə axıradək bizimlə olacaq", - deyə Baş prokuror bildirib.

Qeyd edək ki, Ermənistan silahlı qüvvələri bu gecə saat 01:00 radələrində döyüş bölgəsindən tamamilə kənarda yerləşən Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəyə təcavüzkar tərəfindən raket zərbələri endirib. Nəticədə yaşayış evlərinə düşən raketlər həmin evləri tamamilə dağıdıb, sakinlər dağıntılar altında qalıb. Dağıntılar altından xəsarət almış 50-dən artıq insan və 13 nəfərin meyiti çıxarılıb. Axtarış-xilasetmə işləri davam edir.

# Humanitar atəşkəsin antihumanist qatilləri

# Ermənistan Gəncədə növbəti qəddar müharibə cinayəti törətdi






Əvvəli 1-ci səh.

Elə 27 sentyabrdan etibarən də onların bu şərəfsiz və namərd hücumlarının şahidi olmuşuq.

### Mənfur ermənilər tezliklə ədalət divanı qarşısında cavab verməli olacaq

Artıq iyirmi gündən çoxdur ki, dövlət siyasəti faşist ideologiyasına köklənmiş Ermənistan hər gün beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq dinc əhaliyə qarşı terror törədir.

Özlərinin yalvarışları sayəsində Moskvada razılaşdırılıb elan edilmiş humanitar atəşkəs rejimini kobudcasına pozan Ermənistan silahlı bölmələri gecə-gündüz yaşayış məntəqələrimizi atəşə tutur. Burada onu da vurğulayaq ki, erməni siyasi qüvvələri razılaşdırmanın prinsiplərinə həm də ona görə əməl etmək istəmirlər ki, meyitlərin yığışdırılmasını həyata keçirərlərsə, bu zaman real itkilərini gizlədə bilməyəcəklər və feyk xəbərlərlə birtəhər başını qatdıqları sadə erməni xalqına cavab verməli olacaqlar. Amma unudurlar ki, tezliklə onsuz da Azərbaycan Ordusu bu qaniçən quldurları həm beynəlxalq qanunlar, həm Azərbaycan, həm də erməni xalqı qarşısında ədalət divanına çəkərək törətdikləri vəhşi əməllərin hesabını verməyə məcbur edəcək.

### Qəddar düşmən əzici məğlubiyyətinin hikkəsini məsum uşaqlardan çıxarmaq istəyir

Haqq qarşısında cavab verəcəyini çox gözəl anlayan və axırlarının yaxınlaşdığını hiss edən erməni mənfurlarının son cəhd kimi azğın hərəkətlər etməsi və dinc əhalini hədəf alması xislətlərinə xas davranışdır. Elə buna görədir ki, Azərbaycan əsgəri düşmənin yalnız hərbi obyektlərini nişan aldığı halda, erməni silahlı qüvvələri həm cəbhəboyu rayon və kəndlərimizi, həm də cəbhə zonasından uzaq məsafədə yerləşən şəhərlərimizi ağır artilleriya və raket atəşinə tutur, nəticədə içərisində azyaşlıların da olduğu mülki şəxslər yaralanır, həlak olur, evlər və sosial obyektlər dağıdılır.

Bəli, qəddar düşmən cəbhədəki əzici məğlubiyyətinin hikkəsini məsum uşaqlardan, qocalardan, əliyalın insanlardan çıxmaqla soyutmaq istəyir.

Humanitar atəşkəsdən cəmi bir gün sonra, oktyabrın 11-də gecə saatlarında Azərbaycanın ikinci ən böyük şəhəri, 500 mindən çox əhalisi olan və cəbhə xəttindən kilometrlərlə uzaqda yerləşən Gəncəni bombardman etməsi də bu qəbildən olan qanlı əməllərinin davamı oldu. Erməni vandalları yenə günahsız insanlara qarşı soyqırımı törətdi.








Oktyabrın 15-də günorta saatlarında isə erməni faşistləri daha bir insanlıq suçu ilə dünya tarixinə adlarını qara hərflərlə həkk etdilər. Dəfn mərasimi zamanı məzarlığı atəşə tutaraq mülki şəxsləri öldürdülər.

Onların törətdikləri bu alçaq əməlləri isə dünyanın heç bir lüğətindəki sözlə ifadə etmək mümkün deyil. Görünür, dirilərin qanını içməkdən doymayan erməni caniləri məzarlıqları, ölüləri hədəf alaraq ürəklərini soyutmağa çalışırlar...

### Qatil ermənilər Gəncədə daha bir terror törətdi

Dünən səhər isə Azərbaycan xalqı Gəncə şəhərində qatil ermənilərin daha bir terror hadisəsi törətməsi xəbəri ilə oyandı. Namərd düşmən yenə də gecə saatlarında mülki insanları hədəf almışdı. Ermənistan silahlı qüvvələrinin oktyabrın 17-si gecə saat 01 radələrində cəbhə zonasından kənarda yerləşən Gəncənin mərkəzi hissəsini bombardman etməsi nəticəsində aralarında uşaqların da olduğu 13 nəfər həlak oldu, 45-dən artıq şəxs yaralandı. O cümlədən çoxsaylı mülki infrastruktur obyektlərinə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəydi.

Cenevrə konvensiyalarının, xüsusilə Müharibə zamanı mülki əhalinin müdafiəsi haqqında 1949-cu il 12 avqust tarixli Konvensiyanın, Uşaq hüquqları Konvensiyasının və insan hüquqları sahəsində digər beynəlxalq sənədlərin müddəalarının kobud şəkildə pozulduğu bu müharibə cinayəti erməni vəhşiliyinin növbəti təzahürüdür. Bu qanlı terror sırf mülki insanların həlak olmasına yönəlib, çünki raket atılan həmin ərazidə heç bir hərbi obyekt yoxdur.

Dəfələrlə vurğuladığımız kimi, Azərbaycan Ordusunun torpaqlarımızın işğaldan azad edilməsi istiqamətində uğurlu əməliyyatları, Qarabağı addım-addım erməni quldurlarından azad etməsi işğalçının azğınlaşmasına və quduzlaşaraq mülki əhaliyə hücum etməsinə səbəb olur. Düşmən kütbeyin ağlı ilə elə düşünür ki, bu namərd əməlləri ilə Azərbaycan xalqının əzmini, iradəsini sındıra biləcək.

Amma bu gün ordumuz parlaq zəfərlər qazanır, Ali Baş Komandanın rəhbərliyi altında Azərbaycanın ən şanlı günləri tarixin səhifələrinə qızıl hərflərlə yazılır. Bu müqəddəs haqq savaşında isə terrorçu erməninin atdığı raketlər də, bombalar da, güllələr də gücsüzdür, acizdir...

Əslində, erməni cəlladları bu 30 ildə olduğu kimi, növbəti səhərimizin də qara və bəd xəbərlərlə açılmasına hesablanmış namərd plan həyata keçirdi. Gəncəni bir daha vurmaqla ürəyimizə qorxu, vahimə salmağa uğursuz bir cəhd etdi...

### Füzuli bizimdir, Qarabağ Azərbaycandır!

Amma dünən səhər Ali Baş Komandan İlham Əliyevin səsləndirdiyi bir müjdəylə, Azərbaycan xalqının sevincdən göz yaşı tökdüyü, ürəyinin fərəhdən dağa döndüyü möhtəşəm bir qələbə xəbəri ilə açıldı. Ali Baş Komandan xalqa müraciətində bildirdi ki, Füzuli bizimdir, Qarabağ Azərbaycandır!

Prezidentimiz bir daha bəyan etdi ki, ölkəmizin ərazi bütövlüyünü bərpa edirik və bərpa edəcəyik: "Füzuli uğrunda döyüşlər ağır döyüşlərdi. Vaxt keçəcək bu döyüşlər haqqında kitablar yazılacaq, əsərlər yazılacaq. Bu, doğrudan da çox böyük peşəkarlıq, məharət, şücaət, fədakarlıq tələb edən döyüşlərdi".

Bəli, Füzulinin işğaldan azad edilməsi faşist Ermənistanın Gəncədə törətdiyi qətliamın qisasının alındığının əyani sübutudur. Və bu qələbələrin davamı olacaq, bütün işğal olunan torpaqlarımızdan düşmən qovulacaq, zorla Azərbaycandan qoparılmaq istənilən Qarabağ azadlığına qovuşdurulacaq.

Azərbaycan xalqının səhərləri bəd, qara xəbərlərlə deyil, azadlıq, qələbə, sevinc müjdələri ilə açılacaq.

Azərbaycan əsgərinin şücaəti, Ali Baş Komandanın qətiyyətli siyasəti və xalqımızın həmrəyliyi bundan sonra gələcək bütün sabahlarımızın işıqlı, parlaq olacağının rəhnidir...

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# Gəncədə tökülən nahaq qan yerdə qalmayacaq

## Azərbaycan bu vandallığın da cəzasını verəcək




Erməni cəlladları nahaq qan tökməkdən əl çəkmirlər. Məğlubiyyətə uğrayan, cılızlaşan, mənəviyyatı gündən-günə aşınan işğalçılar əllərini dönə-dönə günahsız insanların qanına batırırlar.

Yerə-göyə sığmayan faciə, misli görünməmiş vəhşilik, qanun qarşısında bağışlanmaz cinayət və insanlıq qarşısında sözlə ifadə edilə bilməyəcək bir günahdır bu!

Oktyabrın 17-nə keçən gecə erməni vandalları Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəyə yenidən raket zərbələri endiriblər. Evlər dağıdılıb, günahsız insanlar, o cümlədən uşaqlar, qocalar, qadınlar dağıntılar altında qalıb. Faciəli surətdə həyatını itirənlər, yaralananlar var.

Dinc əhaliyə divan tutmaq erməni faşistlərinin dəyişməz xisləti, köhnə üzdəniraq adətidir. Xocalı soyqırımı kimi ağlasığmaz vəhşilik törədən vicdanı ləkəli erməni cəlladlarının əlindən nahaq qanlar tökməkdən başqa bir iş gəlmir. Nə vaxtdır yenə də Azərbaycanın şəhər və kəndlərində dinc insanları, onların mal-mülkünü hədəfə alırlar. O cümlədən tarixlər şahidi olan qədim Gəncəmiz hədəfdədir. Artıq neçənci dəfədir bu şəhərdə dağıntı, qırğın törədirlər.

Gücsüzlüklərinin, acizliklərinin və ilk növbədə, şərəfsizliklərinin, namərdliklərinin daha bir sübutudur bu! Azərbaycan xalqının haqq savaşı qarşısında, Azərbaycan Ordusunun gücü-qüdrəti qarşısında dözüş-duruş gətirməyi bacarmırlar. Şəhər və kəndlərimizi bir-birinin ardınca onların murdar pəncələrindən azad etməyimizlə, zirvələri almağımızla barışa bilmirlər. Məğlubiyyətlərinin acısının və xəcalətinin intiqamını ən alçaq və şərəfsiz yolla alırlar. Gecə yuxuda olan şəhərə zərbə endirirlər. Cəbhədən, döyüş meydanından çox-çox uzaqlarda olan yaşayış məntəqələrinin sakinlərini qətlə yetirirlər.

Təbiətin qoynunda, meşənin dərinliklərində yaşayan vəhşi heyvanlar belə körpəyə toxunmaz, hücum etməz heç vaxt. Erməni vəhşiləri isə körpəyə güllə atır. Bax, gülləyə gülən o körpədə olduğu qədər qeyrət, mərdlik yoxdur o vandallarda, onların eybəcər mənəviyyatlı hərbi-siyasi rəhbərliyində.

Namərd yağı! Başlıca hədəfin Azərbaycan xalqının əzmini sındırmaqdır, bilirik. Əlində saxlaya bilmədiyin silahı nə qədər çaxsan da, bu hədəfə dəyə bilməyəcəksən! Azərbaycan əsgərinin döyüş ruhunu söndürməyə gücün çatmayacaq!

Biz Murovu, Suqovuşanı, Cəbrayılı, Füzulini, neçə-neçə obamızı sənin ləpirlərindən təmizlədikcə, taqətin tükənir, nəfəsin kəsilir, əlbəttə. Odur ki, gücünüz bir uşağın iradəsinə də çatmır.

Deyəsən, əyri-əyri yollarla əldə etdiyiniz bahalı silahlara çox güvənirsiniz. Ermənistanda millətiniz acından ölür, ölkədən dəstə-dəstə çıxıb gedir. Siz öz millətinizin də düşmənisiniz. Onu inkişafdan, dolanışıqdan geridə qoymağınız bir yana qalsın, övladlarını da əsgər kimi gətirib özgə torpağında ucuz, urvatsız ölümə məhkum edirsiniz.

Erməni əsgəri ən bahalı silahı nə qədər möhkəm çaxsa da, faydası yoxdur. Çünki onun döyüşü haqq yolunda deyil. Çünki onun hərəkəti, işi-əməli vəhşilikdir, cinayətdir. Bunların əvəzində cavabı döyüş meydanında alır, məğlub olur, məhv edilir, bir çox hallarda silahını atıb qaçır. Qaçmaqla insanlığın, qanunun, vicdanın mühakiməsindən qurtula bilməyəcək. Azərbaycan xalqının qəzəb və nifrətindən can qurtarmağa gücü çatmayacaq. Allahın lənətinə gələcək gecə-gündüz günahsız insanlara qarşı təxribat törədənlər və onların əllərinə silah verib "Al, çax!" deyən alçaqlar.

***Flora SADIQLI, "Azərbaycan"***

# Ermənilərin Gəncə qətliamı səngimir



Ermənistan silahlı qüvvələri Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəni növbəti dəfə raket atəşinə tutmaqla dinc sakinləri qətlə yetirmişlər.

Oktyabrın 17-də gecə saatlarda radələrində şəhərin mərkəzi hissəsində yerləşən Cavadxan qəsəbəsinin raket atəşinə tutulması nəticəsində ilkin məlumata görə, ikisi azyaşlı olmaqla 13 nəfər həlak olmuş, 40-dan çox insan yaralanmış, 20-dən artıq mülki obyektə, nəqliyyat vasitələrinə külli miqdarda ziyan dəymişdir.

Gəncənin cəbhə xəttindən xeyli kənarda yerləşməsinə, şəhərdə heç bir strateji hərbi obyektin olmamasına baxmayaraq, Ermənistan hakimiyyəti növbəti dəfə beynəlxalq hüququn norma və prinsiplərini, habelə humanitar atəşkəs rejimini kobudcasına pozaraq qədim mədəniyyət beşiyi olan Gəncəni raket atəşinə tutdu. Bu, bir daha Ermənistanın faşist rejiminin mahiyyətini açıb göstərir, Paşinyan rejiminin nə qədər qəddar olduğunu sübut edir.

Gecə saatlarında - dinc insanların evlərində yatdığı bir vaxtda məqsədyönlü şəkildə raket zərbələrinin endirilməsinə terrorizmdən savayı ad vermək mümkün deyil. Əhali arasında çaşqınlıq və qorxu yaratmaq məqsədi daşıyan və insanlğa sığmayan bu vandalizmə isə hələ də bəzi dünya ölkələri susurlar. Amma ermənilər başa düşməlidirlər ki, bu cinayətə Azərbaycan xalqı və Azərbaycan Ordusu susmayacaq. Gəncədə və digər yaşayış məntəqələrimizdə tökülən haqsız qanın qisası döyüş meydanlarında bundan sonra da qətiyyətlə alınacaq. Xalqımız Ali Baş Komandanın ətrafında sıx birləşməklə və Azərbaycan Ordusuna dəstək olmaqla işğalçıların son nəfərinədək Qarabağdan qovulacağı günü yaxınlaşdırır və onun bu əzmini hansısa terrorla, vəhşiliklə qırmaq mümkün deyil.

Prezident İlham Əliyevin baş verən hadisələrlə əlaqədar xalqa son müraciəti insanlardakı bu ruh yüksəkliyini daha da artırıb. Gəncəlilər Füzuli şəhərinin işğaldan azad olunmasını Gəncənin qisasının alınması kimi qəbul edir və dəyərləndirirlər.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

# Müdafiə Nazirliyi xəbər verir








Ermənistan silahlı qüvvələri gecə saatlarında Gəncə və Mingəçevir şəhərlərini raket atəşinə tutmaqla dinc sakinləri və mülki infrastrukturu məqsədli şəkildə hədəfə aldığını növbəti dəfə nümayiş etdirdi. Bunu AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəisi polkovnik Vaqif Dərgahlı deyib.

"Eyni zamanda, qarşı tərəf guya Ermənistan səmasında Azərbaycana məxsus 2 ədəd pilotsuz uçuş aparatının (PUA)nın vurulması barədə də yalan məlumat yayıb. Bu xəbərin də heç bir əsası yoxdur",- deyə V.Dərgahlı əlavə edib.

* * *

Oktyabrın 16-sı gün ərzində və 17-nə keçən gecə cəbhənin Ağdərə-Ağdam və Füzuli-Hadrut-Cəbrayıl istiqamətlərində əməliyyat şəraiti gərgin olaraq qalıb. Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, qoşunlarımız düşmənin əvvəlcədən hazırlanmış müdafiə hədlərini müxtəlif istiqamətlərdə yarmağa, onu tutduğu mövqelərdən sıxışdıraraq çıxarmağa, qaçmağa məcbur etməyə və irəliləməyə nail olub. Aparılan uğurlu hərbi əməliyyatlar nəticəsində döyüş təcrübəsi qazanan şəxsi heyətimiz əhəmiyyətli istiqamətlərdə əlverişli hədd, yüksəklik və mövqeləri tutur.

Azərbaycan Ordusu tərəfindən sutka ərzində həyata keçirilən fəaliyyətlər nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 7 ədəd T-72 tankı, 2 ədəd BM-21 "Qrad" YARS, 8 ədəd D-30 və 1 ədəd D-20 haubitsa topları, döyüş sursatı ilə yüklənmiş 10 ədəd yük maşını və 7 ədəd digər avtomobil texnikası məhv edilib və sıradan çıxarılıb.

Əldə olunan məlumata əsasən döyüş əməliyyatları nəticəsində Ermənistan silahlı qüvvələrinin 5-ci dağatıcı alayının 1-ci taboru öz mövqelərini ataraq geri çəkilib, xeyli sayda ölən və yaralanan var.

Ermənistan silahlı qüvvələrinin 1-ci motoatıcı alayının müdafiə zolağında ehtiyatdan çağırılmış 300 nəfərədək hərbi vəzifəli döyüş mövqelərini özbaşına tərk edərək geri çəkilib. Hərbi vəzifəlilərin də arasında çoxlu sayda ölən və yaralanan var. Gücləndirmə məqsədilə alaya təhkim edilmiş xüsusi təyinatlı polis dəstəsinin üzvləri də döyüş mövqelərini tərk edərək qaçıb. Alayın bölmələrində ərzaq və döyüş sursatının çatışmazlığı müşahidə edilir.

Düşmən bölmələrində şəxsi heyətin yorğun və ümidsiz olması səbəbindən zabitlərə tabe olmama, həmçinin qorxu və təşvişə düşərək döyüşə girməkdən imtina etmə halları qeydə alınıb.

Qoşunlarımız bütün cəbhəboyu düşmənə dəqiq atəşlə zərər vurmaqla əməliyyat üstünlüyünü saxlayır.

* * *

Füzuli-Cəbrayıl istiqamətində gedən döyüşlər zamanı son iki gündə Ermənistan silahlı qüvvələrinə məxsus 3 ədəd "Tor-M2KM" zenit-raket kompleksi dəqiq zərbə ilə məhv edilib.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

* * *

Çirkin, məkrli və qorxaq xislətinə uyğun olaraq döyüş meydanında acizliyini başa düşəndə dinc əhalini atəşə tutan Ermənistan silahlı qüvvələri Azərbaycan Ordusundan daha bir sarsıdıcı zərbə alıb. Qəhrəman Azərbaycan Ordusu düşmənin xaincəsinə yaşayış məntəqələrimizi atəşə tutması nəticəsində həlak olan şəhidlərimizin qisasını məhz döyüş meydanında alır.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi və hərbi texnikası rəşadətli Azərbaycan Ordusunun bölmələri tərəfindən məhv edilib.

* * *

Oktyabrın 17-si gündüz saatlarında Ermənistan silahlı qüvvələrinin bölmələri taktiki pilotsuz uçuş aparatı (PUA) vasitəsilə Ermənistan-Azərbaycan dövlət sərhədinin Tovuz rayonu istiqamətindəki mövqelərimiz üzərində uçuşlar keçirməyə cəhd göstərib.

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, düşmənin növbəti PUA-sı Hava Hücumundan Müdafiə bölmələrimiz tərəfindən dərhal aşkar olunaraq məhv edilib.

* * *

Oktyabrın 17-də saat 11:11 radələrində Cəbrayıl rayonu istiqamətində bölmələrimizin mövqelərinə hava zərbələri endirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinə məxsus bir ədəd Su-25 təyyarəsi Hava Hücumundan Müdafiə bölmələrimizin dəqiq atəşi ilə məhv edilib. Bu barədə AZƏRTAC-a Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

# Xaricdə yaşayan soydaşlarımız Gəncədə törədilən terror aktlarına etiraz ediblər







Qardaş Türkiyə Respublikasının İzmir şəhərində yaşayan soydaşlarımız Ermənistan silahlı qüvvələrinin Azərbaycanın ikinci böyük şəhəri olan Gəncəni yenidən raket atəşinə tutması, mülki şəxslərin, günahsız insanların və azyaşlıların həlak olmasına kəskin etiraz əlaməti olaraq aksiya keçiriblər.

AZƏRTAC xəbər verir ki, İzmirdə fəaliyyət göstərən "Can Azərbaycan" platforması adı altında birləşən 50-yə yaxın qeyri-hökumət təşkilatının birgə təşkilatçılığı ilə keçirilən tədbir Fransa Respublikası konsulluğunun qarşısında baş tutub.

Aksiyada "İşğalçı dövləti dəstəkləməyin!", "Ermənistan terrorçu dövlətdir!", "Azərbaycan ədalət tələb edir!", "Mülki insanlar toxunulmazdır!" "İşğal beynəlxalq sülhə təhlükədir!", "Uşaq ölümünə son qoyun!" kimi şüarlar səsləndirərək ermənilərin ölkəmizə qarşı apardığı işğalçılıq siyasəti ilə bağlı faktları diqqətə çatdırıb, münaqişənin nizamlanmasında Minsk qrupunun həmsədri kimi Fransanı ədalətli mövqe nümayiş etdirməyə çağırıblar.

Qeyd edilib ki, humanitar atəşkəs rejimini kobud şəkildə pozan Ermənistan ordusu 2020-ci il 11 oktyabr və 17 oktyabr tarixlərində gecə saatlarında Azərbaycanın cəbhə zonasından kənarda yerləşən, ikinci böyük şəhəri olan Gəncəni raket atəşinə tutub. İşğalçı Ermənistan ordusunun raket zərbələri nəticəsində Gəncənin mərkəzi hissəsində yerləşən çoxmənzilli yaşayış binaları dağılıb, mülki obyektlərə ciddi ziyan dəyib, hər iki terror aktı nəticəsində 23 nəfər həlak olub, 83 dinc sakin ağır yaralanıb, şəhərə külli miqdarda ziyan dəyib.

* * *




ABŞ-ın İllinoys ştatında yaşayan soydaşlarımız Gəncə terrorunu pisləyən aksiya keçiriblər. Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, aksiya Çikaqo şəhərində keçirilib və iştirakçılar Ermənistan silahlı qüvvələrinin dinc əhalini hədəf almasını, ölkəmizin müxtəlif şəhər və rayonlarında onlarla günahsız insanın qətlə yetirilməsini, mülki obyektlərin dağıdılmasını kəskin şəkildə pisləyiblər. Aksiya iştirakçıları cəbhə bölgəsindən uzaqda yerləşən Gəncə şəhərinin gecə saatlarında ağır artilleriya atəşinə tutulmasını erməni vandalizminin bariz nümunəsi olduğunu qeyd ediblər.

Bildirilib ki, Azərbaycanın Gəncə və Mingəçevir şəhərlərinin, Tərtər, Goranboy, Bərdə, Yevlax, Ağdam, Ağcabədi və digər rayonlarının ağır artilleriya atəşinə tutulması Ermənistanın Azərbaycana qarşı apardığı təcavüzkar siyasətin göstəricisidir. Aksiya iştirakçıları mülki əhaliyə qarşı törədilən cinayətləri pisləyərək beynəlxalq ictimaiyyəti erməni vəhşiliyini qınamağa və ərazi bütövlüyünün bərpası istiqamətində apardığı haqlı mübarizədə Azərbaycanı dəstəkləməyə səsləyiblər.

Aksiyada Azərbaycan Respublikasının Dövlət himni ilə yanaşı, İstiqlal marşı oxunub, müxtəlif dillərdə "Qarabağ Azərbaycandır!", "Gəncə cəbhə zonası deyil!", "Erməni terroruna son!", "Uşaqları öldürməyin!", "Mülki şəxsləri öldürməyin", "Biz terrora yox deyirik", "İşğalçı dövləti dəstəkləməyin!", "Biz ədalət istəyirik!" kimi şüarlar səsləndirilib.

Aksiya iştirakçıları sonda erməni konsulluğunun binasının önünə gedərək etirazlarını bildiriblər.

* * *

Almaniya Azərbaycanlıları Alyansının təşkilatçılığı ilə Berlin şəhərində Ermənistan silahlı qüvvələrinin Gəncəyə növbəti raket zərbələri endirməsi nəticəsində mülki şəxslərin, azyaşlı uşaqların həlak olmasına, mülki obyektlərə ciddi ziyan dəyməsinə etiraz olaraq 10 mindən çox soydaşımızın iştirakı ilə aksiya təşkil edilib.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, aksiya iştirakçıları Pariser Platz meydanından Brandenburq qapılarına yürüş ediblər.

Çıxış edənlər işğalçı Ermənistanın Azərbaycanın Gəncə və Mingəçevir şəhərlərində, o cümlədən müxtəlif rayonlarda dinc əhaliyə hədəflənmiş terror aktını insanlıq əleyhinə yönələn müharibə cinayəti kimi qiymətləndiriblər. Aksiyada dünya ictimaiyyətindən Ermənistanın dinc əhaliyə qarşı törətdiyi vandalizm aktlarına biganə qalmamaları və təcavüzkar dövlətin törətdiyi terror və soyqırımı aktlarına görə cəzalandırılmaları tələb edilib.

İştirakçılar müxtəlif dillərdə "Qarabağ Azərbaycandır!", "Azərbaycan sülh istəyir!", "Gəncə cəbhə bölgəsi deyil!", "Mülki insanlar toxunulmazdır!", "Biz terrora yox deyirik!", "Erməni terrorçuluğuna son qoyun!", "Uşaq ölümünə son qoyun!" kimi şüarlar səsləndiriblər.

Aksiyaya Bakıdan qoşulan Diasporla İş üzrə Dövlət Komitəsinin sədri Fuad Muradov iştirakçılara Ali Baş Komandanın salamlarını çatdırıb.

Fransa, İtaliya, İrlandiya və bir sıra başqa ölkələrin bayraqlarının dalğalandığı tədbirdə bu ölkədəki Azərbaycan icması ilə yanaşı, türk, Ukrayna, yəhudi icmalarının nümayəndələri və digərləri iştirak ediblər.

# *Mövlud ÇAVUŞOĞLU:* Ermənistanın törətdiyi vəhşiliyə səssiz qalmaq bu cinayətlərə şərik olmaq deməkdir


Tweet

Mevlüt Çavuşoğlu @MevlutCavusoglu

Ermenistan savaş suçu işlemeye, sivilleri katletmeye devam ediyor. Çoluk çocuk demeden masum insanları öldürüyor.Bu vahşete sessiz kalmak, bu cinayetlere ortak olmak demektir. İnsanlıktan nasibini almayanlar işledikleri suçun hesabını verecek. Can #Azerbaycan'ın daima yanındayız.

09:27 · 17.10.20 · Twitter for iPhone

"Ermənistan müharibə cinayətləri törətməkdə, dinc əhalini qətlə yetirməkdə davam edir".

AZƏRTAC xəbər verir ki, bu sözləri Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu rəsmi "Twitter" hesabında bildirib.

"Uşaq-böyük demədən günahsız insanları öldürürlər. Bu vəhşiliyə səssiz qalmaq bu cinayətlərə şərik olmaq deməkdir. İnsan olmağı bacarmayanlar törətdikləri cinayətin hesabını verəcəklər. Can Azərbaycanın daim yanındayıq", - deyə nazir qeyd edib.

# Avropa İttifaqı Gəncə şəhərinə mülki insanların həlak olması və yaralanması ilə nəticələnmiş hücumu pisləyib

Avropa İttifaqı oktyabrın 17-də gecə Azərbaycanın Gəncə şəhərinə həyata keçirilmiş, mülki insanların həlak olması və yaralanması ilə nəticələnmiş hücumu pisləyib. AZƏRTAC xəbər verir ki, Avropa İttifaqının bununla bağlı açıqlamasında hər hansı tərəfin mülki şəxslərin və obyektlərin hədəfə alınmasına son qoymalı olduğu bildirilir.

Qeyd olunur ki, oktyabrın 10-da əldə edilmiş atəşkəs razılaşmasına hörmət edilməlidir.

# Azərbaycanın Rusiyadakı səfirliyi RF XİN-ə etiraz notası göndərib

Rusiya Federasiyası Federal Məclisinin Dövlət Dumasının deputatı Vitali Milonov Azərbaycanın beynəlxalq miqyasda tanınmış sərhədlərini pozmaqla Azərbaycanın işğal edilmiş ərazilərinə qanunsuz səfər edib. Bununla əlaqədar Azərbaycanın Rusiyadakı səfirliyi RF Xarici İşlər Nazirliyinə etiraz notası göndərib.

Səfirliyin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, notada qeyd edilir ki, 2020-ci il oktyabrın 16-da Vitali Milonov separatçı rejimin qondarma başçısı ilə görüş keçirib və Azərbaycanın Dağlıq Qarabağ regionunda onsuz da gərgin olan vəziyyətin daha da kəskinləşməsinə yönəlmiş bir sıra təhrikçi bəyanatlarla çıxış edib.

Notada daha sonra göstərilir ki, RF Dövlət Duması deputatının bu cür təxribatçı hərəkətləri Rusiya-Azərbaycan münasibətlərinin pisləşməsinə yönəlib və həm Azərbaycan ictimaiyyətinin, həm də Rusiyadakı çoxsaylı diasporun haqlı hiddətinə səbəb olub.

# Azərbaycan və Ermənistan müvəqqəti humanitar atəşkəsə razılıq verib

Azərbaycan Respublikası və Ermənistan Respublikası oktyabrın 18-i yerli vaxtla saat 00:00-dan etibarən müvəqqəti humanitar atəşkəsə razılıq verib. Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildiriblər ki, bu qərar ATƏT-in Minsk qrupunun həmsədr ölkələrini təmsil edən Amerika Birləşmiş Ştatları, Fransa Respublikası və Rusiya Federasiyasının prezidentlərinin 2020-ci il 1 oktyabr, ATƏT-in Minsk qrupunun həmsədrlərinin 5 oktyabr tarixli bəyanatlarına əsasən və 2020-ci ilin 10 oktyabr tarixli Moskva bəyanatına uyğun olaraq qəbul edilib.

# AHİK Ermənistanın Gəncəyə hərbi təcavüzü ilə bağlı beynəlxalq təşkilatlara müraciət ünvanlayıb

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası erməni terrorçularının Gəncəyə növbəti hücumu ilə bağlı beynəlxalq təşkilatlara müraciət ünvanlayıb. AZƏRTAC müraciəti təqdim edir.

"2020-ci il 17 oktyabr gecə saat 01 radələrində Ermənistanın növbəti dəfə Azərbaycanın ikinci ən böyük şəhəri olan, münaqişə zonasından 80 kilometr aralıda yerləşən Gəncəyə, mülki əhalinin sıx yaşadığı əraziyə "SCUD"(Elbrus) tipli ballistik raketlə hücum etməsi nəticəsində 13 nəfər ölüb, 50-dən çox insan yaralanıb. Ölən və yaralananlar arasında azyaşlı uşaqlar, qadınlar və yaşlılar da var.

Son iki həftə ərzində üçüncü dəfədir ki, Gəncə şəhəri Ermənistan tərəfindən şiddətli raket hücumuna məruz qalır. Nəzərinizə çatdıraq ki, indiyə kimi bu hücumlar nəticəsində Gəncədə 27 mülki şəxs həlak olub, 100-dən çox insan yaralanıb.

Ermənistan hərbi və siyasi rəhbərliyinin qəsdən və məqsədyönlü şəkildə münaqişə zonasından çox uzaqda yerləşən, 500 minlik əhalisi olan Gəncə şəhərini bombalaması, böyük dağıdıcı gücə malik "SCUD" (Elbrus) kimi raketlərdən istifadə edərək günahsız dinc əhalini hədəfə alaraq öldürməsi XXI əsrin tarixində insanlıq əleyhinə törədilmiş ən qanlı müharibə cinayəti kimi yer alacaq.

Ermənistanın bütün dünyanın gözü önündə törətdiyi bu vəhşilik, barbarlıq, terror aktı Azərbaycan ictimaiyyətini və eləcə də işçilərin hüquqlarını müdafiə edən bir təşkilat kimi bizi - Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasını dərindən narahat edir. Bizi narahat edən təkcə bu deyildir, bizi ciddi şəkildə məyus edən, dünyada təcavüzkarı durdurmağa və cəzalandırmağa borclu olan, dünya birliyi tərəfindən məhz bunun üçün yaradılan BMT-nin Təhlükəsizlik Şurasının Gəncədə yaşanan insanlıq dramına, törədilən soyqırımına və müharibə cinayətlərinə hələ də səssiz qalmasıdır.

BMT-nin nizamnaməsinə, beynəlxalq hüquqa və beynəlxalq humanitar hüquqa görə ən azından bu əmri verən Ermənistanın siyasi və hərbi rəhbərliyi - Paşinyan və Tonoyan, əmri icra edən digər hərbiçilər hərbi cani elan olunmalı və onların dərhal tutularaq müvafiq qaydada cəzalandırılmaları üçün BMT Təhlükəsizlik Şurasının prosedurları işə düşməlidir.

BMT Təhlükəsizlik Şurası Ermənistanın törətdiyi cinayətə bu dəfə də səssiz qalarsa, həmin qurumun təcavüzkar, mülki əhalinin qatili olan Ermənistan hərbi rəhbərliyinin tam müdafiəsi və törədilən beynəlxalq cinayətlərə haqq qazandırılması, bu cinayətlərə şərik olmaları anlamına gələcəkdir. Tarix isə bunu heç vaxt və heç kimə bağışlamayacaq!

Ona görə də biz Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının 1,5 milyon üzvü adından BMT Təhlükəsizlik Şurasından təcili toplanaraq, ilk növbədə, Ermənistanın insanlıq əleyhinə törətdiyi cinayəti qəti şəkildə pisləməsini, sahib olduğu mandatdan istifadə edərək Gəncənin bombalanması əmrini verən, çoxlu sayda mülki əhalinin ölümünə səbəb olan təcavüzkar Ermənistanın baş naziri Nikol Paşinyanın və müdafiə naziri David Tonoyanın sərt şəkildə cəzalandırılması üçün müvafiq addımlar atılmasını tələb edirik".

# Latviya Seyminin deputatı Gəncənin raket atəşinə tutulmasını pisləyib

Ermənistan hərbi qüvvələrinin Azərbaycanın Gəncə şəhərini raket atəşinə tutması dünya ictimaiyyətini narahat edir və ölkəmizin dostlarının hiddətinə səbəb olur. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Latviya Respublikası Seyminin Azərbaycanla əməkdaşlıq üzrə dostluq qrupunun sədri Romans Naudinş Milli Məclisin Latviya ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvlərinə məktub ünvanlayıb. Həmin məktubda Gəncə şəhərinin raket atəşinə tutulması, beynəlxalq hüququn kobud şəkildə pozulması və terror aktı qəti şəkildə pislənilir.

Qeyd edilir ki, dünya birliyi və beynəlxalq təşkilatlar dinc əhaliyə qarşı yönəlmiş bu cür zorakılığı qınamalıdır. Bu akt atəşkəs haqqında əldə edilmiş razılaşmadan sonra baş verib. Buna görə də bu hadisə ilə bağlı beynəlxalq səviyyədə istintaq tədbirləri aparılmalı və buna cavabdeh olan, yaşayış məntəqələrinin atəşə tutulması barədə əmr verən şəxslər müəyyən edilməlidir.

# İspaniyanın Respublikaçı Aviatorlar Assosiasiyası Ermənistanın Azərbaycana qarşı təcavüz aktını qətiyyətlə qınayır

İspaniyanın Respublikaçı Aviatorlar Assosiasiyasından (Asociacion de Aviadores de la Republica - ADAR) Azərbaycanın İspaniyadakı səfirliyinə daxil olmuş məktubda Ermənistan silahlı qüvvələrinin ölkəmizə qarşı təcavüzkar siyasəti qətiyyətlə qınanılır, öz ərazi bütövlüyünü bərpa etmək uğrunda apardığı haqlı mübarizədə Azərbaycana dəstək ifadə olunur. AZƏRTAC xəbər verir ki, Respublikaçı Aviatorlar Assosiasiyasının sədri Akilino Mata İspaniyada vətəndaş müharibəsi zamanı (1936-1939) Gəncə (həmin zaman Kirovabad) şəhərində yerləşən təlim mərkəzində təhsil almış ispan pilotların ailə üzvlərindən ibarət heyətlə birlikdə 2016-cı ildə Gəncə şəhərinə səfərlərini xoş təəssüratlarla xatırlayaraq İkinci Dünya müharibəsi illərində Bakının müdafiəsində iştirak edən ispan aviatorlar, onların yaxınları üçün Azərbaycanın, xüsusilə Gəncənin xüsusi əhəmiyyətə malik olduğunu qeyd edir.

Məktubda Respublikaçı Aviatorlar Assosiasiyasının, ispan pilotların ailə üzvlərinin və yaxınlarının Ermənistan silahlı qüvvələrinin cəbhə bölgəsindən kənarda yerləşən Gəncə şəhərini raket atəşinə tutmasından dərin sarsıntı keçirdiyi, bu təcavüz əməlinin qəbuledilməz olduğu vurğulanır.

"Ermənistanın növbəti hərbi təxribatı zamanı həlak olmuş mülki şəxslərin xatirəsini ehtiramla anırıq, münaqişənin tezliklə və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsinə dəstəyimizi ifadə edirik", - deyə məktubda bildirilir.

# Beynəlxalq ictimaiyyət Azərbaycanın ədalətli mübarizəsini müdafiə edir



Almaniya Bundestaqının Xarici siyasət komitəsinin üzvü, hakim Xristian-Demokrat/Xristian-Sosialist İttifaqı (CDU/CSU) fraksiyasının Şərq Tərəfdaşlığı üzrə məruzəçisi Nikolas Löbel "100 ildən çox davam edən münaqişə" sərlövhəli məqaləsi dərc olunub.

AZƏRTAC xəbər verir ki, yazıda münaqişənin Sovet İttifaqının dağılmasının məhsulu olduğu, regionda müsəlman və xristianlar arasında dini gərginliyinin nəticəsi olmadığı, onun tarixi köklərinin 100 il əvvəl burjua inqilabına gedib çıxdığı bildirilir. Qeyd olunur ki, Sovet İttifaqının dağılması ilə müstəqillik əldə edən Ermənistan və Azərbaycan 1992-1994-cü illərdə Dağlıq Qarabağ uğrunda müharibə aparıb. Münaqişə nəticəsində Azərbaycan Dağlıq Qarabağ bölgəsi və ətraf 7 rayonu Ermənistan tərəfindən işğal edilib. BMT Təhlükəsizlik Şurasının və Baş Assambleyasının məlum qətnamələri təsdiq edir ki, bu ərazi beynəlxalq hüquqla Azərbaycana məxsusdur və Ermənistan tərəfindən işğal olunub.

Bildirilib ki, 1994-cü ildə atəşkəsdən sonra ATƏT-in Minsk qrupu tərəfindən sülh danışıqları həyata keçirilir. Münaqişənin sülh yolu ilə həlli üçün Madrid prinsipləri adlanan baza prinsipləri hazırlanıb və münaqişə tərəfləri ilə razılaşdırılıb. Amma bu prinsiplər həyata keçirilməyib. Bu sənədə əsasən, münaqişənin həlli Ermənistan silahlı qüvvələri Dağlıq Qarabağdan və ətraf rayonlardan çıxarılmalı, bütün rabitə, nəqliyyat və ticarət blokadaları aradan qaldırılmalı, Dağlıq Qarabağ üçün keçid statusun müəyyən edilməsi, məcburi köçkünlərin və qaçqınların geri qaytarılması, Dağlıq Qarabağın yekun statusunun hər iki əhali qrupunun iştirakı ilə və beynəlxalq nəzarət altında referendumla müəyyən edilməlidir.

Məqalədə bildirilir ki, Ermənistan indiyədək işğal altında saxladığı Dağlıq Qarabağı və ətraf əraziləri qaytarmaqdan imtina edib.

Deputat bildirir ki, Ermənistan və Azərbaycan baza prinsiplərində nəzərə tutulan addımları həyata keçirməli, qarşılıqlı etimad yaratmaq məqsədilə beynəlxalq dəstəklə bir neçə addım eyni vaxtda reallaşdırılmalıdır. Belə ki, Ermənistan Dağlıq Qarabağ ətrafındakı 7 rayondan çıxmalı, Azərbaycan isə yenidən müəyyən ediləcək təmas xəttindəki ATƏT-in sülh missiyasına razılıq verməli, Dağlıq Qarabağın erməni əhalisinin təhlükəsizliyinə zəmanət verməlidir.

❖ ❖ ❖



"Azərbaycan silahlı qüvvələri özünün suveren ərazilərində uğurlu əks-hücum əməliyyatları aparır".

AZƏRTAC xəbər verir ki, bu barədə Ukrayna Ali Radasının "Xalqa xidmət" ("Sluqa naroda") fraksiyasından olan deputatı Lyudmila Marçenko "Region Plyus" jurnalına müsahibəsində bildirib.

Ali Radanın deputatı deyib: "Azərbaycan BMT Nizamnaməsinin 51-ci maddəsində nəzərdə tutulmuş fərdi özünümüdafiə və öz ərazilərini əcnəbilərin qanunsuz hərbi iştirakından qorumaq hüququnu həyata keçirərək özünün suveren ərazilərində uğurlu əks-hücum əməliyyatları aparır".

O qeyd edib ki, münaqişənin dinc yolla nizamlanmasına dair danışıqlar artıq 25 ildən çoxdur davam edir, lakin nəticədə bircə qarış da olsa Azərbaycan torpağı azad edilməyib. "Halbuki, beynəlxalq hüquq Azərbaycanın tərəfindədir", - deyə Marçenko əlavə edib.

Ukrayna deputatının sözlərinə görə, Ermənistanın indiki rəhbərliyi münaqişənin dinc yolla nizamlanmasına dair danışıqlar prosesini mənasız edən bir sıra bəyanatlar verib və addımlar atıb. L.Marçenko deyib: "Burada istər-istəməz, iyul ayında erməni tərəfinin Tovuz istiqamətində törətdiyi təxribat yada düşür. O vaxt ermənilər tərəfindən zərbələr artıq Qarabağ istiqamətində endirilmirdi. Bu, münaqişəyə üçüncü ölkəni və həmçinin Ermənistan Respublikasının da üzv olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını da cəlb etmək cəhdi idi. Bu amillər nəzərə alınmaqla ortaya bircə sual çıxırdı: Azərbaycan və Ermənistan arasında hərbi qarşıdurmanın yeni mərhələsi nə vaxt başlanacaq? Bu sual artıq cavabını alıb".

Lyudmila Marçenkonun müsahibəsinin tam mətni ilə "Region plyus" jurnalının təmas xəttindəki vəziyyətə həsr ediləcək növbəti xüsusi buraxılışında tanış ola bilərsiniz.

❖ ❖ ❖




"Dağlıq Qarabağa dair danışıqlar prosesində Türkiyənin iştirakını istisna etmək olmaz".

AZƏRTAC xəbər verir ki, bu barədə RİA Novosti agentliyinə Rusiya Dövlət Dumasının Beynəlxalq məsələlər komitəsi sədrinin müavini Aleksey Çipa bildirib. O qeyd edib ki, Ankara artıq 1990-cı illərdə Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair danışıqların iştirakçısı olub.

❖ ❖ ❖



"Azərbaycan öz haqlı mövqeyi uğrunda mübarizə aparır. Ukrayna Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib və bundan sonra da bu mövqeni nümayiş etdirəcək".

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Ukraynanın Milli Strateji Araşdırmalar İnstitutunun sədri Aleksandr Litvinenko söyləyib.

Ukrayna ilə Azərbaycan arasında strateji tərəfdaşlıq münasibətlərinin inkişaf etdiyini deyən A.Litvinenko bildirib ki, Azərbaycan öz ərazi bütövlüyünü təmin etmək məqsədilə hərbi əməliyyatlar keçirir.

"Azərbaycanın beynəlxalq hüquq çərçivəsində ərazi bütövlüyünü təmin edəcəyinə inanıram", - deyən Aleksandr Litvinenko qeyd edib ki, Ukrayna da ərazi bütövlüyü problemi ilə üzləşib. Ölkələrimiz bu sahədə təcrübə mübadilələrini gücləndirməlidir.

❖ ❖ ❖



TÜRKPA-nın Baş katibi Altınbek Mamayusupov Ermənistanın Azərbaycana qarşı son hərbi təxribatlarını kəskin şəkildə qınayıb.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, Milli Məclis tərəfindən beynəlxalq təşkilatlara və milli parlamentlərə ünvanlanan müraciətlərə cavab olaraq TÜRKPA-nın Baş katibi Ermənistan silahlı qüvvələrinin təxribatları, işğalçı ölkənin Azərbaycanın Gəncə şəhərini və digər ərazilərini ağır artilleriya və raket atəşinə tutmasını pisləyib.

Baş katib Altınbek Mamayusupovun göndərdiyi rəsmi məktubda Ermənistanın Azərbaycanın mülki əhalisinə qarşı təxribatları, yaşayış məntəqələrini atəşə tutması və hərbi güc tətbiq etməsi bir daha kəskin şəkildə qınanıb. Baş katib bu hücum nəticəsində dinc vətəndaşların həlak olması ilə əlaqədar Azərbaycan xalqına dərin hüznlə başsağlığı verib, xəsarət alanların tezliklə sağalmasını arzulayıb.

❖ ❖ ❖



İtaliyanın "Yaşasın İtaliya" partiyasının üzvü, senator Mauro Mario Marino kütləvi informasiya vasitələrinə Ermənistan hərbi qüvvələrinin humanitar atəşkəsi pozaraq Gəncə şəhərini və oradakı mülki əhalini raket hücumuna məruz qoymasını pisləyən açıqlama verib.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, italyan senator bildirib ki, Azərbaycan hərbi hücuma məruz qalmış ölkə olmasına baxmayaraq, atəşkəslə bağlı beynəlxalq ictimaiyyətin çağırışlarını qəbul edib. Lakin Ermənistan tərəfindən atəşkəsin pozulması bu işğalçı ölkənin bir daha beynəlxalq hüquqa hörmət etmədiyini sübuta yetirir.

Senator vurğulayıb ki, İtaliya hökuməti Ermənistanın bu müharibə cinayətlərini qəti şəkildə pisləməli və ondan mülki əhalini atəşə tutmağı dayandırmasını, eləcə də BMT Təhlükəsizlik Şurasının qətnamələrinə uyğun olaraq, öz qoşunlarını Azərbaycanın işğal altındakı ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarmasını tələb etməlidir.

İndoneziya Parlamentinin Nümayəndələr Palatasının Parlamentlərarası əməkdaşlıq komitəsinin sədri Fadli Zon da bu günlərdə Azərbaycana dəstək bəyanatı ilə çıxış edib. Bəyanatda Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə dəstək ifadə olunur, Ermənistan silahlı qüvvələrinin törətdiyi hərbi təcavüz və təxribatlar pislənilir.

❖ ❖ ❖



"Azərbaycan bu mübarizədə tamamilə haqlıdır. BMT Təhlükəsizlik Şurasının erməni işğalçı qüvvələrinin Azərbaycana məxsus olan ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən qətnamələri bu günədək yerinə yetirilməyib".

Bu sözləri AZƏRTAC-a müsahibəsində ingiltərəli şair, yazıçı, dramaturq, aktyor və rejissor Devid Uilyam Perri bildirib.

Devid Perri Ermənistanın Gəncə şəhərinə raket zərbələri endirməsi ilə bağlı deyib: "Mən illər öncə Gəncəyə səfər etmişəm və mətbuatdan oraya olan hücumla bağlı xəbər oxuduğum zaman çox kədərləndim. Mülki əhalinin yaşadığı şəhərə belə bir hücum qəbuledilməzdir. Yaralanmış uşaqları, həyatını itirən insanları görmək çox kədərlidir. O, insanlar bunu yaşamamalı idilər. Mən düşünürəm ki, Prezident İlham Əliyev çox cəsur insandır və çox düzgün siyasət aparır".

❖ ❖ ❖




Bosniya və Herseqovinanın sabiq Baş Naziri, Baş Nazirin müavini və Xarici İşlər naziri, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin İdarə Heyətinin üzvü Zlatko Lagumdzija ölkəsinin nüfuzlu "Avaz" qəzetinə Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı müsahibə verib.

AZƏRTAC xəbər verir ki, Zlatko Lagumdzija müsahibəsində 30 ilə yaxın vaxt keçməsinə baxmayaraq, Ermənistanın qoşunlarını Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılması ilə bağlı BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin tələblərini qeyd-şərtsiz yerinə yetirməkdən imtina edir.

Sabiq Baş Nazir, həmçinin Xocalı soyqırımını Srebrenitsa soyqırımı ilə müqayisə edib. Bildirir ki, 1992-ci ildə Xocalıda törədilən soyqırımı zamanı 613 dinc sakin amansızlıqla qətlə yetirilib.

❖ ❖ ❖



İslam Əməkdaşlıq Təşkilatının Baş Katibliyi Ermənistan silahlı qüvvələrinin 2020-ci il oktyabrın 10-da Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında əldə olunmuş humanitar atəşkəs razılaşmasını pozması və bunun nəticəsində bir çox mülki şəxsin həlak olması və yaralanması ilə bağlı narahatlığını ifadə edib.

AZƏRTAC xəbər verir ki, təşkilatın bununla bağlı yaydığı açıqlamada deyilir: "Baş Katiblik Azərbaycan Respublikası ilə həmrəy olduğunu bir daha vurğulayır, İslam Əməkdaşlıq Təşkilatının qətnamə və qərarlarını, həmçinin BMT Təhlükəsizlik Şurasının aidiyyəti qətnamələrini xatırladaraq, iki ölkə arasında münaqişənin Azərbaycan Respublikasının suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı əsasında siyasi yolla həllinə çağırır".

İslam Əməkdaşlıq Təşkilatının Baş Katibliyi azərbaycanlı şəhidlərin ailələrinə, Azərbaycan hökumətinə və xalqına dərin hüznlə başsağlığı verib, yaralananların tezliklə sağalmalarını arzulayıb.

❖ ❖ ❖




"Humanitar atəşkəs razılaşmasına baxmayaraq, Ermənistan Azərbaycanın ikinci böyük şəhəri Gəncəni uzaqmənzilli raketlər vasitəsilə atəşə tutub".

AZƏRTAC xəbər verir ki, bu barədə Fransanın nüfuzlu beyin mərkəzi "The Globql Future College"nin saytında dərc olunmuş "Azərbaycan: münaqişənin qurbanları mülki əhalidir" sərlövhəli məqalədə bildirilib.

Qeyd olunub ki, Ermənistanın döyüşlərin getdiyi Qarabağ bölgəsindən xeyli uzaqda yerləşən Gəncə şəhərini bombardman etməsi nəticəsində 10 mülki şəxs həlak olub, 34 nəfər isə yaralanıb.

Diqqətə çatdırılıb ki, sentyabrın 27-dən başlayan döyüşlər zamanı Ermənistan tərəfi ölkəmizin Mingəçevir, Yevlax, Bərdə kimi şəhərlərinə də raket zərbələri endirib.

Ermənistan ərazisindən Azərbaycan şəhərlərinə raket hücumları edilməsinin əsas məqsədi Azərbaycanı eyni tərzdə cavab verməyə təhrik etmək, beləliklə, münaqişəyə üçüncü ölkələri cəlb etməkdir. Ermənistanın məqsədi münaqişəni beynəlmiləlləşdirməkdir.

❖ ❖ ❖



Oktyabrın 14-də ABŞ-ın paytaxtı Vaşinqton şəhərinin "Black Lives Matter" meydanında ABŞ-ın Azərbaycan icmasının üzvləri Ermənistanın Azərbaycana qarşı təcavüzünə etiraz və Azərbaycan Ordusuna dəstək aksiyası keçiriblər. Ağ Evin qarşısında yerləşən meydana ABŞ-ın müxtəlif şəhərlərindən gələn həmyerlilərimiz toplaşıblar.

Aksiya zamanı icma üzvləri Qarabağın Azərbaycan torpağı olduğunu qeyd ediblər, amerikalılara Azərbaycan həqiqətlərini çatdırıblar.

Aksiya iştirakçıları işğal altında olan torpaqların "mübahisəli" deyil, beynəlxalq səviyyədə tanınmış əzəli Azərbaycan torpaqları olduğunu qeyd ediblər.

Aksiya zamanı, həmçinin Ermənistan silahlı qüvvələrinin Gəncəyə və digər yaşayış məntəqələrinə ballistik raket zərbələri haqqında məlumat verilib. Qeyd olunub ki, nəticədə 10 mülki şəxs və onlarla insan yaralanıb.

Eyni zamanda azərbaycanlı icma üzvləri İsrail, Pakistan, Türkiyə və Ukraynanın bayraqlarını qaldıraraq bu ölkələrə Azərbaycanı dəstəkləməsinə görə təşəkkürlərini bildiriblər.

Aksiyadan sonra həmyerlilərimiz avtomobillərlə Ermənistanın ABŞ-dakı səfirliyinin qarşısında toplaşıb rəsmi Yerevana etirazlarını bildiriblər.

Sonda onlar Türkiyə Respublikasının ABŞ-dakı səfirliyinin qarşısında toplaşıblar. Türkiyə səfirliyinin nümayəndəsi həmyerlilərimizə təşəkkür edib və hər zaman yanımızda olduqlarını bildirib.

❖ ❖ ❖

Vaşinqton şəhərində - Ağ Evin qarşısında keçirilən etiraz tədbirində Ermənistan silahlı qüvvələri-



nin Azərbaycanın yaşayış məntəqələrini - Tərtər, Goranboy, Bərdə, Yevlax, Ağdam, Ağcabədi, Beyləqan, Füzuli rayonlarını, Gəncə və Mingəçevir şəhərlərini, digər əraziləri artilleriya və raket atəşinə tutması nəticəsində dinc əhali arasında tələfatın baş verməsi, mülki şəxslərin və günahsız körpələrin həlak olması, yaşayış evləri və mülki obyektlərin dağıdılması sərt şəkildə pislənib.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, soydaşlarımız hərbi əməliyyatlar bölgəsindən uzaqda yerləşən yaşayış məntəqələrini atəşə tutan Ermənistanın faşist siyasətini və təcavüzkar mahiyyətini pisləyib, beynəlxalq ictimaiyyətin diqqətini bu vandalizm aktlarına yönəldiblər. Etiraz tədbirində Azərbaycan Nyu-York Assosiasiyası, Amerika Azərbaycan Qadınlar Assosiasiyası və digər diaspora təşkilatlarını təmsil edən yüzlərlə soydaşımız iştirak edib. Etiraz tədbirinə ABŞ-dakı türk icmasından da dəstək gəlib.

❖ ❖ ❖



Azərbaycanın Fransadakı səfirliyinin və UNESCO yanında daimi nümayəndəliyinin təşkilatçılığı ilə ölkəmizin Parisdəki səfirliyinin binası qarşısında Ermənistan tərəfindən Gəncədə çoxmərtəbəli yaşayış binasına raket hücumu nəticəsində həlak olan mülki şəxslərin xatirəsinin anım mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, erməni vandalizmini dünyaya tanıtmaq məqsədilə səfirliyin binası qarşısında qərənfillər və şamlar düzülmüş stolun üzərində uşaq oyuncaqları, Ermənistanın raket hücumu nəticəsində xəsarət alan məsum körpələrin şəkilləri düzülüb.

Anım mərasimində Türkiyənin Fransadakı səfiri İsmail Hakkı Musa və bu ölkədəki türk diplomatlar da iştirak ediblər.

Azərbaycanın Fransadakı səfiri Rəhman Mustafayev Ermənistanın mülki əhalini və infrastrukturu hədəfə aldığını, ölkəmizin ikinci ən böyük şəhəri olan Gəncənin mərkəzində çoxmərtəbəli yaşayış binalarına raket hücumu etdiyini mərasim iştirakçılarının diqqətinə çatdırıb. Vurğulayıb ki, raket hücumu nəticəsində dinc sakinlər həlak olub, aralarında körpə və uşaqlar da olmaqla, çox sayda insan yaralanıb. Diplomat qeyd edib ki, Ermənistan rəhbərliyi mülki əhalini hədəfə almaqla öz riyakarlığını bir daha aydın göstərdi.

Parisdə yaşayan 8 yaşlı Teyyubə İsmayıl sevimli oyuncaqlarını Gəncədə xəsarət alan uşaqlara hədiyyə üçün masanın üzərinə qoyub.

Gün ərzində Fransadakı diasporumuzun üzvləri, eləcə də Azərbaycanı sevən fransızlar Gəncə qurbanlarının xatirəsinə ehtiram olaraq anım guşəsinə gül-çiçək dəstələri düzüblər.

❖ ❖ ❖



Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımız Fransanın Ermənistan-Azərbaycan münaqişəsi ilə bağlı qərəzli yanaşmasına etiraz olaraq bəyanat qəbul ediblər.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, bəyanatda sentyabrın 30-da Fransa Prezidenti Emmanuel Makronun Latviyanın paytaxtı Riqada Ermənistan-Azərbaycan münaqişəsi və cəbhədə baş verənlərə toxunaraq həqiqətə uyğun olmayan qeyri-ciddi açıqlamalar verdiyi qeyd edilib. Diqqətə çatdırılıb ki, Fransa kimi dövlətin prezidenti saxta məlumatlar və şayiələr əsasında, heç bir dəlil-sübut olmadan Azərbaycana qarşı böhtan atıb. Bu açıqlamalar dünyada yaşayan bütün azərbaycanlıların kəskin etirazına səbəb olub. Bu, bir daha göstərir ki, Fransa ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi kimi tərəfsizliyini qoruya bilmir.

Vurğulanır ki, vasitəçi tərəfsiz və ədalətli olmalıdır. Fransa təcavüzkar Ermənistan ilə işğala məruz qalmış Azərbaycan arasında fərq qoymur və qərəzli surətdə işğalçını müdafiə edir.

Bəyanatda xatırladılır ki, Fransa 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılmasını tələb edən məlum dörd qətnaməsinin lehinə səs verən ölkədir.

Həmçinin müraciətdə Azərbaycanın haqlı olduğu bildirilib, dünya dövlətlərinə və beynəlxalq təşkilatlara ədalətli yanaşma çağırışı edilib.

Qeyd edək ki, bəyanatı Azərbaycan, Türkiyə, İsrail, Rusiya, Qırğızıstan, Qazaxıstan və digər ölkələrdə yaşayan azərbaycanlılar, eləcə də dost xalqların nümayəndələri də daxil olmaqla, ümumilikdə 44 nəfər imzalayıb.

❖ ❖ ❖



Avstraliya Azerbaycanlı Association Inc

Michael Oyta
Your NSW Fair Trading file number is 10378801. Please quote this file number when dealing with us regarding this enquiry.

Details of general enquiry:
Enquiry Description
It has come to our attention that Homenetmen Ararat, and Hamazkaine Armenian Educational and Cultural Society of Australia are raising funds to support terrorism overseas. They claimed to have raised $119,000 in their Facebook post to "help our Banag". Banag is the Armenian term for Army. The funds are said to be for "Artsakh", the name the Armenians call Nagorno-Karabakh, which is the lawful territory of Azerbaijan. There is currently a war occurring Nagorno-Karabakh between Azerbaijan military and Armenian mercenaries backed by Syrian fighters and registered terrorist organisation PKK as reported in multiple media outlets. The funds are to support a non-government foreign combatant who aspire to occupy territory of Azerbaijan contrary to UN Resolutions 822, 853, 874. The collection of these funds are being raised for non-charitable purposes and to support a foreign non state combatant who has engaged in and continues to engage in violence against civilian populations of Azerbaijan.

Australian Azerbaijanian Association Inc
Michael Oyta

Avstraliyada yaşayan soydaşlarımız bu ölkənin təhlükəsizlik orqanlarına müraciət ediblər. Azərbaycan-Avstraliya Assosiasiyasının (AAA) prezidenti Mikayıl Oytanın imzası ilə bu ölkənin təhlükəsizlik orqanlarına ünvanlanan məktubda erməni lobbisinin Azərbaycanın işğal olunmuş ərazilərində terrorçu qüvvələri maliyyəşdirməsindən bəhs olunub.

Diasporla İş üzrə Dövlət Komitəsindən AZƏRTAC-a bildiriblər ki, məktubda "Homenetmen Ararat" və "Hamazkaine" Təhsil və Mədəniyyət cəmiyyətlərinin terrorizmi dəstəkləmək üçün vəsait topladığı qeyd edilib. Vurğulanıb ki, onlar "Facebook" səhifələrində "Banağımıza (ordumuza) kömək edək" şüarı ilə paylaşımlarında 119 min dollar topladıqlarını iddia edirlər. Vəsaitin Azərbaycanın qanuni ərazisi olan Dağlıq Qarabağ üçün toplanıldığı bildirilir.

Dağlıq Qarabağda Ermənistan və Azərbaycan arasında müharibə getdiyi, suriyalı döyüşçülərin və PKK terror təşkilatının üzvlərinin erməni muzdluları ilə birlikdə Azərbaycana qarşı döyüşdükləri diqqətə çatdırılır.

Məktubun müəllifi qeyd edib ki, erməni lobbisinin topladığı vəsait məhz BMT-nin 4 qətnaməsinə zidd olaraq Azərbaycan ərazilərini indiyədək işğal altında saxlayan Ermənistanın müharibəyə cəlb etdiyi xarici terrorçuları dəstəkləmək üçündür. "Toplanan bu vəsait xeyriyyə məqsədləri üçün deyil, Azərbaycanın mülki əhalisinə qarşı təcavüz və terror aktları törədən qanunsuz hərbi birləşmələrin dəstəklənməsinə sərf olunacaq", - deyə müəllif bildirir.

Soydaşımız təhlükəsizlik orqanlarını bu faktların yoxlanılmasına, terrorçu dəstələrin uzaq və sülhpərvər Avstraliyadan maliyyələşməsinin qarşısını almağa çağırıb.

❖ ❖ ❖



Azərbaycanın İrandakı səfiri Bünyad Hüseynov İranın ingilisdilli "AVA Diplomatic" saytına müsahibə verib.

AZƏRTAC xəbər verir ki, səfir Azərbaycan Ordusunun əks-hücum əməliyyatına toxunub. Qeyd olunub ki, Sovet İttifaqının süqutu zamanı Ermənistanın əhalisi 3,6 milyon nəfər idi. Mən də daxil olmaqla Ermənistanda yaşayan 230 min azərbaycanlı qaçqın düşdük. Müharibənin başlanması və Ermənistan hakimiyyətinin işğalçı siyasəti ölkəni dalana salıb. Ermənistan iqtisadiyyatının vəziyyəti göz qabağındadır. Regiondakı bütün mühüm iqtisadi layihələr Ermənistandan yan keçir. İşğalçılıq siyasətinin qurbanı olan erməni xalqı başqa ölkələrə mühacirət etmək məcburiyyətində qalıb. Yerevan indi Livan, Suriya və ya İraqdan olan ermənilərin Ermənistana köç etmələrini istəyir. Bununla da yeni müharibə cinayəti törədir.

Sovet İttifaqının süqutu zamanı Azərbaycan əhalisi 6,5 milyon nəfər idi, indi isə on milyon nəfərdən artıqdır. Yəni biz əhalisinin əksəriyyəti gənc və ali təhsilli olan bir ölkəyik, ölkəmizə haradansa kimisə gətirməyə ehtiyacımız yoxdur. Təkcə Azərbaycan Ordusunun yüz minə yaxın şəxsi heyəti var. Azərbaycan Ordusunun zabit və əsgərləri kifayət qədər təcrübəyə, texnika və imkanlara malikdirlər. Keçirilmiş hərbi təlimlər Azərbaycan Ordusunun təcrübəsini, gücünü və bacarığını artırıb.

Azərbaycan-Rusiya əlaqələrinə toxunan diplomat bildirib ki, ölkələrimiz arasında yaxşı və mehriban münasibətlər var. Ötən il Azərbaycan və Rusiya prezidentləri altı dəfə görüşüblər. Rusiyada iki milyona yaxın azərbaycanlı yaşayır. Ölkələrimiz arasında müxtəlif sahələrdə qarşılıqlı faydalı əməkdaşlıq mövcuddur. Hətta dövlətimizin başçısının təşəbbüsü ilə Azərbaycan, Rusiya və İran prezidentlərinin görüşü keçirilib və bu görüşlər davam edir. Bu çərçivədəki əməkdaşlıq çox vacibdir və Şimal-Cənub dəhlizinin ən qısa müddətdə təkmilləşdirilməsinə kömək edir. İran, Azərbaycan və Rusiyanın elektrik şəbəkələri tezliklə sinxron rejimdə çalışacaq. Belə üçtərəfli əməkdaşlıq regionda sülh, sabitlik, təhlükəsizlik və dayanıqlı inkişafın yaradılması üçün çox vacibdir.

Rusiya Prezidentinin dəvəti, eləcə də onun Azərbaycan Prezidenti və Ermənistanın baş naziri ilə apardığı koordinasiyaya uyğun olaraq, Rusiya, Azərbaycan və Ermənistan Xarici İşlər nazirləri Moskvada görüşdülər. Bir neçə saat davam edən bu görüşün nəticəsi olaraq dörd bənddən ibarət birgə bəyanat qəbul edildi. Həmin bəyanatın birinci və ikinci bəndləri ümumi fikirlərdir.

Bilirsiniz ki, Ermənistanın baş naziri münaqişənin həlli ilə bağlı baza prinsiplərindən və həmçinin sülhün əldə olunması üçün substantiv danışıqlardan imtina etmişdi. Birgə bəyanatın üçüncü bəndində Ermənistan pozucu mövqeyindən geri çəkilmiş və baza prinsipləri əsasında münaqişənin həllini, həmçinin sülhün əldə olunması üçün substantiv danışıqlar aparılmasını qəbul edib.

Yəqin ki, Ermənistan baş nazirinin separatçı və işğalçı Dağlıq Qarabağ rejiminin nümayəndələrinin də danışıqlarda tərəf kimi iştirak etməsində israr etdiyindən xəbərdarsınız. Sözügedən bəyanatın 4-cü bəndinə əsasən, Ermənistan danışıqların formatının dəyişilməzliyini qəbul edib.

Müsahibədə Azərbaycanın Rusiya, Türkiyə və İran ilə münasibətlərinə də toxunulub. Qeyd olunub ki, Azərbaycanın haqlı və beynəlxalq qanunlara uyğun mövqeyi bu dövlətlər tərəfindən dəstəklənib.

❖ ❖ ❖



Azərbaycan Respublikasının Qətər Dövlətindəki səfiri Rəşad İsmayılov bu ölkənin Məşvərət Şurasının (Parlament) Qətər-Asiya Dostluq Qrupunun rəhbəri Raşid bin Həməd Əl-Meadhadi ilə görüşüb.

Ölkəmizin Qətərdəki səfirliyindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan-Qətər əlaqələri və bu münasibətlərin inkişafında parlamentlərarası əməkdaşlığın rolu barədə fikir mübadiləsi aparılıb.

Səfir R.İsmayılov Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və ərazilərimizin işğalı barədə dostluq qrupunun rəhbərini məlumatlandırıb, münaqişənin tarixi və hüquqi aspektləri barədə ətraflı danışıb. Həmçinin Ermənistanın sentyabrın 27-dən bəri mülki əhaliyə qarşı törətdiyi terror əməlləri barədə geniş faktlar və fotomateriallar qarşı tərəfin diqqətinə çatdırılıb.

Dostluq qrupunun rəhbəri R.Əl-Meadhadi öz növbəsində ölkəsinin beynəlxalq hüquq və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələri çərçivəsində dost Azərbaycanın suverenliyini, ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını dəstəklədiklərini bildirib.

# Azərbaycanın haqq savaşı xarici mətbuatda



“Ermənistan ordusunun uzun illərdir işğal altında saxladığı Dağlıq Qarabağ və ona bitişik rayonlar Azərbaycan torpaqlarıdır və Ermənistan bu ərazilərdən çıxmalıdır”.

AZƏRTAC xəbər verir ki, bu sözləri İndoneziyanın “TV 1” dövlət televiziya kanalına xüsusi müsahibəsində Azərbaycanın İndoneziyadakı səfiri Cəlal Mirzəyev deyib.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin başlanmasından bu günə qədərki proseslər haqqında ətraflı məlumat verən səfir Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağın və ona bitişik 7 rayonun ötən əsrin 90-cı illərində Ermənistan silahlı qüvvələri tərəfindən işğal edildiyini xatırladıb. BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinə baxmayaraq, Ermənistanın həmin sənədlərin tələblərinə məhəl qoymaması nəticəsində bu işğalın artıq 28 ildir ki, davam etdiyini bildirib.

Həmin qətnamələrdə Ermənistan silahlı qüvvələrinin Dağlıq Qarabağ da daxil olmaqla, işğal etdiyi ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasının tələb olunduğunu vurğulayan səfir münaqişə zamanı bir milyon azərbaycanlının öz doğma yurdundan zorla çıxarılaraq, məcburi köçkün vəziyyətinə salındığını qeyd edib. Bildirilib ki, bir çox digər beynəlxalq qurumlar BMT Təhlükəsizlik Şurasının həmin qətnamələri əsasında Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyir. İslam Əməkdaşlıq Təşkilatının, Avropa İttifaqının bu qətnamələrə uyğun şəkildə, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini beynəlxalq səviyyədə qəbul edilmiş norma və prinsiplər çərçivəsində tanıdığını, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılmasını dəstəklədiklərini deyib. Ermənistan-Azərbaycan münaqişəsinin yalnız Azərbaycanın beynəlxalq səviyyədə tanınan sərhədləri və ərazi bütövlüyü çərçivəsində həll oluna biləcəyini söyləyib.

Müsahibədə, həmçinin Ermənistanın beynəlxalq humanitar hüququn, o cümlədən 1949-cu il Cenevrə Konvensiyasının şərtlərini kobud şəkildə pozaraq, Azərbaycan şəhərlərini artilleriya atəşinə tutduğu, mülki əhalini, xəstəxanaları, məktəbləri, yaşayış yerlərini, ictimai obyektləri hədəfə aldığı haqqında geniş məlumat verilib.

❖ ❖ ❖




Azərbaycanın Los-Ancelesdəki baş konsulu Nəsimi Ağayevin Ermənistanın işğalçılıq siyasəti haqqında yazdığı məqalə oktyabrın 14-də ABŞ-ın nüfuzlu “Los Angeles Times” qəzetində dərc edilib.

Məqalədə baş konsul Dağlıq Qarabağın mübahisəli ərazi olmadığını, Azərbaycanın tərkib hissəsi olduğunu və bunun beynəlxalq ictimaiyyət tərəfindən də qəbul edildiyini diqqətə çatdırır. N.Ağayev Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətindən bəhs edərək, ölkəmizin ərazisinin 20 faizini təşkil edən Dağlıq Qarabağ və ətraf yeddi rayonun Ermənistan tərəfindən işğal edildiyini və 800 min dinc azərbaycanlının öz doğma yurdlarından didərgin salındığını bildirir.

Baş konsul Ermənistanın bu işğalını pisləyən BMT Təhlükəsizlik Şurasının məlum qətnamələrinə, eləcə də 30 ilə yaxındır davam edən və heç bir nəticə verməyən danışıqlara baxmayaraq, Ermənistanın Azərbaycan torpaqlarının bu işğalını davam etdirdiyini qeyd edir.

N.Ağayev 27 sentyabr tarixindən etibarən Ermənistan silahlı qüvvələrinin azərbaycanlı mülki əhalini hədəf aldığını və nəticədə indiyədək 3 uşaq da daxil olmaqla 41 dinc sakinin həlak olduğunu və Azərbaycanın buna cavab olaraq özünü müdafiə etdiyini vurğulayır.

Münaqişənin həlli haqqında danışan baş konsul sülhün əldə olunması üçün Ermənistan qoşunlarının işğal edilmiş bütün ərazilərimizdən çıxarılmalı və azərbaycanlı məcburi köçkünlərin öz doğma evlərinə qayıtmalı olduğunu bildirir. O, bundan sonra Dağlıq Qarabağın azərbaycanlı və erməni icmalarının birlikdə sülh və əmin-amanlıq içərisində yaşayacaqlarını qeyd edir. N.Ağayev bu münaqişənin nə etnik, nə də dini münaqişə olmadığını, uzun əsrlərboyu azərbaycanlıların və ermənilərin Dağlıq Qarabağda və Azərbaycanın digər bölgələrində sülh içərisində birgə yaşadıqlarını diqqətə çatdırır.

Baş konsul vurğulayır ki, ABŞ və digər böyük dövlətlər beynəlxalq hüququn aliliyini təmin edərək, iki ölkə arasında sülhün bərqərar olması üçün Azərbaycanın işğal edilmiş ərazilərindən qoşunlarının çıxarılması ilə bağlı Ermənistana təzyiq göstərməlidir.

Qeyd edək ki, Qarabağ həqiqətlərinin Amerika ictimaiyyətinə çatdırılması üçün Azərbaycanın Los-Ancelesdəki Baş Konsulluğu məqsədyönlü fəaliyyətini davam etdirir. Bu səpkidə sentyabrın 27-dən bəri baş konsul N.Ağayev ABŞ-ın müxtəlif qəzetlərinə və bir sıra nüfuzlu televiziya kanallarına, o cümlədən ABC, CBS, NBC, FOX, KTLA, TELEMUNDO, CURRENT TIME kanallarına və NPR/KCRW radiosuna 20-dən çox müsahibə verərək, Ermənistanın işğalçılıq siyasətini ifşa edib. Baş konsulun fikirlərinin işıqlandırılmasından qəzəblənən yerli erməni lobbisi sözügedən mətbu orqanlara təzyiqlər göstərib, hətta buna görə “Los Angeles Times” qəzetinin binası və CBS telekanalı qarşısında etiraz aksiyaları keçiriblər.

❖ ❖ ❖




İspaniyanın böyük oxuyucu kütləsinə malik “EL ESPANOL” elektron portalında “Qarabağ Azərbaycandır, atəşkəs Bakıda əhalinin hərbi əməliyyatların davam etməsi ilə bağlı çağırışlarının qarşısını ala bilməz” sərlövhəli məqalə dərc edilib.

AZƏRTAC xəbər verir ki, məqalədə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində azərbaycanlıların öz doğma torpaqlarından didərgin salındığı, mülki şəxslərin həlak olduğu qeyd edilir.

Bildirilir ki, “Qarabağ Azərbaycandır” şüarı hazırda sosial şəbəkələrdə, televiziyada, yaşayış binalarının üzərində geniş şəkildə nümayiş olunur.

Vurğulanır ki, 30 ildir vətən həsrəti ilə yaşayan Azərbaycan xalqında indi öz doğma torpaqlarını işğaldan azad etmək üçün ümid yaranıb.

Məqalədə soydaşlarımızın müsahibələrinə istinadla bildirilir ki, hazırda Azərbaycanda işğal altındakı ərazilərimizin azad olunması ilə bağlı güclü Prezident-xalq birliyi, Azərbaycan Ordusunun yeni zəfərlərinə güclü inam və milli musiqimizin beşiyi olan Şuşa şəhərinə geri dönüşə böyük inam var.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışına istinadla qeyd olunur ki, Ermənistan silahlı qüvvələrini Azərbaycanın işğal edilmiş bütün ərazilərindən çıxarılmalıdır, bu, Ermənistan üçün sonuncu şansdır.

❖ ❖ ❖




“Foreign Policy News” Amerika nəşrində dərc olunmuş “Dağlıq Qarabağda şiddətli döyüşlər gedir” sərlövhəli məqalədə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixindən və ermənilərin Azərbaycana qarşı təcavüzündən bəhs edilir.

AZƏRTAC xəbər verir ki, məqalədə sovet hakimiyyəti qurulana qədər Azərbaycanın Dağlıq Qarabağ regionunda və Ermənistanın özündə azərbaycanlıların çoxluq təşkil etməsindən, həmçinin ötən əsrin əvvəllərində bolşeviklər tərəfindən Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılmasından söhbət açılır. Ermənistanın 1990-cı illərdə Azərbaycan ərazilərini işğal etməsi və ATƏT-in Minsk qrupunun son 20 il ərzində fəaliyyətsizliyi də oxucuların diqqətinə çatdırılır.

Daha sonra qeyd edilir ki, indiki silahlı münaqişə erməni silahlı qüvvələri tərəfindən Azərbaycan Ordusunun təmas xəttindəki mövqelərinə hücumdan sonra başlayıb və bu, Azərbaycanı cavab tədbirləri görməyə məcbur edib. “Erməni tərəfinin yüzlərlə tankı, zirehli transportyoru, haubitsası və digər hərbi texnikası pilotsuz uçuş aparatları vasitəsilə məhv edilib ki, bu da Azərbaycan Ordusunun sürətlə irəliləməsinə şərait yaradıb. İki həftə ərzində Azərbaycan Ordusu Dağlıq Qarabağın şimal-şərqində və cənub-qərbində strateji əhəmiyyətə malik yüksəklikləri, şəhərləri və kəndləri işğaldan azad edib”, - deyə məqalədə bildirilir. Müəlliflər Ermənistan silahlı qüvvələri tərəfindən Gəncə şəhərindəki yaşayış evinə endirilmiş raket zərbələrini də xatırladırlar. Bu hücum nəticəsində onlarca dinc sakin həlak olub və yaralanıb.

Məqalədə deyilir ki, Azərbaycan Prezidenti İlham Əliyev Türkiyə KİV-nə müsahibəsində Dağlıq Qarabağ azad olunmayana qədər Azərbaycan Ordusunun dayanmayacağını bəyan edib. Prezident, həmçinin bildirib ki, Azərbaycan dinc əhali ilə deyil, silahlı erməni xuntası ilə müharibə aparır.

❖ ❖ ❖




Türkiyənin kütləvi informasiya vasitələri Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasəti və hücumlar həyata keçirməsi nəticəsində yaranmış hərbi gərginlik barədə fasiləsiz olaraq məlumatlar yaymaqdadır.

AZƏRTAC xəbər verir ki, qardaş ölkə KİV-i hərbi meydanda rüsvayçı məğlubiyyətlə barışmayan düşmən ordusu azğınlaşaraq Azərbaycanın dinc əhalisini hədəfə alığını qeyd edirlər. Bildirilir ki, düşmən ordusunun oktyabrın 10-da Gəncə şəhərinə ballistik raket atması nəticəsində çoxsaylı insan itkisi media və ictimaiyyət tərəfindən hiddətlə qarşılanıb. Vurğulanıb ki, Azərbaycanın dinc əhalisinin hədəfə alınması ermənilərin türklərə qarşı əsassız düşmənçiliyinin bariz nümunəsidir.

Telekanallarda döyüş bölgələrindən xüsusi reportajlar yayımlanır, ekspert rəyləri təqdim olunur, cəbhə bölgəsindən birbaşa xəbərlər, həmçinin işğalçı ordunun texnika və canlı qüvvəsinin məhvinə dair informasiyalar verilir, videolar paylaşılır. Təcavüzkar tərəfin hərbçilərinin pərakəndə və təşviş içində olmasının əsas səbəbi kimi bu ölkənin işğalçı mahiyyəti göstərilir.

Məlumatlarla Anadolu, İHA, DHA agentlikləri, “TRT Habe”r, “Haber Türk”, TGRT, “A Haber”, “Haber Global”, “Büngü TV”, “CNN-Türk” telekanallarının, habelə “Akşam”, “Milliyyət”, “Sabah”, “Yeni çağ”, “Yeni akit” və digər nüfuzlu qəzetlərdə, həmçinin yerli bölgə saytlarında tanış olmaq mümkündür.

❖ ❖ ❖




Kolumbiyanın ən aparıcı mətbu orqanlarından olan “El Espectador” qəzetində səfir Məmməd Talıbovun Dağlıq Qarabağ münaqişəsi, Ermənistanın son təcavüz aktı və hazırkı hərbi əməliyyatlarla bağlı müsahibəsi dərc olunub.

AZƏRTAC xəbər verir ki, müsahibədə münaqişənin tarixi haqda məlumat verən səfir, Azərbaycanın öz müstəqilliyini bərpa etdikdən dərhal sonra Ermənistan tərəfindən hərbi təcavüzə məruz qaldığını, Dağlıq Qarabağ və 7 ətraf rayon olmaqla Azərbaycanın beynəlxalq qaydada, eləcə də Kolumbiya tərəfindən tanınmış ərazilərinin beşdəbirinin Ermənistan tərəfindən işğal edildiyini bildirib.

Səfir münaqişəyə dair BMT Təhlükəsizlik Şurası tərəfindən 1993-cü ildə qəbul edilmiş dörd qətnamənin Ermənistan qoşunlarının Azərbaycanın işğal edilmiş bütün ərazilərindən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb etdiyini, ancaq həmin vaxtdan 27 il keçməsinə rəğmən, Ermənistanın davamlı destruktiv mövqeyi səbəbindən münaqişənin həllində cüzi də olsa irəliləyiş əldə olunmadığını qeyd edib.

Sentyabrın 27-dən etibarən Ermənistanın dinc yaşayış məntəqələrini artilleriya atəşinə tutmağa başladığını, hazırkı anadək bu hücumlar nəticəsində arasında azyaşlı uşaqlar da olmaqla çoxsaylı azərbaycanlı mülkü vətəndaşın həlak olduğu və yaralandığını, habelə son günlərdə Ermənistan silahlı qüvvələrinin Azərbaycan xalqına qarşı terror əməli törədərək hərbi əməliyyatlar aparılan ərazidən uzaqda yerləşən Gəncə, Mingəçevir şəhərlərinə ballistik raket zərbələri endirdiyini məlumat verən diplomat, Azərbaycan Ordusunun mülkü əhalinin təhlükəsizliyini təmin etmək və işğal olunmuş əraziləri azad etmək məqsədilə əks-hücum tədbirləri apardığını bildirib.

Münaqişənin masa ətrafında həllinin mümkünlüyünə dair müxbirin sualına cavab olaraq təmsilçimiz münaqişənin başlıca səbəbinin Azərbaycanın suveren ərazilərində Ermənistan silahlı qüvvələrinin mövcud olduğunu, hazırda beynəlxalq ictimaiyyətin tərəfləri dialoqa çağırdığını, lakin bu addımın birtərəfli qaydada atıla bilməyəcəyini, münaqişədə təcavüzkar tərəfin Ermənistan olduğunu, hər kəsin təcavüzkarla zərərçəkəni ayırd etməsi gərəkdiyini və beynəlxalq ictimaiyyətin BMT TŞ-nin qətnamələrinin yerinə yetirilməsi və Azərbaycanın işğal edilmiş ərazilərinin azad edilməsini tələb etməli olduğunu vurğulayıb.

❖ ❖ ❖

Azərbaycan Dağlıq Qarabağda vəziyyətin gərginləşməsi fonunda Ermənistanın onun neft və qaz kəmərlərinə hücumunun cavabının çox sərt olacağını bildirib.

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, bu barədə oktyabrın 14-də Avstraliyanın “SBS News” portalı məlumat yayıb.

Məqalədə Azərbaycan Prezidenti İlham Əliyevin “Haber Türk” telekanalına müsahibəsindən sitat da yer alıb: “Ancaq əgər Ermənistan bu çirkin planları, yəni, boru xətlərinin sıradan çıxarılması planlarını həyata keçirərsə, onlar üçün cavab çox ağır olacaq. Biz bu barədə artıq xəbərdarlıq etmişik”.

Yazıda Azərbaycanın mülki obyektlərini hədəfə alan Ermənistanın hərbi obyektlərinin məhv ediləcəyi barədə Azərbaycan Müdafiə Nazirliyinin bəyanatına da yer verilib.

Bununla yanaşı, məlumatda Azərbaycan Müdafiə Nazirliyinin erməni qüvvələrinin təmas xəttində yeni hücumları, həmçinin Tərtər, Ağdam və Ağcabədi rayonlarının artilleriya atəşinə tutulması barədə məlumatı da əksini tapıb. Bildirilib ki, həmin hücumlar nəticəsində bir neçə mülki vətəndaş həlak olub və yaralanıb. Yaralananlar arasında jurnalistlər də var.

Avstraliyalı oxuculara, həmçinin Dağlıq Qarabağ münaqişəsinin tarixi barədə də məlumat verilib.

❖ ❖ ❖




Honkonqda nəşr olunan nüfuzlu “South China Morning Post” qəzetinin saytında Ermənistan silahlı qüvvələrinin sentyabrın 27-dən başlayan hərbi təxribatları və onun nəticəsində yaranmış vəziyyət barədə məqalələr yerləşdirilib.

AZƏRTAC xəbər verir ki, “Ermənistan ilə Azərbaycan arasında toqquşmalar yenidən başlarkən Çin bu məsələdə nə üçün neytral qalmamalıdır?” sərlövhəli məqalədə Sovet İttifaqı dağılarkən millətçilərin Ermənistan ərazisini Azərbaycan torpaqları hesabına genişləndirmək istəyinə düşdüyü qeyd olunub. Bildirilib ki, müharibə nəticəsində Ermənistan Azərbaycan ərazisinin 20 faizini işğal edib və bir milyon günahsız insan öz evindən didərgin düşüb.

Məqalənin müəllifi Skarlet Ma qondarma “Dağlıq Qarabağ respublikası”nın marionet rejiminin 1931-1945-ci illərdə Çinin şimal-şərqindəki marionet Mancuriya rejiminin rəhbərliyi ilə müqayisə oluna biləcəyini vurğulayıb. O qeyd edib ki, Çin iki səbəbdən Azərbaycanla həmrəylik nümayiş etdirməli və Ermənistanı qınamalıdır. Birincisi, BMT Təhlükəsizlik Şurasının daimi üzvü və qlobal güc olan Çin beynəlxalq hüququ qorumalıdır. Bu xüsusda Çinin də xarici müdaxilə ağrısı ilə tanış olduğu vurğulanıb.

Bundan başqa, Çinin Azərbaycanı dəstəkləməsi Tayvandakı separatçılara dolayı bir mesaj olar. Çin də Azərbaycanla eyni problemlə üzüzədir: eynilə Qarabağdakı separatçılar kimi, Tayvandakı axmaq siyasətçilər də xarici qüvvələrin onların rejimini qoruyacağını düşünürlər. Çin bu məsələdə Azərbaycanı dəstəkləməklə ərazi bütövlüyünün bütün ölkələr üçün “qırmızı xətt” olduğunu nümayiş etdirə bilər.

Müəllif qeyd edir ki, çinlilər sülhsevər insanlardır. Amma məlumdur ki, ədalət olmadan sülh mümkün deyil. Azərbaycanı dəstələmək, həqiqəti dəstəkləməkdir.

❖ ❖ ❖




Ukraynanın nüfuzlu KİV-i Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin torpaqlarımızın işğaldan azad edilməsi ilə bağlı məqalələr dərc edib.

AZƏRTAC xəbər verir ki, “RBK-Ukrayna” informasiya agentliyində, “QORDON” nəşrində dərc edilən məqalələrdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin özünün rəsmi “Twitter” səhifəsinə istinadla yazıblar: “Azərbaycan Ordusu tərəfindən Füzuli rayonunun Qaradağlı, Xatunbulaq, Qarakollu, Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Kəmərtük, Təkə, Tağaser kəndləri işğaldan azad edilib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!”

❖ ❖ ❖




Argentinada çıxan gündəlik “Clarin” qəzetinin internet portalında “Azərbaycan Ermənistanın bir neçə ballistik raketinin məhv edildiyini bildirib” sərlövhəli məqalə dərc olunub (bax: https://www.clarin.com/agencias/efe-azerbaiyan-informa-destruido-varios-cohetes-balisticos-armenia_0_VoeItWslWd.html).

AZƏRTAC xəbər verir ki, Azərbaycan Müdafiə Nazirliyinin məlumatına istinad edilən məqalədə oktyabrın 14-də Ermənistan ərazisində Azərbaycanın mülki infrastruktur obyektlərinə və şəhərlərinə tuşlanmış bir neçə ballistik raketin Azərbaycan Silahlı Qüvvələri tərəfindən məhv edildiyi bildirilir.

Oktyabrın 14-ünə keçən gecə Azərbaycan Ordusu Azərbaycanın işğal altında olan Kəlbəcər rayonunun yaxınlığında sərhədyanı zonada Ermənistan tərəfindən yerləşdirilmiş bir neçə taktiki ballistik raket kompleksini məhv edib. Sonradan yenə həmin ərazidə ermənilərin daha bir ballistik raketi məhv edilib. Azərbaycan hərbçilərinin verdiyi məlumata görə, bu raket ölkənin ikinci ən böyük şəhəri olan Gəncəyə tuşlanıbmış.

Argentina nəşri öz oxucularının diqqətinə çatdırır ki, oktyabrın 10-da Rusiyanın vasitəçiliyi ilə Azərbaycan və Ermənstan arasında humanitar mülahizələrə əsasən atəşkəs barədə razılıq əldə edilməsinə baxmayaraq Dağlıq Qarabağ münaqişəsi zonasında hərbi əməliyyatlar bircə gün belə dayanmayıb.

“Clarin” qəzeti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin yaranması tarixi barədə məlumat verir. Qeyd edilir ki, həmin münaqişə nəticəsində Ermənistan Azərbaycanın Dağlıq Qarabağ bölgəsini, habelə ona bitişik, “təhlükəsizlik zolağı” adlanan geniş əraziləri işğal edib.

Qəzet yazır: “Azərbaycan bəyan edir ki, Ermənistanla münaqişənin nizamlanması üçün hazırda işğal altında olan ərazilər hökmən işğaldan azad edilməlidir. Bu tələb BMT Təhükəsizlik Şurasının bir neçə qətnaməsində təsbit olunub”.

❖ ❖ ❖




Özbəkistanın “Interfax.uz”, “qalampir.uz”, “orol24.uz”, “human.uz” portalları Ermənistan silahlı qüvvələrinin qədim Gəncənin və Mingəçevirin mülki obyektlərini və dinc əhalisini raket atəşinə tutması ilə bağlı özbək və rus dillərində məqalələr verib.

AZƏRTAC xəbər verir ki, materiallarda deyilir: “Moskvada humanitar atəşkəs rejimi razılaşdırıldıqdan dərhal sonra Ermənistan ərazisindən Gəncə və Mingəçevir şəhərlərinin ballistik raket atəşinə tutulması beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il Cenevrə Konvensiyası və onun Əlavə protokollarını, BMT Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozur. Bunun üçün erməni hərbçiləri məsuliyyət daşıyır və onlar gec-tez beynəlxalq qanunlar qarşısında cavab verməli olacaqlar”.

“Interfax.uz” portalı bildirir ki, Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Gəncənin atəşə tutulması ilə əlaqədar deyib: “Oktyabrın 11-də Azərbaycanın ikinci ən böyük şəhəri olan Gəncənin əhalinin sıx yaşadığı məntəqəsinə “SCUD” tipli ballistik raket də Ermənistanın ərazisindən atılmışdı. “SCUD” tipli böyük məhvetmə gücünə malik olan raketin döyüş zonasından kənarda mülki insanlara qarşı istifadə olunması ATƏT məkanında birinci haldır. Ümumiyyətlə, dünya üzrə son hərbi münaqişələrdə müşahidə olunan nadir hallardan biridir”.

❖ ❖ ❖




Tacikistanın “faraj.tj” portalı Ermənistan silahlı qüvvələrinin qədim Gəncəni raket atəşinə tutması haqqında tacik dilində geniş material yerləşdirib.

AZƏRTAC portala istinadla xəbər verir ki, Moskvada imzalanan humanitar atəşkəs rejimindən sonra mülki obyektlərə və yaşayış məhəllələrinə aramsız atəş nəticəsində çoxlu dağıntılar var, 10 adam həlak olub, 34 nəfər yaralanıb. Onların arasında uşaqlar və qadınlar var.

Yazıda bildirilir ki, Ermənistanın mülki obyektlərə və yaşayış evlərinə raket hücumu 1949-cu il Cenevrə Konvensiyasına və digər beynəlxalq sənədlərə ziddir və Ermənistan bu hərəkətə görə cavab verməli olacaq.

Materialda qeyd olunur ki, qədim Gəncə şəhəri Böyük İpək yolu üzərində olan mədəniyyət mərkəzidir. Dünyaya Nizami Gəncəvi kimi dünya şöhrətli şair və filosof verib.

Sonra məqalədə Gəncənin tarixi abidələri haqqında məlumat verilir, deyilir ki, bu qədim şəhərdə 195 tarixi-mədəni abidə var. Orta əsrlərə aid “Qədim Gəncə” qoruq-kompleksi, İmamzadə kompleksi (XVII-XIX əsr), Uğurlu xanın Karvansarası, Şah Abbas Karvansarası, Gəncə qalası, Qala divarları (XVII-XIX əsr) və digər abidələr bu qəbildəndir.

Yazıda vurğulanır ki, belə qədim tarixi və abidələri olan Gəncənin raket atəşinə tutulması vandalizmdən başqa bir şey deyil.

❖ ❖ ❖




Malayziya mətbuatı Azərbaycanın bu ölkədəki səfiri Qaley Allahverdiyevin Ermənistanın ölkəmizə qarşı son hərbi təxribatları barədə geniş məqaləsini yayıb.

AZƏRTAC xəbər verir ki, bu ölkənin dövlət informasiya agentliyi BERNAMA və əhatə dairəsinə görə Cənub-Şərqi Asiyada tanınmış “New Straits Times” qəzetinin yaydığı “Azərbaycan regionunda sülh və sabitlik istəyir” sərlövhəli məqalədə Ermənistanın sentyabr ayının 27-dən başlayaraq ölkəmizə qarşı hərbi təxribatlarından bəhs olunub, oxucular bu hücumların ağır nəticələri barədə ətraflı məlumatlandırılıb.

Səfir bildirib ki, dünya ölkələri COVID-19 pandemiyası və onun yaratdığı böyük sosial-iqtisadi böhranla mübarizə apardığı bir vaxtda Azərbaycan ikiqat çağırışla üzləşib. Diplomat Ermənistan silahlı qüvvələrinin ağır artilleriya və iri çaplı silahlardan istifadə edərək oktyabrın 11-də Gəncə və Mingəçevir şəhərlərinə hücumunu xatırladıb. Qeyd edib ki, düşmən ballistik raketlərlə mülki əhalini və mülki obyektləri hədəfə alıb. Bu, Ermənistanın heç bir beynəlxalq humanitar öhdəliyə məhəl qoymadığını bir daha təsdiq edir.

Məqalədə qeyd olunub ki, Azərbaycanın rəhbərliyi Ermənistana qarşı həyata keçirdiyi sülhə məcburetmə əməliyyatlarının ilk günündən mülki əhalini və mülki obyektləri hədəfə almayacağını bəyan edib. Azərbaycanın işğal olunmuş ərazilərindəki mülki əhali ilə hər hansı probleminin olmadığını vurğulayan səfir Prezident İlham Əliyevin Dağlıq Qarabağda yaşayan erməniləri Azərbaycan vətəndaşları hesab etdiyini xatırladıb.

Səfir, eyni zamanda, Ermənistanın cari ilin iyulunda qəbul etdiyi milli təhlükəsizlik strategiyasına toxunaraq, təcavüzkarlığı aşkar şəkildə təşviq edən bu sənəddən sonra Azərbaycana qarşı hərbi hücumların gözlənilən olduğunu bildirib. Əlavə edib ki, bu və digər belə cəhdlər Azərbaycana qarşı yeni müharibənin ayaq səsləri idi.

Diplomat onu da vurğulayıb ki, bu gün dünya ictimaiyyətinin göstərməli olduğu qətiyyətli mövqe təkcə Azərbaycanın haqlı mübarizəsi üçün deyil, eyni zamanda, beynəlxalq hüquq və ədalətin əsas öhdəliklərinin xilas edilməsi baxımından da önəmlidir.

❖ ❖ ❖




“Azərbaycanın daha bir neçə yaşayış məskəni erməni işğalından azad olundu”. “Rəşadətli Azərbaycan Ordusu torpaqların işğaldan azad olunması əməliyyatlarını davam etdirir”.

AZƏRTAC xəbər verir ki, bu başlıqlı xəbərlərə Gürcüstanın bir sıra nüfuzlu informasiya agentliklərinin 14 oktyabr buraxılışlarında daha çox rast gəlinir.

Gürcüstanın nüfuzlu report.ge, nterpressnews.ge, pia.ge, aktual.ge, 24news.ge, putnik-georgia.ru və daha bir neçə informasiya portalı Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin torpaqlarımızın işğaldan azad edilməsi ilə bağlı xəbərini Azərbaycan, rus, ingilis və gürcü dillərində oxuculara çatdırıblar.

Bundan başqa, Azərbaycan Prezidentinin son iki həftə ərzində Ermənistanın 200-dən çox tankının məhv edilməsi, 33 tank qənimət götürüldüyü, regional enerji layihələri - neft və qaz boru kəmərləri ilə bağlı Ermənistan rəhbərliyinə xəbərdarlığı, Gürcüstanda 300 mindən çox azərbaycanlının və 200 minə yaxın ermənininin, eləcə də digər milli azlıqların sülh şəraitində yaşaması və müharibə başa çatdıqdan sonra Azərbaycanda da ermənilərin azərbaycanlılarla sülh şəraitində yaşaya biləcəklərinin mümkünlüyü barədə fikirləri xüsusi vurğulanır.

Eyni zamanda Azərbaycan Prezidentinin müharibə başa çatdıqdan sonra təkcə region deyil, bütün dünyanın dəyişəcəyi barədə açıqlaması da ən çox diqqət çəkən məlumatlardan biridir.

Daha bir diqqət çəkən məlumat isə Azərbaycan Prezidentinin Ermənistanın baş naziri ilə bağlı söylədiyi fikirlərdi: “Paşinyan küçədən gələn bir adamdır. Kim idi o? Heç kim. Bir yazar idi, heç yazar da deyil. Bir qəzetin müxbiri idi və küçədən gəlib rəhbər oldu və nə etdi bundan sonra? Ermənistanı fəlakətə apardı”.

❖ ❖ ❖




Misirin diplomatik “Aldiplomasy” nəşri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin özünün rəsmi “Twitter” səhifəsində Ordumuzun Füzuli və Xocavənd rayonlarının bir sıra kəndlərini azad etməsi barədə paylaşımı ilə bağlı ingilis dilində xəbər yerləşdirib.

AZƏRTAC xəbər verir ki, xəbərdə dövlətimizin başçısının aşağıdakı sözləri yazılıb: “Rəşadətli Azərbaycan Ordusu tərəfindən Füzuli rayonunun Qaradağlı, Xatunbulaq, Qarakollu, Xocavənd rayonunun Bulutan, Məlikcanlı, Kəmərtük, Təkə, Tağaser kəndləri işğaldan azad edilib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!”

❖ ❖ ❖




Londonda fəaliyyət göstərən “EU Today” media platforması “Ermənistan Cənubi Qafqazda yeni Srebrenitsa soyqırımı törətmək niyyətindədir?” adlı məqalə dərc edilib.

AZƏRTAC xəbər verir ki, məqalədə Rusiyanın vasitəçiliyi ilə döyüş əməliyyatlarının gedişində həlak olanların cəsədlərinin və əsirlərin dəyişdirilməsi üçün əldə olunan humanitar atəşkəs razılaşmasının qüvvəyə mindiyi andan etibarən pozulması, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Gəncə şəhərinə raket zərbələri endirməsi və bu hücumlar nəticəsində azyaşlılar da daxil olmaqla, dinc sakinlərin həlak olması və yaralanması barədə məlumat verilir.

Məqalədə Azərbaycanın Xarici İşlər naziri Ceyhun Bayramovun “Humanitar atəşkəs razılaşması əldə edildikdən sonra Ermənistan silahlı qüvvələri tərəfindən Gəncə şəhərində mülki əhalinin atəşə tutulması barbarlığın daha bir bariz nümunəsidir və Ermənistan rəhbərliyinin atəşkəs çağırışları riyakarlıqdan başqa bir şey deyil” fikri də yer alıb.

Müəllif ermənilərin bu təxribatlarını Srebrenitsa soyqırımı ilə müqayisə edir. “Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutunun 8-ci maddəsinə əsasən mülki əhaliyə və ya döyüşlərdə birbaşa iştirak etməyən fərdi mülki şəxslərə qarşı qəsdən edilmiş hücumlar müharibə cinayəti hesab edilir.

Müəllif Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin fikirlərinə istinadən bildirib ki, bu hərəkətlər Ermənistanın dünya birliyinə, o cümlədən Rusiya Federasiyasına hörmətsizliyi kimi qiymətləndirilməlidir.

Qeyd edilir ki, Ermənistan silahlı qüvvələri 1949-cu il Cenevrə konvensiyaları da daxil olmaqla beynəlxalq humanitar hüququ kobud şəkildə pozaraq təmas xətti boyunca yaşayış bölgələrində və münaqişə zonası xaricində yerləşən bölgələrdə mülki əhalini, fərdi evləri və digər mülki infrastrukturu qəsdən hədəf almağa davam edir. Bu günə qədər olan məlumata görə, Ermənistan silahlı qüvvələrinin hücumu nəticəsində uşaqlar və qocalar da daxil olmaqla, ümumilikdə 40-dan çox mülki şəxs qətlə yetirilib, 200-dən artıq insan yaralanaraq xəstəxanalara yerləşdirilib, 1470-dən çox fərdi ev, 70-ə yaxın yaşayış binası və 240-dan çox mülki infrastruktur obyekti dağıdılaraq yararsız hala düşüb.



# Doğma kəndim, görüşünə gəlmişəm...

***"Bu gün müzəffər ordumuz Azərbaycanın bir neçə yaşayış məskənini erməni işğalından azad edib" - Ali Baş Komandanın bəyanatlarını eşidən məcburi köçkünlərin keçirdikləri hisslər...***

Artıq ötüb əsən həsrət yelləri,
Gözlərimin quruyubdur selləri,
Keçib neçə həsrət dolu illəri
Dizin-dizin, sürünərək gəlmişəm,
Doğma kəndim, görüşünə gəlmişəm...

İkimiz də viran qalan, talanan,
İçimizdə alovlanan, odlanan,
Hey yollara həsrət ilə boylanan,
Ayrılığı həmişəlik silmişəm,
Doğma kəndim, görüşünə gəlmişəm...

Hicran odu közərdikcə kövrələn,
Həsrət çəkən həm sən oldun, həm də mən,
Bu hicrana nə sən dözdün, nə də mən,
Sənlə bütöv, sənsiz yarı, tənmişəm,
Doğma kəndim, görüşünə gəlmişəm...

Mən uşaqdım səndən ayrı düşəndə,
İkimiz də birgə düşdük kəməndə,
Hansı bəndə, söylə, dözər bu dərdə,
Mən mən deyil, dönüb bütöv sənmişəm,
Doğma kəndim, görüşünə gəlmişəm...

Aç qolunu, qucaqlaşaq, görüşək,
Dərdimizi pıçıltıyla bölüşək,
Həzin-həzin nəğmə deyib ötüşək,
Ayrılıqdan usanmışam, bezmişəm,
Doğma kəndim, görüşünə gəlmişəm.
Ata yurdum, görüşünə gəlmişəm...

***Məhəmməd MƏHƏRRƏMOV***



SOCAR
SOCAR PETROLEUM QSC
xalqımızı
Dövlət Müstəqilliyi Günü
münasibətilə təbrik edir, sülh, əmin-amanlıq, xoş gələcək arzulayır!
Şanlı Ordumuzun Böyük Qələbəsinə
böyük inamla!




QARABAĞ AZƏRBAYCANDIR!

# Azərbaycan Ordusu dünya hərb tarixinə yeni səhifələr yazır

Düşmən 30 ildir Azərbaycan torpaqlarını işğal altında saxlayırdı. Bu müddət ərzində məsələni sülh yolu ilə həll etmək üçün nəticəsiz danışıqlar aparılıb. İndiyədək ermənilər bizi yaranmış status-kvo ilə razılaşmağa məcbur etmək istəyib.



Minsk qrupunun üzvü olan həmsədr dövlətlər də bağlı qapılar arxasında bizdən bunu tələb edib. Bu mövqe ilə razılaşmayan Azərbaycan tərəfi isə daim bildirib ki, məsələnin yeganə həll yolu ölkəmizin ərazi bütövlüyü çərçivəsində mümkündür.

Ermənilər bütün görüşlərdə birmənalı olaraq deyirdilər ki, münaqişənin hərbi yolla həlli yoxdur. Onların bu mövqeyini həmsədr dövlətlər və beynəlxalq təşkilatlar da təkrar edirdilər. Prezident İlham Əliyev həmin qurumlara xəbərdarlıq edərək demişdir ki, danışıqlar nəticə verməsə, münaqişənin alternativ yolla həlli də mümkündür. Dövlət başçısı tərəfindən vaxtında edilən bu xəbərdarlığı nə düşmən tərəfi, nə də həmsədr dövlətlər nəzərə aldı. Çünki bizim siyasi iradəmizi qırıb təslim aktına qol çəkdirmək istəyirdilər. Ermənilər və onların havadarları belə hesab edirdilər ki, məsələnin uzanması sayəsində bu torpaqlardan didərgin düşən insanlar yeni şəraitə uyğunlaşacaq, geriyə köç edib dədə-baba torpaqlarına qayıtmaq istəməyəcəklər. Digər tərəfdən, düşünürdülər ki, Azərbaycanda böyüyən yeni nəsil həyatlarını rahat davam etdirmək üçün işğal olunmuş torpaqlar uğrunda savaşmayacaqlar.

Bu gün Azərbaycan gəncliyinin cəbhəyə könüllü yollanaraq düşmənlə savaşması bir daha onu göstərdi ki, heç kəs işğal olunmuş torpaqları unutmayıb, lazım gələndə onun yolunda ölməyə də hazırdır. İndiyə qədər bir gəncimizin belə fərarilik edərək ordudan yayınması faktı yoxdur. Əksinə, müəyyən səbəblərə görə səfərbərliyə cəlb edilməyən gənclər kəskin şəkildə öz narazılıqlarını bildirirlər.

İndi Azərbaycan Ordusunun cəbhədə göstərdiyi döyüş taktikası və bacarığı dünyanı heyrətləndirib. Hamı çaşqın qalıb ki, bu ordu necə yetişdirildi, heç xəbərimiz olmadı. Məlumdur ki, bu gün dünyada olan texniki vasitələrlə kəşfiyyat aparıb hər bir ordu barədə dəqiq məlumat əldə etmək mümkündür. Bəlkə Ermənistan tərəfindən Azərbaycana qarşı formalaşdırılan yanlış fikirlər düşmən ölkənin tərəfini tutan kəşfiyyat qurumlarının sayıqlığının itirilməsinə səbəb oldu? Bəlkə belə bir fikrin formalaşmasında biz özümüz xüsusi rol oynamışıq? Necə deyərlər, zəruri məxfiliklərdən istifadə edərək ciddi hərbi hazırlığımızı görmüşük. Belə olmasaydı, dünyanın tanınmış hərbi ekspertləri şok içində olub ordumuzun imkanlarına heyrət etməzdi. Sözsüz ki, dostlarımız da, düşmənlərimiz də ordumuzun güclü, müasir silahlarla təchiz olunmasını bilirdi. Ordudakı ciddi nizam-intizamın da, döyüş hazırlığının səviyyəsinin də düşməndən üstün olmasından xəbərdar idilər. Amma sentyabrın 27-də başlayan əks-hücum əməliyyatı göstərdi ki, onlar ordumuzun nəyə qadir olduğunu tam anlaya bilməyiblər. Azərbaycan Ordusu həmin gündən indiyə kimi XXI əsrdə dünya hərb tarixinə yeni səhifələr yazır.

Bu gün dünyanın nüfuzlu hərbi mərkəzləri ordumuzun döyüş bölgəsində həyata keçirdiyi taktikanı yaxından izləyir. Hamı birmənalı olaraq Azərbaycan Ordusunun möcüzəsindən danışır. Ermənilər dağlıq relyefin imkanlarından istifadə edərək elə istehkamlar qurub ki, onu dünyanın ən güclü orduları belə qısa müddətdə az itki ilə yara bilməzdilər. Bundan başqa, işğalçılar fikirləşirdilər ki, onlara ən ağır zərbəni Azərbaycan Ordusunun sərəncamında olan döyüş təyyarələri endirəcək. Döyüşlər ərazimizdə getdiyindən onlar düşünürdülər ki, qırıcı təyyarələrdən istifadə edə bilməyəcəklər. Buna görə ermənilər işğal altında olan ərazilərdə böyük həcmdə "S-300 Favorit" tipli müasir komplekslər də daxil olmaqla qısa, orta və uzunmənzilli hava hücumundan müdafiə sistemlərini yerləşdirmişlər. Döyüş əməliyyatları ərzində isə düşmənin hava hücumundan müdafiə sisteminin 80 faizi dronlarla məhv edilib. Artıq döyüş təyyarələrindən istifadə imkanlarımız genişlənib.

Ordumuzun pilotsuz uçuş aparatları ilə aparılan əməliyyatları dünyanın inkişaf etmiş ordularının komandanlarını düşünməyə vadar edir. ABŞ Quru Qoşunlarının Baş Qərargah rəisi, ordu generalı Ceyms Makkonvilinin "Army Timos" qəzetinə verdiyi müsahibəsində bu, aydın şəkildə görünür. General deyir ki, Qarabağ bölgəsində Azərbaycan tərəfindən pilotsuz uçan aparatlardan geniş istifadə Amerika Silahlı Qüvvələrinin modernləşdirilməsi zərurətini yaradır. Şübhə yoxdur ki, gələcəkdə dünyanın hərb məktəblərində Azərbaycan Ordusunun Dağlıq Qarabağda apardığı döyüş taktikası tədris olunacaq, təlimlərdə sınaqdan keçiriləcək.

Ermənistan isə bunu hələ də anlamır. Onlar "kor döyüşə gedən kimi" mənasız yerə müharibəni davam etdirmək istəyirlər. Az qalıb, Ermənistan kiminlə vuruşduğunun, hansı itkilərə məruz qaldığının yaxın günlərdə fərqinə varacaq. Ola da bilsin bəlkə bundan sonra imkanlarından artıq iddialara düşüb sərsəm bəyanatlar verməyə son qoysun.

Bu gün Azərbaycan əsgəri sözün həqiqi mənasında döyüş meydanında hərb tarixi yazır. Bu elə bir tarixdir ki, bunu dostlarımızla yanaşı, düşmənlərimiz də uzun müddət unutmayacaq.

***Rüstəm KAMAL, "Azərbaycan"***

"Nabucco Memarlıq və İnşaat" MMC
Azərbaycan xalqını



18 Oktyabr - Dövlət Müstəqilliyi Günü
münasibətilə təbrik edir,
Şanlı Ordumuza Böyük Qələbə arzulayır!
NABUCCO A & C
Sənaye, kommersiya və kənd təsərrüfatı təyinatlı tam komplektli hermetik polad binaların layihələndirilməsi, istehsalı, çatdırılması, quraşdırılması və servisi
QARABAĞ AZƏRBAYCANDIR!

# Düşmən kəndimizin məzarlığını da hədəfə alır

Bu gün Tərtər Qarabağ uğrunda savaşın odlu nöqtəsidir. Düşmənin artilleriya atəşlərinə, raket zərbələrinə daha çox məruz qalan isə bizim Borsunlu kəndidir. Ermənistan silahlı qüvvələri tərəfindən atılan mərmilər evlərimizi, sosial obyektləri dağıdıb yerlə-yeksan etmişdir. Mülki əhali arasında həlak olan və yaralananlar da vardır.





Əlbəttə, müharibədir. Müharibədə ölüm-itim, dağıntı başadüşüləndir. Amma bizim faşist xislətli düşmənlərimizin davası heç bir müharibə qanunlarına sığmayan əsl barbarlıqdır. Düşmənin evləri, məktəb və xəstəxananı atəşə tutmaqla ürəyi soyumur. Kənd məzarlığını atəşə tutan xainlər ata-babalarımızın, doğmalarımızın qəbirlərini dağıtmaqdan da çəkinmirlər. Ancaq unudurlar ki, onlar bu əməlləri ilə özlərinə qarşı nifrəti daha da artırır, ürəyimizdəki intiqam hissini daha da alovlandırırlar.

Cəbhədən aldığımız qələbə soraqlı xəbərlər isə bizə əzm verir. İnanırıq ki, qəhrəman Azərbaycan əsgəri tezliklə düşmən üzərində tam və qəti qələbə qazanacaq, erməni faşistlərini Qarabağdan birdəfəlik qovub çıxaracaq. Biz elə bu yenilməz inamla da kəndimizdə təsərrüfat işləri ilə məşğuluq. Pambıq yığırıq, taxıl əkirik, mal-qaraya qulluq edirik. Bir sözlə, əhvali-ruhiyyəmiz çox yüksəkdir. Səbirsizliklə QƏLƏBƏ xəbəri gözləyirik.

***İlham MƏMMƏDOV, Tərtər rayonu Borsunlu kənd sakini***

ADY
Azərbaycan Dəmir Yolları QSC



Azərbaycan xalqını
Dövlət Müstəqilliyi Günü
münasibətilə təbrik edir,
Müzəffər Ordumuza
Böyük Qələbə
arzulayır!

QARABAĞ AZƏRBAYCANDIR!

Günay Bank
Azərbaycan xalqını
Dövlət Müstəqilliyi Günü




QARABAĞ AZƏRBAYCANDIR!

# Vətən müharibəsində ziyalı susmamalıdır

Artıq 30 illik səbir kasasının daşan məqamıdır. Bu, tarixdə öz əzmi, vüqarı, dağ kimi təmkini, dərya qədər dözümü olan bir millətin yay kimi gərilmiş qəzəbinin kükrəməsidir və təbii ki, onun qarşısını almaq mümkün deyil. Sentyabrda cəbhədə hərbi proseslər başlananda Ali Baş Komandan yalnız qismən səfərbərlik elan etsə də, onun bir əmri ilə bütün Azərbaycan xalqı harada olmağından, kimliyindən asılı olmadan bir yumruq kimi birləşdi.

Ölkə Prezidenti İlham Əliyev "Rossiya-1" telekanalında yayımlanan "60 dəqiqə" proqramında suallara cavab verərkən bildirdi ki, "2 milyon əhalisi olan Ermənistana qarşı 10 milyon əhalidən 10 minlərlə ehtiyatda olanları orduya çağırırıq, bizim insan ehtiyatlarına ehtiyacımız yoxdur. Buna görə də biz özümüzü müdafiə etməyə və təcavüzkarı elə cəzalandırmağa qabilik ki, o, bir daha bizim tərəfə baxmağa cəsarət etməsin". Bəli, öz xalqına arxalanan Liderin yumruğunda bütün 10 milyonun gücü, əzmi toplandı və var qüvvəsi ilə xain düşmənin başına endi. Bu zərbədə xalqın ziyalısının da payı var, olmalıydı da.



## Millətin katarsisi

Ruhu möhkəm, mənəviyyatı zəngin millət tarixin keşməkeşli mərhələlərindən keçəndə və bəzən özünü unudub çökməyə doğru gedəndə, katarsis yaşamalı olur ki, təkrar özünə qayıtsın. Azərbaycan xalqı da müstəqillik qazanandan bəri iki dəfə katarsizdən keçib. Onu da əlavə edək ki, adətən belə ağır anlardan sonra xalq iki cür proses yaşayır: ya dağılıb pərən-pərən düşür, ya da birləşib yumruq olur, qəzəbi ilə yeri-göyü titrədir.

Birinci katarsis 1990-cı ilin 20 yanvar gecəsi baş verdi. O vaxt imperiya ordusu silahsız xalqı cismən əzsə də, əzmini sındıra bilmədi. Ancaq dövlət başçılarının, hərəkatın önündə duran şəxslərin satqın çıxması xalqda böyük bir ruh düşkünlüyü yaratmışdı. Bu faciəni dərk edən Ulu Öndər Heydər Əliyev özünün xəstə halına rəğmən üzərinə düşən liderlik missiyasına sadiq qalıb, Azərbaycanın Moskvadakı nümayəndəliyinə gəldi, xalqla bərabər olduğunu bəyan etdi və bununla millətin birliyini qorumağa çalışdı. Lakin işin dəhşətli tərəfi bu oldu ki,1990-cı ildən 1993-cü ilə, yəni Heydər Əliyevin təkrar hakimiyyətə qayıtmasına qədər xalqın içindəki satqınlar yenə öz əməlləri ilə milləti zəhərləyə bildilər, insanları üz-üzə qoyub, qardaş qırğınının astanasına qədər gətirib çıxardılar. Yenə Ulu Öndər işə qarışdı, yenə milli birliyi qoruyub saxlamağı bacardı. Ancaq damarına qədər yeridilən zəhərdən millət uzun illər qurtula bilmədi. Yəni birinci katarsisdən sonra xalq lazımi səviyyədə toparlana, inkişaf yolunu, milli özünüdərk prosesini yaşaya bilmədi, xəbislər onu içindən parçalamağa çalışdı. Təbii ki, Azərbaycanın 20 faizinin işğal altına düşməsi, bir milyon qaçqın və köçkünün olması insanların ruhunu çökdürürdü, şübhə toxumunu cücərdib böyüdürdü. Belə bir şəraitdə sanki ziyalılar da pərən-pərən düşmüşdü, bir-birindən təcrid olunmuşdu. Qarşılıqlı etibarın qazanılması, özgüvənin qayıtması, təkrar bütövləşməsi üçün millətin açıq-aşkar ikinci katarsisə - Qələbəyə ehtiyacı var idi.

İkinci katarsis prosesi anidən baş vermədi, daha uzun müddət ərzində tədricən yetişdi. 2016-cı ilin aprelində başlayan və 2020-ci ilin sentyabr ayının 27-də zirvəsinə çatan bu proses boyu Azərbaycan xalqı sanki illər ərzində topladığı kindən, dağıdıcı eqoizmdən, ümidsizlikdən, laqeydlikdən təmizlənməyə başladı. Bunun hamısının yerində tarix boyu malik olduğu və sanki dibə çökmüş cəsarət, qardaşlıq, özgüvən hissi təkrar üzə çıxdı. Zatən xalq hər addımında, sevincində, kədərində Liderini - İlham Əliyevi öz yanında gördükcə, sanki nüvə kimi onun ətrafında sıx birləşməyə başlamışdı. Və onun bir çağırışı ilə bu dəfə yumruq möhkəm düyünləndi və düz hədəfə endi. Əslində hünər həmin barmaqları birləşdirən, beş barmağı yumruğa döndərən biləyin möhkəmliyində, gücündə oldu. Sentyabrın 27-də isə həmin yumruqla bərabər xalqın ruhu da ayağa qalxdı, illərlə əyilmiş qamətini düzəltdi. İstər sosial şəbəkələrdə paylaşdığı statuslarda, istər yazdığı məqalələrdə, etdiyi çıxışlarda hər kəs bir-birindən xəbərsiz eyni arzu, niyyəti, eyni cəsarəti və birliyi dilinə gətirdi. Millət bir günün içində öz böyüklüyünə təkrar inandı, bunun canlı şahidi oldu və yumruğunu qələbə naminə düşmənin üzərinə endirmək üçün səfərbər oldu. Bu qüdrətin verdiyi əzmlə Prezident dünyaya bəyan etdi ki, "Biz haqq-ədalət tərəfindəyik. Biz tarixin ən şərəfli anlarını yaşayırıq. Azərbaycan xalqı qədim xalqdır. Bizim tariximizdə bir çox şərəfli anlar olub, hadisələr olub, qələbələr olub. Onların sırasında bugünkü hadisələr xüsusi yerdədir. Biz ədaləti bərpa edirik, ərazi bütövlüyümüzü bərpa edirik, Azərbaycan xalqının ümidlərini doğrulduruq və bundan sonra da doğruldacağıq".

## Keçmişi təsdiqləyən bugünümüz

Bu gün Vətənin bütövləşməsi, sərhədlərinin bərpa olunması uğrunda heç kim kənarda qalmağı öz vicdanına sığışdırmır, bütün irili-xırdalı sualları arxa plana itələyib öndə yalnız bir problemi saxlayıb - Qarabağ. Bu gün şanlı Milli Ordumuz əcdadları yatan torpağın şərəfini qoruyur. Təsadüfi deyil ki, Azərbaycan qədimdən bəri hər zaman olduğu mühitin, coğrafi ərazinin aparıcı, öndə duran mütərəqqi qüvvəsi olub. Bu gün də o, yalnız öz Vətənini deyil, bütün ərazinin təhlükəsizliyini təmin edir, bəşəriyyəti erməni işğalçı adlı bədxassəli şişdən xilas etməyə çalışır. 30 il tədricən özünə gələn, dərin katarsisdən keçən bir xalq bu gün ayağa qalxıb.

Həqiqi Lider öz xalqının daxilindəki bütün potensialı görən və lazımi anda onu üzə çıxara bilən şəxsdir. Plutarxın dediyinə görə, "əgər filosoflar insan xarakterində ibtidai qəddarlığı əhliləşdirməyi özlərinin ən böyük xidməti hesab edirlərsə, o zaman böyük miqdarda tayfaları yenidən tərbiyə etdiyinə görə, İsgəndər ədalətlə böyük filosof hesab edilməlidir". Bu gün Azərbaycan Ordusu bütöv bir regionu ibtidai qəddarlıqdan təmizləmək missiyasını öz üzərinə götürüb və Ali Baş Komandan üzünü bütün dünyaya tutub öz mövqeyini mərdmərdanə bildirdi: "Hesab edirdilər ki, Azərbaycan xalqı və mən - Azərbaycan Prezidenti bu vəziyyətlə barışacağam?! Hesab edirdilər ki, bizim müqəddəs şəhərimiz olan Şuşa erməni tapdağında qalacaq, mən bununla barışacağam?!" O, əmin idi ki, xalqın ruhu artıq ayaq üstədir və əmri gözləyir. Bu gün bütün ümidlər Ali Baş Komandana və onun rəhbərliyi ilə hər an həlledici zərbəni endirməyi bacaran Azərbaycan əsgərinədir. Söhbət ön cəbhədə, səngərdə düşmənlə üz-üzə duran oğullarımızdan gedir. Ancaq heç şübhəsiz, bu gün hər bir vətəndaş özünü əsgər, olduğu mövqeni isə səngər hesab edir, Vətən uğrunda əlindən gələni əsirgəmir. Cəbhədə topun, raketin yeri-göyü lərzəyə salıb, düşməni arxasına baxmadan qaçmağa məcbur etdiyi, bir sözlə, meydan silahın olduğu bir vaxtda ziyalı da əsgərdir, silahı isə qələmdir.

## Qılıncı ilə qələmi bir-birini tamamlayan millət!

Katarsisdən sonra ziyalının məsuliyyəti təmizlənmiş, ucalmış mənəviyyatının düzgün istiqamətdə irəliləməsini, paklığını qoruyub inkişaf etməsini təmin etmək, milli kimliyini kölgəyə düşməkdən qorumaqdır. Azərbaycanın qılıncı ilə qələmi həmişə tarazlığını qoruyub. Düzdür, hər zaman deyirlər ki, türklər tarixi yaradır, başqaları isə o tarixi yazır. Ancaq həqiqət olan budur ki, türklər yalnız tarixi deyil, düşüncənin, mənəviyyatın mahiyyətini də yazır.

Heç bir epos müharibə prosesində yaranmır. Adətən döyüşlər zamanı əvvəlki zəfərlər haqqında nəğmələr oxunur və onlara istinadən bugünün qəhrəmanına tərifnamələr deyilir. Döyüşlərdən sonra isə onun haqqında yeni nəğmələr, dastanlar qoşulur. Azərbaycan Prezidentinin "Twitter" səhifəsində sanki həmin dastanların yaranması üçün mühitin olacağı xəbəri verildi: "Biz işğaldan azad olunmuş torpaqlarda şəhərlər quracağıq, həmin yerləri cənnətə çevirəcəyik. O torpaqlar canlanacaq, ora həyat, uşaqların təbəssümü qayıdacaq. Azərbaycan vətəndaşları o torpaqlarda ləyaqətlə yaşayacaqlar". İlham Əliyev Ali Baş Komandan kimi yumruğunu düşmənin başına endirməyi də bacarır, dövlət başçısı, xalqın xoş gününü fikirləşən Lider kimi o torpaqlarda yaşanacaq ləyaqətli həyatın proqnozunu verməyi də, ümid yaratmağı da bilir.

Tarixi yaradan, oxunun çatdığı, atının dırnağının qopartdığı torpaqlarda özünü azad hiss edib, özünə Vətən quran bir millət qələmi ilə də könülləri, düşüncələri fəth etməyi bacarıb. Buna nümunə kimi islam sivilizasiyasını yaradanların sırasındakı çoxsaylı azərbaycanlı mütəfəkkir və alimləri göstərmək yetər. Ziyalılar xalqın mənəviyyatının qoruyucuları, irəli aparanlarıdır. Qılıncla irəliləyən bir xalqın qələmi onun arxası ilə çatmayanda, başqa qələm onun yerinə yazıb həmin möhtəşəm qüvvəni, potensialı digər məcraya yönəldə, öz maraqları yolunda istifadə edə bilir.

Qəhrəmanlar hər nə qədər təkbaşına xalqın taleyində həlledici rol oynasalar da, onlar cəmiyyət arasındadırlar, xalqın içindədirlər. Əslində, onları qəhrəman edən məhz xalqa söykənmələri, xalqının dəyərini ürəyində saxlamalarıdır. Onlar xalqı birləşdirən, cəmiyyəti möhkəmləndirən nüvədirlər. Bu nüvə nə qədər sağlam olursa, onun ətrafında yaranan orqanizm də bir o qədər möhkəm və qüdrətli olar.

Bu gün Azərbaycan haqq və ədaləti bərpa edir, "xəritədəki qara" ləkəsini təmizləyir, əyilmiş qamətini düzəldir və ölkə Prezidentinin də dediyi kimi, "biz bu gün xalqımızın və dövlətimizin yeni tarixini yazırıq, şanlı tarixini yazırıq", gələcək nəslin oxuyub öyrənəcəyi, qürur duyacağı bir tarixi.

***Könül BÜNYADZADƏ,***
***AMEA-nın müxbir üzvü***

AZPETROL

Azpetrol Şirkəti
*Azərbaycan xalqını*
**18 Oktyabr - Dövlət Müstəqilliyi Günü**
*münasibətilə təbrik edir, əmin-amanlıq,*
*birlik, firavan həyat və xoş gələcək,*
***Şanlı Ordumuza Böyük Qələbə arzulayır!***




QARABAĞ AZƏRBAYCANDIR!




# Əbədi və sarsılmaz müstəqillik

## Heydər Əliyevin memarı olduğu müasir Azərbaycan dövləti İlham Əliyevin rəhbərliyi ilə tarixinin növbəti şərəfli mərhələsindən keçir

Azərbaycanın dövlət müstəqilliyinin bərpasından 29 il ötür. Əvvəlki illərdən fərqli olaraq, xalqımız bu dəfə müstəqilliyimizin bərpasının ildönümünü tamamilə başqa əhvali-ruhiyyədə qarşılayır. Çünki budəfəki ildönümü Azərbaycanın müstəqillik tarixinin olduqca şərəfli səhifələrinin yazıldığı bir dövrə təsadüf edir. Növbəti ildönümünü ordumuzun işğal altında olan torpaqlarımızı erməni işğalından təmizlədiyi vaxtda qeyd edirik.



### Ulu Öndərin xilaskarlıq missiyası müstəqilliyimizi əbədi etdi

1991-ci il oktyabrın 18-də Ali Sovetin sessiyasında "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı"nın qəbul olunması respublikamızın tarixində yeni dövrün başlanğıcını qoydu. Həmin tarixdən xalqımız özünün 71 il əvvəl itirilmiş azadlığına yenidən qovuşdu, Azərbaycanın müstəqil dövlət olması bütün dünyaya bəyan edildi. Lakin digər respublikalardan fərqli olaraq, Azərbaycanı müstəqilliyə aparan yolllar hamar olmadı. Xalqımız bu yolda çox qurbanlar verdi, çox əziyyətlər çəkdi. Ona görə bu azadlıq ən uca milli qürur mənbəyi kimi bizim üçün əvəzsiz bir dəyərdir.

Azərbaycanın dövlət müstəqilliyinin elan edilməsi cəmiyyətimiz tərəfindən nə qədər böyük coşqu və sevinclə qarşılansa da, sonrakı dövrdə baş verən neqativ siyasi proseslər xalqımızın azadlıq ideyalarını şübhə altına almışdı. 1991-1993-cü illərdə hakimiyyətdə olan iqtidarlar Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi üçün nəinki bir iş görmədilər, əksinə, ölkəni dünyada gedən proseslərdən uzaq salaraq təklənməsinə, təcrid edilməsinə səbəb oldular. Hakimiyyət çəkişmələrinin məntiqi nəticəsi kimi cəbhədəki uğursuzluqlar və daxildə separatçı meyillərin güclənməsi dövlətçilyimizin və müstəqilliyimizin məhvini qaçılmaz edirdi.

Belə bir ağır və mürəkkəb dövrdə xalqın təkidli tələbi ilə böyük siyasi təcrübəyə malik olan Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışı Azərbaycanın dövlət müstəqilliyinin qorunub saxlanmasına və möhkəmləndirilməsinə xidmət edən başlıca amil oldu. Xalqımızın dahi oğlunun siyasi hakimiyyətə gəlişi ilə respublikamızın 1920-ci ildəki aqibətinin təkrarlanması təhlükəsi aradan qalxdı.

1991-ci ildən 1993-cü ilin iyun ayına qədər cərəyan edən proseslər göstərdi ki, müstəqilliyi qorumaq onu bərpa etməkdən daha çətin imiş. Əgər Xalq Cümhuriyyəti əsrin əvvəllərində cəmi 23 ay yaşamışdısa, əsrin sonlarında dövlət müstəqilliyini bərpa edən Azərbaycan cəmi 18 aya nəinki müstəqilliyini, bütövlükdə, dövlətçiliyini itirmək, parçalanmaq, dövlət kimi siyasi səhnədən silinmək təhlükəsi ilə üzləşmişdi. Məhz Heydər Əliyevin qətiyyəti və uzaqgörən siyasəti nəticəsində ölkəmiz Xalq Cümhuriyyətindən fərqli olaraq, mürəkkəb vəziyyətdə öz müstəqilliyini və suverenliyini qoruması bacardı. Ulu Öndərin adı isə müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu kimi tarixə həkk olundu, xalqımızın Ümummilli Liderinə çevrildi.

"Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı"nın müddəaları da Heydər Əliyevin müdrik və uzaqgörən siyasəti sayəsində real həyata vəsiqə aldı. Ulu Öndər xalqımızı çoxdan arzusunda olduğu əsl müstəqilliyinə qovuşdurdu.

### İnkişaf və yüksəliş

Ulu Öndərin layiqli siyasi davamçısı Prezident İlham Əliyevin uğurlu fəaliyyəti nəticəsində müstəqilliyimizin siyasi və iqtisadi sütunları daha da möhkəmlənib. Azərbaycan bu gün dünyanın qüdrətli dövlətlərindən birinə çevrilib. Bunun fonunda müstəqilliyimizin möhkəm olması daha aydın görünür. Azərbaycanın bölgənin lideri olması, tam müstəqil siyasət həyata keçirməsi, ərazisində heç bir dövlətin hərbi kontingentinin olmaması, böyük güclərin maraqlarını öz maraqları ilə uzlaşdırması, beynəlxalq tədbirlər mərkəzinə çevrilməsi, son illərdə kosmik klubun üzvləri sırasına daxil olması bu qüdrətin ayrı-ayrı möhtəşəm tərəfləridir. Bir neçə il əvvəl Azərbaycanın BMT Təhlükəsizlik Şurasına sədrlik etməsi də müstəqilliyin və müstəqil siyasətin nəticəsi idi.

Prezident İlham Əliyevin qətiyyəti sayəsində Azərbaycanın neft strategiyasının uğurla həyata keçirilməsi, yeni enerji layihələrinin işə düşməsi, o cümlədən iqtisadiyyatın digər sahələrində yeni layihələrə start verilməsi məhz müstəqil siyasətin və müstəqil dövlətçiliyin bəhrələridir. Xalqımız özünün iqtisadi resurslarının, təbii sərvətlərinin tam sahibidir və bunlardan rifahı naminə səmərəli istifadə edir.

Müstəqilliyin bizə bəxş etdiyi ən böyük imkanlardan biri də inkişaf və yüksəlişdir. Məsələn, bu gün Azərbaycanın ən ucqar dağ rayonlarına təbii qazın verilməsi, avtomobil yollarının olmadığı kəndlərə asfalt yolların çəkilməsi yalnız müstəqilliyimizin bəhrələridir. 70 illik sovet hakimiyyəti illərində bunların heç biri edilməmişdi.

Bütün bunlar həm də Azərbaycanın inamla addımladığı yoldan xəbər verir. Bu yol müstəqil Azərbaycan dövlətinin daha da qüdrətlənməsinə, xalqımızın daha güclü rifahına aparır. Müstəqil siyasət yeridən Azərbaycanın yalnız regionda deyil, beynəlxalq miqyasda söz sahibi olan ölkə kimi tanınması, Prezident İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli siyasət, qazandığımız bütün uğurlar əminliklə söyləməyə əsas verir ki, Azərbaycanın müstəqilliyi Ulu Öndər Heydər Əliyevin dediyi kimi, dönməzdir, əbədidir, daimidir.

### Böyük qələbə müstəqilliyimizə tarixi töhfə olacaq

Bu günlərdə Azərbaycanda müstəqilliyin nümunəsi olan növbəti tarixi hadisənin təntənəsi yaşanmaqdadır. Ermənistanın işğalı altında olan ərazilərimizin azad edilməsi üçün başlanan Vətən müharibəsi ordumuzun uğurları ilə davam edir. Bu hərbi əməliyyatların, sivil davranışlardan uzaq olan Ermənistanı cəzalandırma tədbirlərinin həyata keçirilməsinin özü Azərbaycanın sözün bütün mənalarında müstəqil dövlət olduğunu, müstəqil siyasət yürütdüyünü dünyaya nümayiş etdirdi.

Bu günlərdə Azərbaycana qarşı beynəlxalq miqyasda çox təzyiq edilir. Lakin Prezident, Ali Baş Komandan İlham Əliyev bu təzyiqlərin qarşısını əzmlə alır, dövlətimizin milli maraqlarını, xalqımızın mənafeyini inamla, qətiyyətlə, müvəffəqiyyətlə müdafiə edir. Ermənistandan fərqli olaraq, Azərbaycan başqa dövlətlərə kömək üçün yalvarmır. Budur müstəqillik, budur müstəqil dövlətçilik. Yekdilliklə İlham Əliyevin ətrafında səfərbər olan xalqımız əmindir ki, hərbi əməliyyatlar ərazi bütövlüyümüzün bərpası ilə başa çatacaq. Qarşıda bizi gözləyən böyük qələbə Azərbaycanın dövlət müstəqilliyinə tarixi töhfə olacaq.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# İrəli, Azərbaycan əsgəri!

Ordumuzun Ermənistan silahlı qüvvələrinin növbəti təxribatına cavab olan əks-hücum həmləsinin ilk saatlarından düşmən yaşayış məntəqələrimizi hədəfə alıb. Elə gün olmur ki, qarşı tərəfdən kənd və şəhərlərimizə yüzlərlə artilleriya zərbələri endirilməsin. İndiyədək minlərlə ev ya dağıdılaraq yararsız vəziyyətə düşmüş, ya da ciddi zədələrə məruz qalmışdır. Təəssüf ki, dinc əhali arasında ölənlər və yaralananlar da vardır.

Buna baxmayaraq, Ali Baş Komandan İlham Əliyevin polad iradəsi sayəsində Azərbaycan Ordusu zəfər yürüşünü inamla davam etdirir. Əmr dəyişməzdir - yalnız irəli! İşğal altındakı torpaqlarımızın son qarışını azad etməyincə, uğrunda candan keçməyə hazır olduğumuz üçrəngli, ay-ulduzlu müqəddəs bayrağımızı Ağdamda, Şuşada, Xankəndidə, Laçında, Qubadlıda, bir sözlə, bütün Qarabağda ən uca zirvələrə sancmayınca durmağa, nəfəs dərməyə haqqımız yoxdur.

30 il nisgillə döyünən, sevincə həsrət qalan ürəyimiz bu gün çox qürurludur. Hərəsi bir evin çırağı, bir ailənin ümidi olan oğullarımız - qəhrəman Azərbaycan əsgəri bu gün döyüş meydanında şanlı tarix yazır.

Cəbhədən qələbə soraqlı xəbərlər gəlir. Ordumuz sürətlə irəliləyir. İllərdən bəri yolumuzu həsrətlə gözləyən kəndlərimiz, şəhərlərimiz birbirinin ardınca düşmən tapdağından azad olunur. Azərbaycan əsgəri bu ərazilərdəki düşmən bayrağını endirib ayaqlar altına atır, yerinə ay-ulduzlu bayrağımızı sancır, bizlərə qürurlu anlar yaşadır.

Bu gün xalqımız Qarabağda tökülən nahaq qanların qisasını almaq, hesabını sormaq üçün yumruğa çevrilib. İndiyədək doğma dədə-baba torpaqlarımızda oturub bizə hədyanlar deyən, qarşımıza şərtlər qoyan ermənilər arxalarına baxmadan qaçırlar. Döyüş meydanlarında hərbi texnikalarını, silah-sursatlarını qoyub gizlənməyə yer axtarırlar. Cıdır düzündə yallı gedən Paşinyan indi ilan dili çıxarıb dünyanın nüfuzlu dövlətlərinə yalvarır ki, amandı, durdurun müharibəni, türklər məzlum erməni xalqını qırır. Bəs dünyanın da tanıyıb qəbul etdiyi Azərbaycan torpaqlarını 30 il işğalda saxlayıb, milyonlarla insanı isti yuvasından, doğma ev-eşiyindən perik salıb öz vətənində köçkünə çevirəndə nə vaxtsa səndən hesab sorulacağı, haqq-hesab çəkiləcəyi barədə niyə düşünmürdün? "Qarabağ Ermənistandır" deyib sonunda da nöqtə qoyan müştəbeh, indi Qarabağın əsl sahibi olan Azərbaycan əsgərinə döyüş meydanında cavab ver, görüm necə verirsən!

Döyüş meydanında kişilər, ərlər döyüşər. Ermənilər isə döyüş meydanında duruş gətirə bilməyib qaçır, amma son nəfəsində də namərdliyindən əl çəkməyib yaşayış məntəqələrimizi, dinc əhalimizi hədəf alır, kəndlərimizi, şəhərlərimizi atəşə tuturlar. Amma unudurlar ki, Azərbaycan xalqını qorxutmaq mümkün deyil. Çünki bu günlər on milyon ürək yalnız bir arzuyla, bir amalla döyünür - Qələbə!

Bu səbəbdən arxa cəbhədə də işlər həmişə olduğundan daha səmərəli, daha yaxşı gedir. Ağ örpəkli tarlaların bol məhsulu min bir həvəslə yığılır, tədarük məntəqələrində cərgələnən pambıq tarlalarının sayı sürətlə artır. Gələn ilin məhsulu üçün təsərrüfatlarda taxıl səpini də uğurla davam edir. Fabrik və zavodlar ahəngdar işləyir.

Bu gün qələbəmizi şərtləndirən ən əsas amil odur ki, xalq-ordu birliyi bütün zamanlarda olduğundan daha monolitdir, daha güclüdür, daha sarsılmazdır. Düşmənin artilleriya və raket hücumlarına hədəf olan Gəncə, Mingəçevir, Yevlax, Bərdə, Ağdam, Tərtər, Beyləqan, Ağcabədi və digər bölgələrdə mülki əhali arasında həlak olanlar, yaralananlar olsa da, kəndlərimiz, şəhərlərimiz dağıntıya məruz qalsa da, əhvali-ruhiyyə yüksəkdir. Bunu qələbə sevinci duyulan baxışlardan, fərəh oxunan çöhrələrdən, evlərin balkonlarından, avtomobillərdən asılan bayraqların qürurverici mənzərəsindən aydın görmək olar. Bu gün hər ailə süfrəsinin halal çörəyini Azərbaycan əsgəriylə bölməyə hazırdır. Şəkidə yaşlı bir kişinin öz pensiyasını Müdafiə Fonduna keçirməsi hər kəsi duyğunlandırdı...

İrəli, Azərbaycan əsgəri! Cənnət Qarabağımızın azadlığı uğrunda bu müqəddəs savaşda ürəyi səninlə birgə döyünən vətən sevdalı milyonlar Qələbə təşnəsidir. Bizi zəfərinlə sevindir, əsgər oğlum! Azadlıqdır sənə məlhəm, mənə dərman, Azərbaycan!

***Lazım QULİYEV,***
***"Azərbaycan"***







## Biz birlikdə güclüyük!

# Karantin tələblərinə əməl olunması həm də ordumuza dəstəkdir

## Qarabağ uğrunda döyüşlərdə olduğu kimi, koronavirusla mübarizədə də həmrəylik nümayiş etdirməliyik

Koronavirus planetin bir nömrəli problemi olaraq qalmaqda davam edir. Son günlər əksər ölkələrdə vəziyyət daha da pisləşib, bəzilərində isə nəzarətdən çıxıb. Əslində, bu artım gözlənilən idi. Çünki hələ avqust ayında mütəxəssislər proqnozlaşdırırdı ki, oktyabr-noyabr aylarında dünyada koronavirusa yoluxanların sayı artacaq. Bunun da əsas səbəbləri iqlim dəyişikliyi, havaların soyuması, rütubətin artması, payız-qış dövründə immunitetin zəifləməsidir.

Təəssüf ki, son günlər Azərbaycanda da koronavirusla əlaqədar vəziyyət yenidən gərginləşib. Bir neçə həftə əvvəl koronavirusa yoluxma ilə bağlı müsbət dinamika var idisə, son günlərdə gündəlik yoluxma mənfi tendensiyaya yönəlib. Yoluxmanın artmasında yuxarıda sadalanan obyektiv səbəblərlə yanaşı, qaydalara ciddi riayət edilməməsi kimi faktorlar da rol oynayıb. Etiraf edək ki, son vaxtlar hər kəsin diqqəti, fikri ön cəbhəyə, Azərbaycanın haqq savaşına yönəldiyinə görə koronavirus anlayışı aktuallığını itirdi, arxa plana keçdi. Xüsusən cəbhədə uğurlu əməliyyatların olması, vətəndaşlarımızın bu məsələyə münasibəti koronavirusla mübarizəni bir qədər arxa plana keçirdi. Vətəndaşlarda virusa laqeydliyin yaranması, xüsusi karantin rejiminə, gigiyena qaydalarına riayət olunmaması, maskadan istifadənin azalması, məsafə saxlanmaması da çətinliklə əldə olunmuş müsbət dinamikanın yenidən itirilməsinin və xəstəliyin sürətlə yayılmasının əsas səbəbidir.

Ticarət, məişət-iaşə obyektlərində, ictimai nəqliyyatda qayda pozuntularının artıq bir çox insanları narahat etməməsi əsassız arxayınlığın göstəricisidir. Məhz bu faktorlar Azərbaycanda COVID-19 infeksiyasına yoluxma hallarında kəskin artıma, sanitar-epidemioloji vəziyyətin pisləşməsinə təsir edib. Nazirlər Kabineti yanında Operativ Qərargah da sanitar-epidemioloji vəziyyəti, koronavirusa yoluxmuş aktiv xəstə sayı və yoluxma sürətini əsas götürməklə xüsusi karantin rejimi çərçivəsində bir sıra məhdudiyyətlərin tətbiq olunmasına qərar verib. Belə ki, 19 oktyabrdan 2 noyabradək ölkə üzrə bütün təhsil müəssisələrində tətil elan olunub. Həmin müddətdə Bakı metropolitenində sərnişindaşıma fəaliyyəti dayandırılıb. Nazirlər Kabinetinin müvafiq tapşırığına əsasən, dövlət qurumlarında çalışan işçilərin say həddi 30 faizədək azaldılaraq digər əməkdaşlar məsafədən iş rejiminə keçirilib.

Operativ Qərargah vətəndaşlarımıza çağırış edib ki, COVID-19-la bağlı hazırkı vəziyyətdə şəxsi gigiyenaya, eləcə də tibbi-profilaktik qaydalara, mövcud karantin şərtlərinə ciddi




əməl etsinlər, qoruyucu maskaları mütləq və düzgün taxsınlar, evdən yalnız zəruri ehtiyac yarandıqda çıxsınlar, ictimai yerlərdə kənar şəxslərlə minimum kontaktda olsunlar.

Ötən aylar ərzində hamı koronavirusla mübarizədə əməl edilməli vacib qaydalarla yaxından tanışdır. İndi bu qaydaları vərdişə, həyat normasına çevirmək zəruridir. Vətəndaşlar kütləvi toplantılardan çəkinməli, bazarlar, supermarketlər və digər yoluxma ehtimalı yüksək olan yerlərdə xüsusilə diqqətli olmalıdırlar. Heç kəs unutmamalıdır ki, koronavirusla mübarizədə fəal olmaq, xüsusi karantin rejiminin qaydalarına riayət etmək həm də cəbhədə döyüşən əsgərlərimizin sağlamlığı üçün vacibdir. Sıravi vətəndaşlar tez-tez cəbhə zonasına yollanır, hərbçilərimizə dəstək göstərirlər. Qaydalara əməl etməyən şəxslərin əsgərlərlə təmasda olması hərbi qulluqçularımızın sağlamlığı, ümumilikdə isə, ordumuz üçün ciddi təhlükədir. Eyni zamanda bu, xəstəxanaların yüklənməsinə, tibbi kadr çatışmazlığına, nəticədə yaralı əsgərlərin müalicəsində çətinliklər yaranmasına səbəb olar. Xəstəxanaların, tibb işçilərinin diqqəti cəbhəyə yönəldiyi bir dövrdə onları bu vacib missiyadan ayırmaq olmaz.

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) Xəstəliklərin profilaktikası və kontrolu şöbəsinin müdiri Yaqut Qarayeva söyləyib ki, sentyabrın 28-dən başlayaraq TƏBİB-in İdarə Heyətinin üzvləri başda olmaqla, xüsusi işçi qrupları cəbhə bölgəsindədir. Düşmən tərəfindən durmadan atəşə məruz qalan bölgələrdə, şəhərlərdə bütün xəstəxanalar fəaliyyət göstərməkdədir. Bu xəstəxanalarda həm Bakıdan ezam olunan, həm də könüllü şəkildə xidmət göstərmək üçün gedən həkim və tibb işçiləri, tibb bacıları var. Onlar canla-başla əsgərlərimizin qulluğunda durmağa hazırdırlar. Xüsusi işçi qrupu hərbi qulluqçulara, əsgərlərə göstərilən tibbi xidmətin keyfiyyətinə, təxliyəsinə xüsusi nəzarət edir. Belə vəziyyətdə koronavirus xəstələrinin sayının artması tibb işçiləri üçün ikinci cəbhənin açılması deməkdir.

Bəli, hazırda sıravi vətəndaşların orduya verəcəyi ən böyük dəstək qaydalara əməl etməsi, diqqətli olmasıdır. Ordumuzun Ermənistanın təcavüzünə qarşı uğurlu əks-hücum əməliyyatları apardığı zamanda hər birimiz virusun geniş yayılmaması üçün qorunma tədbirlərinə əməl etməklə dövlətimizə, əsgərlərimizə dəstək vermiş olarıq. Əsgərlərimiz Vətən uğrunda mətinlik, güclü iradə və əzm nümayiş etdirir, ən azı onların sağlamlığı naminə sadə qaydalara əməl etmək vətəndaşlıq borcu olmalıdır. Qarabağ uğrunda gedən döyüşlərdə yumruq kimi birləşən xalqımız koronavirusla mübarizədə də həmrəylik nümayiş etdirməlidir.

***Xəyalə MURADLI,***
***"Azərbaycan"***

# Qaydalara əməl edək ki, özümüzü və yaxınlarımızı qoruya bilək

Son günlər COVID-19-la bağlı açıqlanan rəqəmlər ürəkaçan deyil. Çünki nəticələr bir çox ölkələrdə yoluxma hallarının artğını göstərir. Təəssüf ki, Azərbaycan da bu sırada yer alıb. Belə ki, ötən gün ölkəmizdə COVID-19-a yoluxanların sayının 500-ü keçdiyi barədə məlumat verilib.

Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycandakı nümayəndəsi Hande Harmancı bu rəqəmlərin daha da artacağını proqnozlaşdıraraq səbəbini belə açıqlayıb: "Çünki insanları bir araya gətirəcək çətin günlər yaşayırıq. Bir araya gələn zaman isə COVID-i düşünmürük. Ehtimal edirik ki, qış aylarında virusla bağlı artım yayda yaşadığımız pik həddən daha yüksək olacaq".

ÜST nümayəndəsinin qeyd etdiyi kimi, Azərbaycan koronavirusa qarşı ən birinci tədbir görən ölkələrin sırasındadır. Mart ayının əvvəlindən etibarən məktəblər bağlandı. Karantin rejimi tətbiq olundu. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın Azərbaycanda koronavirus pandemiyasına qarşı mübarizə tədbirləri ilə bağlı tapşırıq və göstərişlərinə uyğun olaraq, epidemiyaya qarşı işlərin genişləndirilməsi məqsədilə kompleks tədbirlər həyata keçirildi. Şənbə və bazar günləri paytaxtda və regionlarda geniş dezinfeksiya işləri aparıldı və bu, davam etdirilir.

Ölkəmizdə COVID-19 infeksiyasının yarada biləcəyi təhlükənin qarşısının alınması istiqamətində həyata keçirilən tədbirlər, əhalinin tətbiq olunan karantin və gigiyena qaydalarına məsuliyyətlə əməl etməsi müsbət nəticəsini verdi. İyul ayının statistikası yoluxma hallarının kəskin azaldığını, stabilləşməsinə nail olunduğunu göstərdi. Xəstəxanalarda olan aktiv koronavirus xəstələrinin, həmçinin reanimasiya şöbələrində olan və süni tənəffüs cihazına qoşulan xəstələrin sayının azalması da sevindirici xəbərlərin sırasında yer aldı. Ancaq ümumi vəziyyət, dünyanın bir çox ölkələrində koronavirusun hələ də tuğyan etməsi virusun geri çəkilmədiyini göstərirdi. Mütəxəssislər də xəbərdarlıq edirdilər ki, Azərbaycanda vəziyyətin nəzarət altında olması, yoluxma saylarındakı stabillik əhalini arxayınlaşdırmamalıdır. Payız fəslinin gəlişi ilə əlaqədar isə bildirildi ki, soyuq aylarda əhali ikiqat diqqətli və məsuliyyətli olmalıdır. Təəssüf ki, payız fəslinin son iki həftəsində koronavirusa yoluxanların sayında sürətli artım başladı. Bunun bir sıra səbəbləri var. Payız-qış mövsümündə COVID və digər respirator viruslar daha çox artır. İnsanlar daha çox qapalı məkanlarda olurlar. ÜST nümayəndəsi açıqlayıb: "Digər səbəb isə insanlarda bir pandemik yorğunluğun olmasıdır. Çünki fevral ayından bəri insanlara özlərini qorumaları ilə bağlı tövsiyələr edirik. Buna desensitisizasiya - həssaslığın azalması deyilir. Bu təkcə Azərbaycanda deyil, bütün dünyada müşahidə olunur. İnsanlara bu günlərdə belə mesajları vermək çətindir, amma diqqət etmək lazımdır. Həm özümüz, həm sevdiklərimiz üçün, həm də xəstəliyin daha da yayılmaması üçün".

Xatırladaq ki, dünyada koronavirusa yoluxanların sayı artıq 38 milyonu, infeksiya qurbanlarının sayı isə 1 milyonu ötüb. Bu günlərdə Avropada yoluxma sayı artmaqdadır. Fransanın Paris də daxil olmaqla, bəzi şəhərlərində saat 21:00-06:00 arası küçəyə çıxma qadağası tətbiq edilir.

ÜST nümayəndəsi deyib ki, bəzi insanlar hesab edirlər ki, COVID yoxdur, bunlar konspirasiyadır, bir qrup insan da hesab edir ki, onlar yoluxmazlar. ÜST nümayəndəsi deyib: "Hər kəs istəyir ki, COVID yox olsun, amma mən xəstələnməyim. Başqaları xəstələnsin və virus bitsin. Amma belə bir şey mümkün deyil. Əgər virus təsir edəcəksə, hamımıza təsir edəcək. Belə virus var və insanları öldürür - bunu qəbul edə bilsək, həyatımızı normal şəkildə davam etdirə bilərik".

Bu günlər çoxlarını düşündürən bir məsələ də əvvəlki kimi kütləvi qapanmaların tətbiqi ehtimalıdır. Xatırladaq ki, oktyabrın 14-dən etibarən Sabirabad şəhərinə, Sabirabad rayonunun Cavad, Türkədi, Qalağayın və Kürkəndi kəndlərinə, Şəki şəhərinə və Kiş kəndinə giriş-çıxış dayandırılıb. Bununla bağlı Baş Nazir Əli Əsədov "Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 sentyabr tarixli 336 nömrəli qərarında dəyişiklik edilməsi haqqında qərar imzalayıb. Qərara əsasən, xüsusi karantin rejimi dövründə operativ və xüsusi təyinatlı nəqliyyat vasitələrinin, habelə yükdaşıyan avtomobillərin hərəkəti istisna olmaqla, bu ərazilərə giriş qadağan edilib.

Ümumi təhsil müəssisələrinə gəlincə, COVID-19 virusuna yoluxma halları ilə bağlı Təhsil Nazirliyindən bildirilib ki, 15 şagirdin, işçi heyətdən 2 nəfərin bədən hərarəti 37 dərəcədən yuxarı olub. 21 şagird, işçi heyətdən 12 nəfər isə koronavirusa yoluxub. Bir məktəbdə əyani təhsil bərpa olunub. 7 məktəbdə və 3 sinifdə dərslər təhsilin distant formasına keçirilib.

Qeyd edək ki, respublika üzrə 30 məktəbdə və 55 sinifdə koronavirusa yoluxma hallarına görə distant təhsilə keçilib.

Ancaq ÜST nümayəndəsi deyib ki, hökumət əvvəlki kimi bütün ölkəni qapatmadan ayrı-ayrı kəndlər, məhəllələr, məktəblər səviyyəsində qapatmalara gedir: "Əvvəlki kimi qapanmaya gedilməyəcəyini düşünürəm. ÜST-ün tövsiyəsi də elə bununla bağlıdır. Nə qədər yaxından nəzarət edilsə, sürətlə yoluxmanı aşkarlaya bilsək, insanları evdə qalmağa təşviq etsək, bu xəstəliklə bir o qədər tez başa çıxa bilərik. Bütün dünyada olduğu kimi, Azərbaycanda da gündəlik çörəkpulu qazanan insanlar var. Onların işə getməməsi ailələri üçün çətinlik yaradır. Bunu Operativ Qərargah da düşünür. Hesab edirəm ki, son ana qədər bütünlüklə qapanmaya gedilməyəcək. Amma bu, hamımızın davranışlarından asılıdır. Əgər bir yerdə kütləvi yoluxma olarsa, aradan qaldırmaq üçün tədbirlər görüləcək".

Cəmiyyətin maraqla gözlədiyi məsələlərdən birinə - vaksinə Hande Harmancı belə münasibət bildirib: "Biz vaksini səbirsizliklə gözləyirik. Hazırda yüzlərlə vaksin üzərində araşdırmalar aparılır. 10 vaksin ən son mərhələdə idi, bu həftə 2-ni saxladılar. Yenidən davam ediləcəkmi, bilinmir. Əgər vaksinin bir insanda belə əks təsiri olarsa, ona yenidən baxmaq lazımdır. Vaksinlərin əks təsirləri olmamalıdır. Xüsusən uşaqlara edilən vaksinlər daha etibarlı olmalıdır. İstəyirik ki, bu ilin sonunadək ən azı 1 vaksin hazır olsun. Lakin hazırda vaksin yoxdur, virusun müalicəsi ilə bağlı da dərman yoxdur. Ona görə də məcburən qorunma qaydalarına əməl etməliyik".

Aylardır davam edən qlobal təhlükə ilə mübarizədə sayıqlıq və məsuliyyət hissinin azaldılması, ehtiyatsızlıq, məsuliyyətsizlik, biganəlik böyük fəsadlara yol açır. Bütün bunlara baxmayaraq, bəzi vətəndaşlar zəruri qayda və tələblərə laqeydlik göstərir. Sahibkarlıq subyektləri infeksiyanın yayılmasının qarşısının alınmasına zəif nəzarət edir.

Bu günlərdə virusa yoluxanların sayının kəskin surətdə artması təhlükənin nə qədər ciddi olduğunu deməyə əsas verir. Yalnız özünün deyil, bütövlükdə cəmiyyətin sağlamlığının qorunması üçün tələb olunanları həyata keçirmək isə o qədər də çətin deyil. Gündəlik qoruyucu tədbirlərə - maskadan istifadə, əl gigiyenasına, sosial məsafəyə diqqət edilməlidir.

***Zöhrə FƏRƏCOVA,***
***"Azərbaycan"***

GCM GLOBAL ENERGY AZERBAIJAN

"Global Energy Azerbaijan"
şirkəti və onun törəmə şirkətləri
Azərbaycan xalqını

"Absheron Operating Company"
"Binagadi Oil Company"
"Karasu Operating Company"
"Shirvan Operating Company"
"Neftechala Operating Company"

Dövlət Müstəqilliyi Günü
münasibətilə təbrik edir, Azərbaycanın ərazi bütövlüyünün tezliklə təmin olunmasını arzulayır!

QARABAĞ AZƏRBAYCANDIR!

Coca-Cola
Şirkəti
Azərbaycan xalqını

18 Oktyabr -
Dövlət Müstəqilliyi Günü

münasibətilə təbrik edir,
hər bir ailəyə səadət,
sevinc dolu günlər və
Azərbaycana ərazi
bütövlüyü ilə əbədi
müstəqillik arzulayır!



EKOL
MÜHƏNDİSLİK XİDMƏTLƏRİ QSC
Azərbaycan xalqını
18 Oktyabr - Dövlət Müstəqilliyi Günü
münasibətilə
təbrik edir,
Qüdrətli Ordumuza
BÖYÜK QƏLƏBƏ
arzulayır!
QARABAĞ AZƏRBAYCANDIR!

# Ön cəbhəyə dayaq olmağa çalışırıq

Ölkəmizin ərazi bütövlüyünü təmin etmək uğrunda ordumuzun zəfər yürüşü davam edir. Düşmənə sarsıdıcı zərbələr vuran Silahlı Qüvvələrimiz inamla irəliləyir, yaşayış məntəqələrimiz işğaldan qurtulur. Mətbuatın, televiziya kanallarının döyüş meydanından yaydığı qələbə soraqlı xəbərlər hər evdə, hər ailədə bayram ovqatı yaradır.

Bu gün Azərbaycanın hər güşəsi Qarabağ, hər bir ölkə vətəndaşı isə əsgərdir. Ön xətdə düşmənlə üz-üzə, göz-gözə döyüşən əsgərlərimiz, Azərbaycanın Silahlı Qüvvələri tarixinə misli görünməmiş şanlı səhifələr yazırlar. Qələbə müjdəli cəbhə xəbərləri arxada, əmək meydanında çalışanlara sevinc bəxş edir, onları yeni nailiyyətlərə ruhlandırır.

Bu günlər bütün bölgələrdə olduğu kimi, ölkənin böyük potensiala malik kənd təsərrüfatı rayonu Sabirabadda da yüksək əhvali-ruhiyyə hökm sürür, gerçək qələbə ovqatı yaşanır. Torpağa, halal zəhmətə qırılmaz tellərlə bağlı Sabirabad kəndlisi əmək meydanında hünər göstərir, ön cəbhəyə etibarlı dayaq olduğunu qazandığı yüksək nəticələrlə ortaya qoyur.

Hazırda təsərrüfat işlərinin qızğın çağıdır. Rayon iqtisadiyyatının əsasını təşkil edən pambıqçılıqda məhsul yığımı dövrüdür. Bu il 10075 hektar sahədə pambıq əkilmiş, böyük zəhmət bahasına bol məhsul yetişdirilmişdir. Məhsulu tez və itkisiz yığıb tədarük etmək üçün bütün qüvvələr səfərbərdir. Məhsul yığımında ötən illərdə olduğu kimi, yenə də texnikaya geniş meydan verilmişdir. Hazırda tarlalarda 34 pambıqyığan maşın işləyir. Hər gün rayon üzrə təxminən 650-750 ton pambıq yığılır.

Rayonun təsərrüfatlarında taxıl səpini də aparılır. Bol məhsula etibarlı bünövrə qoymaq üçün tələb olunan aqrotexniki tədbirləri keyfiyyətlə həyata keçiririk. Taxılçılarımız "Çörək bol olarsa, basılmaz Vətən!" şüarını əməli işdə doğrultmağa çalışırlar.

Bu gün Sabirabadda döyüş meydanında qələbəmizə etibarlı iqtisadi təminat yaratmaq üçün bütün qüvvələr, bütün imkan və ehtiyat mənbələri səfərbər edilmişdir.

***Heydər YAQUBOV,***
***Sabirabad rayonu Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru***

# Ermənistanın hərb və sülh davranışlarındakı saxtakarlıqları

Müharibə diplomatiyanın sonuncu addımıdır. Bu aşkar həqiqəti sağlam düşüncəsi olan heç kəs inkar edə bilməz. Müharibə ziddiyyətlərin toqquşduğu məqamdır. Həqiqətən bəşər övladı tarixin bütün dövrlərində çox müxtəlif səpkili münaqişələrin və müharibələrin ağrı-acılarını yaşamış və daim dinc münasibətlər axtarışında olmuşdur.

Statistikaya görə, dünyaya üst-üstə yalnız 250 il dinc yaşamaq nəsib olub. Ötən əsrin 90-cı illərində beynəlxalq hüquq prinsiplərinin kobud şəkildə pozulması nəticəsində yaranan ərazi münaqişələri yaşadığımız əsrin tarixləşən ilk illərində və indiki günümüzdə də, demək olar ki, danışıqlar yolu ilə həllini tapmamışdır. Məhz bu dövrə təsadüf edən münaqişələrin bolluğu bir daha təsdiqləyir ki, dövlətlərarası münasibətlərin çağdaş mənzərəsi sırf nəzəri imperativlərdən uzaq yaşam tərzinə malikdir. Bu kimi fikirlərin əsasında konfliktlərin dinamik inkişaf statistikası durur.

Əgər ötən əsrin əvvəllərində hər il iki-üç konflikt qeydə alınırdısa, 1990-1997-ci illərdə bu rəqəm 33-37 arasında olmuşdur. Yalnız XX əsrin 90-cı illərində 100-dən çox kiçik və böyük müharibə baş vermiş, bu müharibələrdə 90-dan çox ölkə (İkinci Dünya müharibəsində iştirak edən ölkələrdən xeyli çox) iştirak etmiş və 9 milyondan artıq adam həlak olmuşdur.

Bu sırada ötən əsrdən miras qalan və bu gün də öz həllini tapmayan Dağlıq Qarabağ münaqişəsi daha uzunmüddətli problem kimi özünəməxsusluğu ilə diqqəti çəkir. Birtərəfli qaydada suveren Azərbaycan dövlətinin ərazisinin 20 faizdən çoxu qəsbkarlıq niyyəti ilə qonşu Ermənistan dövləti tərəfindən təcavüzə məruz qalmış və 1 milyondan artıq dinc əhali öz yurd-yuvasından silah gücünə qovulmuşdur.

Beynəlxalq münasibətlər sistemində dövlətlərin davranışı problemi elmi-nəzəri cəhətdən yetərli dərəcədə oyrənilməyən bir istiqamətdir. Dinc dünya arzusu ilə yaşayan bəşər övladı üçün bu məqam olduqca önəmlidir. Axır dünyanın bütün dövlətləri zaman-zaman bir ailənin üzvləri olduqlarını dilə gətirməklə öz aralarındakı ziddiyyətli məqamların həllinə cəhd göstərmiş, ortaq davranış modellərinin həyata vəsiqə alması istiqamətində addımlar atmaqda israrlı olmuşlar. Bu gün tez-tez səsləndirilən beynəlxalq hüquq norma və prinsipləri də məhz beynəlxalq hüquq subyektləri olan dövlətlər arasındakı hərc-mərcliyi aradan götürmək, bir-birinin suverenlik hüququna, ərazi bütövlüyünə hörmət etmək, daxili işlərinə qarışmamaq, dinc şəraitdə yaşamaq və əməkdaşlıq etmək niyyəti daşıyır və BMT Nizamnaməsinin təməl prinsipləri kimi üzv dövlətlər üçün, sözün əsl mənasında, "əxlaq kodeksi"dir.

Təəssüflə qeyd olunmalıdır ki, bütün cəhdlərə baxmayaraq, bəşər övladı bu gün də dünya nizamını arzuladığı biçimdə qurmağda acizdir. Bu səbəbdən tədqiqatçılar arasında belə bir qənaət formalaşıb ki, dövlətlərin davranışını öyrənmək atomların davranışını öyrənməkdən də çətindir. Bu isə dünyada aqressiv və təcavüzkar dövlətlərin sirasının artması, münaqişələrin daha intensiv faktora çevrilməsinə yol açır.

Qlobal və regional təhlükəsizliyə birbaşa təhdid yaradan Dağlıq Qarabağ münaqişəsinin həllində cəsarətsizlik nümayiş etdirməklə dünyanın nüfuzlu ölkələri olan ABŞ, Fransa və Rusiyanın davranışı elmi-nəzəri cəhətdən ziddiyyətlidir. Tarixən dünya nizamını formalaşdırmaq imkanına malik olan böyük ölkələr nədənsə Azərbaycanın haqq işinə uzun bir dövrdə tutarlı dəstək verməmişlər. Halbuki buna onların imkanları var idi. Hələ üstəlik, təcavüzkar dövlətə və separatçı rejimə açıq-aşkar yardımlar göstərməklə münaqişənin ömrünü uzatmışlar, baxmayaraq ki, bu ölkələr hər biri ayrı-ayrılıqda Azərbaycanın müstəqilliyini və ərazi bütövlüyünü tanıyan, siyasi-diplomatik, iqtisadi-ticarət əlaqələri olan dövlətlərdir.

Azərbaycanın öz torpaqlarını işğaldan azad etmək cəhdlərinə 30 ilə yaxın bir dövrdə kölgə salan Minsk qrupunun həmsədrləri olan bu dövlətlərin münaqişənin həll olunmasına maraqsızlığı əslində beynəlxalq münasıbətlər nəzəriyyələrindəki bəzi boşluqlardan qaynaqlanır. Belə bir hipoteza mövcuddur: "Həll olunmayan münaqişə yoxdur. Buna vaxt tələb olunur. Vaxta kömək etmək lazımdır". Bu ritorika ilə uzun bir dövr erməni dəyirmanına su tökən və bu gun də haray çəkib status-kvonu münaqişənin həlli üçün vacib sayanlar yenə də vaxt qazanmaq cəhdindədirlər. Ötən illər ərzində düşmən torpaqlarımızda istehkamlar qurub, hərbi güc cəmləşdirib, məskunlaşma siyasəti aparıb, tarixi abidələrimizə, mədəni irsimizə münasibətdə əsl vandalizm siyasəti yeridiblər. Azərbaycan tərəfi ən mötəbər tribunalardan öz haqq səsini ucaltsa da, buna məhəl qoymayıblar. Azərbaycanın beynəlxalq arenada qazandığı pozitiv imic, topladığı guc, apardığı siyasət kimlərinsə ağrısına səbəb olub. Diplomatiyada ən çətini dillə deyilməyəni anlamaqdır.

Təcavüzkar dövlət və onun havadarları papaqlarını ortaya qoyb Azərbaycanın hansı davranış nümayiş etdirəcəyini anlasaydılar, bu gün qapı-qapı düşüb dilənməz, yalvarmazdılar. Çünki Prezident İlham Əliyev həmsədr dövlətlərin davranışının qərəzli olduğunu dəfələrlə və qətiyyətlə səsləndirərək Azərbaycan torpaqlarının bir qarışının da danışıqların predmeti olmayacağını bildirmişdi. Ermənilərə "Qarabağ Azərbaycandir!" mesajı çoxdan verilmişdi. Beynəlxalq münasibətlər nəzəriyyələrində indi dövlətlərin davranışı onların başçılarının davranışı ilə eyniləsdirilir. Aydınlıq üçün bildirək ki, dövlətlərin davranış normaları yalnız siyasi öhdəlikdir, yəni hüquqi akt deyildir.

Hələ ötən əsrin 70-ci illərinin əvvəllərində ingilis siyasətçisi Neydjel Forvard dövlət başçılarının qərar qəbul etməsinə təsir göstərən 6 əsas amili göstərmişdi: milli bütövlüyün, yəni dövlətin suverenliyinin qorunması; milli təhlükəsizliyin, ilk növbədə hərbi təhlükəsizliyin təmin olunması; dövlətin beynəlxalq münasibətlər sistemində öz obrazını formalaşdırması və qoruması; diqqəti cəlb etmək; dövlətin beynəlxalq hüquq subyekti olaraq öz öhdəliklərini yerinə yetirmək iqtidarında olmasını nümayiş etdirmək və eyni dərəcədə təhdid yaratmaqla öz çəkisini qoruyub saxlamaq; beynəlxalq davranışın standartlarına, norma və prinsiplərinə hörmət nümayiş etdirmək.

Biz bugünkü Azərbaycan reallıqlarını göstərilən ardıcıllıqla dəyərləndirsək, Prezident İlham Əliyevin fəaliyyətinin son dərəcə uğurlu olduğunu görərik. Onun dövlətin maraqlarının hərtərəfli təmin olunması səmtində düzgün qərar qəbul etmək bacarığı Azərbaycanın qısa zaman biçimində qüdrətli dövlətə çevrilməsinə zəmin yaratmışdır. Biz xoşbəxt xalqıq ki, dövlətimizin başında sözü və əməlləri üst-üstə düşən İlham Əliyev kimi şəxsiyyət dayanır. Bu gün İlham Əliyevin Ali Baş Komandan kimi qəbul etdiyi bütün qərarlar xalq tərəfindən alqışlanır və bizi zəfər gününə yaxınlaşdırır.

Bu gün Qarabağda yüzlərlə əsgərini itirən, döyüş texnikasını qoyub qacan düşmən və onların ağılsız rəhbərliyi biməliydi ki, aqibətləri elə belə olmalı idi. Artıq dalana qısılan təcavüzkar "Torpaq üstündə yaşayanındır" xülyasının sona çatdığını dərk edib, çünki hərbi gücümüzü görüb. Hərbi güc isə siyasət vasitəsidir və qarşı tərəfə real və intensiv təsir göstərmək baxımından həm dövlətlərarası, həm də beynəlxalq münasibətlərdə inkar olunmur. Bununla bağlı D.Stosincer demişdir: "Güc dövlətin real və potensial imkanlarından istifadə edə bilmək imkanıdır. Bunun effektiv olmasını digər dövlətlərin yaşam tərzindəki və davranışındakı dəyişiklikdə axtarmaq lazımdır". Diplomatiyanın əsas aləti olan danışıqlar da bəzən güc faktoruna söykənir. General Şarl de Qoll bunu çox incəliklə vurgulamışdır: "...güclünün danışıqlara ehtiyacı yoxdur, gücsüzə isə danışıqlar çox baha başa gəlir".

Bu gün biz ona görə güclüyük ki, xalq öz rəhbərinin ətrafında birləşərək səngərdəki əsgərinin yanındadır. Biz ona görə güclüyük ki, yanımızda yumruğunu havada düyünləyib, hər dəqiqə düşmənin başına vurmağa hazır olan qardaşlarımız və dostlarımız var.

Diplomatiya danışıqlar elmidir. Amma danışıqlar hərb dövrünün geridə qaldığı anlamına gətirilməməlidir. Danışıqlara müdafiə istehkamı kimi yox, birbaşa həmlə aləti kimi baxılması daha doğru olardı. Açıqlamalarda göstərildiyi kimi, danışıqlar beynəlxalq hüquq subyektləri (dövlətlər, hökumətlər) arasında özlərinin milli təhlükəsizliyinə təhdid yaratmayan, siyasi, iqtisadi, hərbi və digər sahələrdə milli maraqlarına cavab verən, gələcəkdə mümkün həddə gözlənilən nəticələr əldə olunmasına yönələn bağlaşmaların beynəlxalq-hüquqi müstəvidə könüllü razılaşdrıılması yolunda apardıqları dinc (intellektual) qarşıdurmadır.

Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinin Moskva razılaşmasında birmənalı şəkildə qeyd olunur ki, danışıqların formatı dəyişməyəcək. Bu o deməkdir ki, bir daha qondarma rejimin danışıqlarda tərəf kimi iştirakı təklif olunmayacaq. İndi şərtləri biz irəli sürəcəyik. Bizim nə Minsk qrupunun, nə də Ermənistanın nazı ilə oynamaq fikrimiz var. BMT Baş Assambleyasının 8 dekabr 1998-ci il tarixli "Beynəlxalq danışıqların aparılması prinsipləri və şərtləri haqqında" qətnaməsində göstərildiyi kimi, danışıqlar vicdanlı aparılmalıdır. Prezident İlham Əliyev xalqa son müraciətində xüsusi vurğulayaraq bildirmişdir ki, Azərbaycan dövlətinin milli təhlükəsizliyinə, ərazi bütövlüyünə təhdid yaratmaq heç kəsə nəsib olmayacaq. Biz haqq yolundayıq. Qələbə bizimlədir!

***Vəliyulla CƏFƏROV,***
***BDU-nun dosenti***

## Azərbaycanda koronavirus infeksiyasına 528 yoluxma faktı qeydə alınıb, daha 103 nəfər sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına 528 yeni yoluxma faktı qeydə alınıb, daha 103 nəfər sağalıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 2 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 44 min 317 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 39 min 903 nəfər müalicə olunaraq sağalıb, 623 nəfər vəfat edib. Aktiv xəstə sayı 3791 nəfərdir.

Ötən müddət ərzində 1 milyon 218 min 935 test aparılıb. Dünənki test sayı isə 9133-dür.







## Ağdamın Qaradağlı kəndinin sakinləri düşmənin təxribatlarından qorxmurlar




Cəbhədə Azərbaycan Ordusunun əks-hücum əməliyyatı qarşısında aciz qalaraq geri çəkilən Ermənistan silahlı qüvvələri yaşayış məntəqələrini ağır artilleriya atəşinə tutmaqda davam edir. Nəticədə kənd və qəsəbələrdə sakinlərə məxsus yaşayış evlərinə, yardımçı binalara, təsərrüfatlara ziyan dəyir.



AZƏRTAC-ın cəbhə bölgəsinə ezam olunmuş müxbiri düşmənin hədəfə aldığı Ağdam rayonunun Qaradağlı kəndinə gedərək qəhrəman kənd sakinləri ilə həmsöhbət olub. Sakinlər söhbət zamanı bildiriblər ki, təkcə bu gecə kəndin ərazisinə 40-dan çox mərmi atılıb. Lakin düşmənin təxribatları kənd sakinlərini qorxutmur. Yaşayış məntəqəsində həyat öz axarı ilə davam edir. Sakinlər Azərbaycan Ordusuna güvənərək öz doğma kəndlərini tərk etmir, gündəlik işləri ilə məşğul olurlar.

Kənd sakini Nəriman İbadov deyib: "Mənfur düşmən kəndi hər gün atəşə tutur. Bu, onların xislətidir. Mərmilər həm kənddəki evlərə, yardımçı binalara ziyan vurur, həm də əkin sahələrinə düşür. Buna baxmayaraq, camaat kəndimizdədir. Ordumuzun cəbhədə qazandığı qələbələr bizi sevindirir, ruhlandırır. Allah ordumuzu qorusun".

Digər sakin Razi Mirzəyev isə deyib: "Bu gecə düşmən kəndi yenə atəşə tutdu. Qonşumuzun evi yanırdı, söndürdük. Evlər dağılsa da, yansa da, nə qədər ziyan olsa da kəndimizdəyik. Prezidentimizə, ordumuza güvənirik, hər an döyüşlərdə iştirak etməyə hazırıq".

Qeyd edək ki, Ermənistan hərbçilərinin sentyabrın 27-dən başlayan artilleriya atəşləri nəticəsində ilkin məlumata görə, Ağdam rayonunun yaşayış məntəqələrində 56 ev tamamilə dağılıb, 400-dən artıq evə, 86 yardımçı tikiliyə, 16 sosial, 2 istehsal, 1 su təchizatı, 16 ticarət, 5 ictimai iaşə obyektinə, 5 inzibati binaya ziyan dəyib.

## Gəncəyə atılan raket zərbəsindən Azərbaycan-Gürcüstan elektrik xətti zədələnsə də, qısa vaxtda bərpa edilib

"Azərenerji" ASC-nin Mətbuat xidmətinin verdiyi məlumata görə, oktyabrın 17-də təcavüzkar erməni silahlı birləşmələri gecə saat 01 radələrində Mingəçevir və Gəncə şəhərlərinə ballistik raketlərdən zərbələr endirib. Mingəçevir şəhərində yerləşən elektrik stansiyalarına hədəflənmiş raketlər havada məhv edilsə də Gəncə istiqamətində endirilən zərbə nəticəsində Beynəlxalq əhəmiyyətli 500 kV-luq Samux-Qardabani hava elektrik xəttində qəza baş verməsinə səbəb olub.

24 saat fasiləsiz xidmət göstərən "Azərenerji" ASC əməkdaşları qısa vaxt ərzində Azərbaycandan Gürcüstana enerji ötürülən xətdə baş verən qəzanı aradan qaldırıblar.



## Ermənistan ordusunun yaşayış məntəqələrimizi atəşə tutması nəticəsində Ağcabədi rayon sakini xəsarət alıb

Ermənistan silahlı qüvvələri oktyabrın 10-da saat 12:00-dan etibarən elan edilmis humanitar atəşkəs rejiminin tələblərini kobud şəkildə pozmaqla dinc mülki əhalimizə qarşı cinayət əməllərini davam etdirir.

Baş Prokurorluğun Mətbuat xidmətindən bildiriblər ki, oktyabrın 17-də saat 16 radələrində düşmən tərəfin silahlı birləşmələri tərəfindən Ağcabədi rayonunun müxtəlif istiqamətlərdən intensiv raket və ağır artilleriyadan atəşə tutulması nəticəsində Arazbar kənd sakini 1991-ci il təvəllüdlü Hacıyev Orxan Nizami oğlu yaşadığı evin həyətinə top mərmisinin düşməsi nəticəsində müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Evə isə külli miqdarda ziyan dəyib.

Hazırda prokurorluq əməkdaşları tərəfindən mövcud şəraitdə mümkün olan bütün istintaq tədbirləri həyata keçirilir.

**AZƏRTAC**

## "Nezavisimaya qazeta" muzdluların Qarabağda Azərbaycan tərəfində döyüşməsi iddialarının tamamilə əsassız olduğunu sübut edir

Rusiyanın "Nezavisimaya qazeta" nəşri Dağlıq Qarabağda hərbi əməliyyatlara əcnəbi muzdluların Azərbaycan tərəfinə cəlb edilməsi iddialarının tamamilə əsassız olmasından yazır.

AZƏRTAC xəbər verir ki, qəzetin bugünkü nömrəsində "Suriyalı muzdlular Qarabağa virtual "yola salınır". Azərbaycan tərəfində vuruşan silahlılar mövzusu suallar doğurur" sərlövhəli məqalə dərc edilib.

Məqalədə deyilir ki, dünya KİV-i Dağlıq Qarabağda gedən hərbi əməliyyatlarda muzdluların iştirakı mövzusuna yeni təfərrüatlar əlavə edir, lakin bunların heç bir arqumentli əsasları yoxdur. Qərb mətbuatının arxalandığı sübutlar ya həmin silahlılarla messencerlərdə yazışmalara, ya sosial şəbəkələrdəki məlumatlara, ya da Britaniyadakı İnsan Hüquqları üzrə Suriya Absevatoriyasının (SOHR) informasiyalarına əsaslanır.

Qəzet yazır ki, Amerikanın "Wall Street Journal" nəşri Qarabağdan hazırladığı reportajda adı çəkilməyən mənbəyə istinad edir, eksklüziv məlumatların haradan və necə alındığını açıqlamır. Britaniyanın BBC agentliyi isə guya Suriya muzdlularından messencer vasitəsi ilə müsahibə aldığını bildirir.


рийских наемников «отправляют» в Карабах виртуалы
общения о воюющих за Азербайджан боевиках вызывают вопросы

Обострение конфликта вокруг Нагорного Карабаха - все статьи по теме

Тема привлечения иностра наемников к участию в вооруженном конфликте в Нагорном Карабахе обрас мировых СМИ новыми подробностями, однако по прежнему не получает пр аргументационной базы. Т доказательный фундамент которым пользуется в большинстве случаев запа качественная пресса, представляет собой либо переписку с предполагаем «солдатами удачи» в мессенджере, либо сообщ социальных сетях, либо

Məqalədə deyilir: "Münaqişədə Azərbaycan tərəfində Suriya muzdlularının iştirakı barədə informasiya əsasən sosial şəbəkələrdə yayılır. Bolqarıstanda yerləşən "Caspian and Black Sea Analysis Foundation" (CCBS) analitik mərkəzinin məlumatına görə, Suriya muzdluları ilə bağlı ilk məlumatı sentyabrın 21-də erməni əsilli suriyalı Kevork Almasyan vermişdi. Elə həmin gün Münxendən olan jurnalist Lindsi Snell həmin Almasyanın bəyanatına istinad edərək Türkiyənin dəstəklədiyi Suriya milli ordusunun Qarabağa yollanması barədə tvit yazmışdı. Sübut olaraq isə onlar təyyarədə uçan naməlum suriyalıların şəklini paylaşaraq, guya bu şəxslərin "Həmzə" diviziyasının Bakıya uçan döyüşçüləri olduğunu iddia edirlər".

Müəllif təəccüblənir ki, məhz bu tvit bir çox sanballı nəşrlərin dərc etdiyi materialların ilkin mənbəyinə çevrilib. Halbuki Snellin akkauntundan da onun Azərbaycana qarşı qərəzli mövqeyi aydın görünür.

Məqalədə qeyd olunur ki, guya Azərbaycanda həlak olduğu deyilən və fotoları paylaşılan bir çox suriyalının çoxdan və tamam başqa şəraitdə öldüyü ortaya çıxır. Məsələn, Əbdürrəhman Temelli adlı suriyalının əmisi Sərdar Temelli sosial şəbəkələrdə yazıb ki, Ermənistan Müdafiə Nazirliyi onun qardaşı oğlunun şəklini yayaraq guya Qarabağda həlak olduğunu iddia edir. Əslində o, İraq ərazisində döyüşlərdə ölüb. Lakin Qərb jurnalistləri bu iddiaya məhəl qoymayıblar.

"Nezavisimaya qazeta" xatırladır ki, SOHR-un ənənəvi olaraq anonim "şahidlərə" və "könüllülərə" istinadla yalan məlumat yayması barədə Rusiya Müdafiə Nazirliyi və Xarici İşlər Nazirliyi də dəfələrlə xəbərdarlıq ediblər.

Müəllif Suriya silahlılarının Qarabağda döyüşməsi məsələsinə Azərbaycan Prezidenti İlham Əliyevin "Rossiya-1" telekanalının "60 minut" verilişinə müsahibəsində aydınlıq gətirməklə son qoyduğunu yazır. Prezident İlham Əliyev xatırladıb ki, Azərbaycanın müzəffər ordusu, yetərincə hərbi sursatı var və əcnəbilərin cəlb olunmasına ehtiyacı yoxdur. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın köməkçisi Elçin Əmirbəyov da "Al Arabiya" telekanalına müsahibəsində Azərbaycan Silahlı Qüvvələrinin suriyalılardan istifadə etməsini şayiə adlandırdığı vurğulanır.

Müəllif sual edir ki, Ermənistanın baş naziri Nikol Paşinyan suriyalıların Qarabağda iştirakından danışdığı halda, kürd silahlılarının Qarabağ döyüşlərində iştirakını etiraf edəcəkmi?

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

**ALLAH RƏHMƏT ELƏSİN!**

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi iş yoldaşları Bahadur İmanquliyevə qızı

**GÜNELİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Sahibkarlıq, Özəl Elm və Yüngül Sənaye İşçilərinin Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Məhəmmədəli Salmanova oğlu

**ELÇİNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 7466
Sifariş 2399
Qiyməti 40 qəpik